RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 11 (9466) 19 YANVAR 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycan neokolonializmə qarşı mübarizəni prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirib

### Azərbaycan Prezidenti İlham Əliyev Syerra-Leonenin ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Syerra-Leone Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Alie Badara Kamaranın etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səfir ilk növbədə Syerra-Leone Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Syerra-Leonenin dövlət başçısına çatdırmağı xahiş etdi.

Görüşdə ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq ilə bağlı fikir mübadiləsi aparıldı.



Azərbaycanın yaxın günlərdə Qoşulmama Hərəkatına sədrliyinin başa çatacağını deyən dövlətimizin başçısı hərəkat çərçivəsində Syerra-Leoneyə üzv ölkə olaraq göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi. Prezident İlham Əliyev ölkəmizin hərəkata sədrliyinin başa çatmasından sonrakı dövrdə də bu təşkilat çərçivəsində Azərbaycan ilə Syerra-Leonenin əməkdaşlıq edəcəyinə ümidvar olduğunu dedi.

Ölkəsinin Azərbaycanla əlaqələrin inkişafında çox maraqlı olduğunu deyən səfir Syerra-Leonenin eboladan əziyyət çəkən zaman Azərbaycanın göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini bildirdi. O, həmçinin Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı. Səfir Azərbaycan və Syerra-Leonenin beynəlxalq təşkilatlarda bir-birinə verdiyi dəstəyi yüksək dəyərləndirdi.

Alie Badara Kamara Azərbaycan rəsmiləri ilə görüşlər keçirməyi planlaşdırdığını bildirdi, əlaqələrin genişləndirilməsi məqsədilə yeni istiqamətlərin və yolların müəyyənləşdirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğuladı.

Azərbaycan Prezidenti ölkələrimiz və xalqlarımız arasında təmasların artırılmasının vacibliyinə toxundu.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan Qoşulmama Hərəkatının sədri olaraq təsisat çərçivəsində parlament, gənclər və qadınlar platformalarının yaradılması təşəbbüsləri ilə çıxış edib.

Prezident İlham Əliyev bildirdi ki, Qoşulmama Hərəkatının yaradılmasının müstəmləkəçiliyə qarşı mübarizənin təməl prinsiplərindən və fəaliyyət istiqamətlərindən biri olduğunu nəzərə alaraq Azərbaycan neokolonializmə qarşı mübarizəni də prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirib və bu prosesə öz dəstəyini verib. Bakı Təşəbbüs Qrupunun 2023-cü ildə həm Bakıda, həm də BMT-nin Cenevrə ofisində neokolonializm mövzusunda vacib tədbirlər keçirdiyini qeyd edən Azərbaycan Prezidenti vurğuladı ki, müstəmləkəçi ölkələr Afrikada, Asiyada, Latın Amerikasında müstəmləkə altında saxladığı xalqlardan və dövlətlərdən ən azı üzr istəməlidirlər. Dövlətimizin başçısı onu da əlavə etdi ki, müstəmləkəçiliyin forması dəyişsə də, mahiyyəti dəyişməyib və onu müxtəlif formalarda saxlayıb.

Beynəlxalq institutlara üzv olduqlarından sui-istifadə edərək müstəmləkəçi imperiyaların müstəmləkə altına saldıqları ölkələrdə törətdikləri cinayətləri ört-basdır etməyə çalışdıqlarını deyən dövlətimizin başçısı bu cinayətlərin dünya ictimaiyyətinə daha geniş çatdırılmasının zəruriliyini vurğuladı.

Prezident İlham Əliyev Syerra-Leone Prezidentini bu il Bakıda keçiriləcək COP29 tədbirinə dəvət etdi.

Görüşdə iqtisadiyyat, kənd təsərrüfatı, investisiya, insan kapitalının inkişafı, mədəniyyət, elm və təhsil sahələrində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı, yaxşı idarəçilik sahəsində təcrübə mübadiləsi, bu xüsusda "ASAN xidmət" təcrübəsi qeyd edildi, Azərbaycanın bu sahədə təcrübəsini bölüşməyə hazır olduğu bildirildi.

## Azərbaycanın təcrübəsi Seneqal üçün çox maraqlıdır

### Azərbaycan Prezidenti İlham Əliyev Seneqalın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Seneqal Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Şeyx Qeyenin etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səfir Seneqal Prezidentinin qardaş salamlarını dövlətimizin başçısına çatdırdı. Qeyd etdi ki, Seneqal Prezidenti ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi əzmindədir.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Seneqal dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Görüşdə ölkələrimiz arasında əlaqələrin həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı, ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyi bildirildi. İndiyədək Azərbaycanla Seneqalın BMT və Qoşulmama Hərəkatı çərçivəsində bir-birinə göstərdiyi daimi dəstək müsbət amil kimi qeyd edildi.

Prezident İlham Əliyev BMT və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi. Ölkələrimiz arasında ali səviyyədə aparılan diplomatik yazışmalar və beynəlxalq, milli günlərdə qarşılıqlı təbriklər yüksək qiymətləndirildi.

Dörd il ərzində Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik etdiyini vurğulayan Prezident İlham Əliyev ölkəmizin təşkilata sədrliyinin daha bir il uzadılmasına Seneqalın da dəstək verdiyini qeyd edərək buna görə bir daha minnətdarlığını ifadə etdi.



Seneqalın səfiri ölkəmizin bu hərəkata uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı. İkitərəfli əməkdaşlığa toxunan Prezident İlham Əliyev siyasi əlaqələrin daha da inkişaf etdirilməsi və iqtisadi-ticari sahədə imkanların araşdırılmasının zəruriliyini vurğuladı.

Dövlətimizin başçısı səfirin Azərbaycanda keçirəcəyi rəsmi görüşlərin və onun fəaliyyətinin əməkdaşlığın daha da genişlənməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş perspektivlərin olduğu qeyd edildi, siyasi, iqtisadi, ticari, mədəni, humanitar və təhlükəsizlik sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu.

Səfir Seneqalda da neft aşkarlandığını bildirərək ölkəsinin neft hasil edən dövlətlər sırasına qoşulduğunu və bu xüsusda Azərbaycanın təcrübəsinin Seneqal üçün çox maraqlı olduğunu vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın neft və enerji sahəsində fəaliyyət göstərən ali təhsil müəssisələrində Seneqaldan olan tələbələrin təhsil almaları imkanlarını da qeyd etdi.

Ölkəmizin bu il COP29-a ev sahibliyi edəcəyini deyən Azərbaycan Prezidenti Seneqalın dövlət başçısını bu tədbirə dəvət etdi.

## Yeni səfir ikitərəfli əlaqələrin inkişafı üçün səylərini əsirgəməyəcək

### Prezident İlham Əliyev ABŞ-nin ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Amerika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mark Libbinin etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə söhbət etdi.

Azərbaycan Prezidenti səfiri yeni təyinatı münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı.

Səfir ikitərəfli əlaqələrin inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Görüşdə Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə münasibətlərin perspektivlərinə, həmçinin beynəlxalq və regional məsələlərə dair fikir mübadiləsi aparıldı. İqtisadi, enerji sahələrində və iki ölkənin biznes dairələri arasında əməkdaşlıq məsələlərinə toxunuldu.



Söhbət zamanı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi barədə fikir mübadiləsi aparıldı.

ABŞ səfiri COP29-un bu il Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

Görüşdə COP29 çərçivəsində Azərbaycanla ABŞ arasında iqlim dəyişikliyi mövzusunda əməkdaşlıq imkanlarına da toxunuldu.

## Gənclər bu seçkilərin də ən fəal iştirakçıları olacaqlar

Qürur hissi ilə qeyd etməliyik ki, Azərbaycan artıq uzun müddətdir özünün müasir dövlətçilik tarixinin ən qüdrətli mərhələsini yaşayır. Ötən 20 ildə keçdiyimiz dinamik inkişaf yolundan, tam iqtisadi müstəqilliyimizin təmin olunmasından başlamış respublikamızın beynəlxalq mövqelərinin daha da möhkəmlənməsinə, qlobal nüfuzunun yüksəlməsinə qədər nail olduğumuz hər bir möhtəşəm uğur bu reallığı təsdiq edən mühüm siyasi-iqtisadi faktorlardır.

→ 10

## Xalq doğru və müdrik seçimini edəcək

Fevralın 7-də ölkəmizin ictimai-siyasi həyatında çox əlamətdar hadisəyə şahidlik edəcəyik. Azərbaycan vətəndaşları səbirsizliklə gözlədikləri tarixi gündə fəal iştirak edəcək, öz layiqli namizədlərinə səs verəcəklər. Növbədənkənar prezident seçkilərinin keçirilməsi qərarı sanki çoxdan gözlənilmiş xəbər kimi xalqımızı razı saldı. Bunun nəticəsidir ki, müvafiq sərəncamdan sonra mediada çox böyük minnətdarlıq hissi ilə yazılmış şərhlər oxuyuruq. Budəfəki seçkilərin Zəfər seçkisi olması da bu baxımdan xüsusi əhəmiyyət kəsb edir.

→ 10

## Bütün namizədlər üçün bərabər imkanlar təmin edilib

2023-cü il dekabrın 7-də müvafiq sərəncamla ölkədə növbədənkənar prezident seçkiləri elan edildi və proses 2024-cü il fevralın 7-nə təyin olundu. Müharibədə qələbəmiz və suveren haqlarımızın tam bərpası qarşıya qoyulan missiyaların ləyaqətlə tamamlandığını göstərdi. Eyni zamanda hazırkı reallıq məhz bu uğurlara əsaslanan nəticələrin davamlılığını diktə edən yeni şərtləri meydana çıxardı. Bu mənada fevralın 7-də prezident seçkilərinin keçirilməsi inkişafın yeni hədəflərə uyğun tempdə davamlılığını təmin etmək üçün tarixi zərurətdir.

→ 10

## Böyük Zəfərlə 20 Yanvar şəhidlərinin də qisası alındı

Qanlı Yanvar hadisələri Azərbaycanda milli kimliyin formalaşmasına həlledici təsir göstərdi, dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi oldu. 1990-cı ilin yanvarından sonra milli azadlıq hərəkatı tam siyasi reallığa çevrildi, dönməz xarakter aldı, xalqımız öz gələcəyini yalnız Azərbaycanın müstəqilliyini bərpa etməsində gördü. Bu hadisədən sonra Azərbaycanda sovet imperiyası özünün bütün mənəvi və sosial dayaqlarını itirdi və tezliklə xalqımız dövlət müstəqilliyini bərpa etdi.

→ 13

## "Fransaya sanksiya tətbiq olunsun, şirkətləri Azərbaycandan çıxarılsın"

### Rəsmi Bakı Fransaya həddini bildirməkdə qərarlıdır

Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi də yanvarın 18-də Fransa Senatının Fransada fəaliyyət göstərən erməni lobbisi rəhbərlərinin və onların təsiri altında olan Fransa rəsmilərinin və siyasətçilərinin təhriki ilə qəbul etdiyi qətnaməsi ilə əlaqədar bəyanat qəbul edib.

→ 8

## İlin ilk qayıdış köçü

Böyük qayıdış proqramına əsasən, ilk beşillikdə 34 min 500 ailə azad edilmiş ərazilərə köçürüləcək. Bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilir. Artıq 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 408 ailə (1555 nəfər) Laçın şəhərinə, 410 ailə (1519 nəfər) Füzuli şəhərinə, 203 ailə (783 nəfər) Laçın rayonunun Zabux kəndinə qayıdıb. Ümumilikdə isə 1216 ailə - 4818 nəfər elinə, obasına qovuşub.

İşğaldan azad edilmiş torpaqlarımızda yeni infrastrukturlar qurulur, yollar salınır, kommunikasiya sistemləri yaradılır, hava limanları tikilir.

→ 16

# "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 688; 2000, № 7, maddə 494; 2002, № 8, maddə 464; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 202; 2005, № 10, maddələr 874, 876, 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddə 1, № 2, maddə 82; 2009, № 6, maddə 399, № 11, maddələr 877, 878; 2010, № 11, maddə 944; 2011, № 4, maddə 269, № 7, maddə 611, № 11, maddə 987; 2012, № 6, maddə 519; 2014, № 3, maddə 237; 2016, № 6, maddələr 1012, 1017; 2017, № 12 (I kitab), maddə 2238; 2018, № 2, maddə 146; 2020, № 7, maddə 856; 2021, № 5, maddə 432; 2022, № 8, maddə 831, № 12, maddə 1367; 2023, № 5, maddələr 616, 624) 39-cu maddəsinin dördüncü hissəsinin birinci abzasına "işçilərinin" sözündən sonra "və prokurorluq orqanlarının digər əməkdaşlarının" sözləri əlavə edilsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 26 dekabr 2023-cü il*

# "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1081-VIQD nömrəli Qanununun tətbiqi və "Prokurorluq işçilərinin sosial müdafiəsini gücləndirmək və prokurorluq orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 iyul tarixli 1402 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1081-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Prokurorluq işçilərinin sosial müdafiəsini gücləndirmək və prokurorluq orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 iyul tarixli 1402 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 736 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adına və 1-ci hissəsinə "işçilərinin" sözündən sonra "və prokurorluq orqanlarının digər əməkdaşlarının" sözləri əlavə edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş "Prokurorluq işçilərinin sosial müdafiəsini gücləndirmək və prokurorluq orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası" üzrə:

1.2.1. adına "işçilərinin" sözündən sonra "və prokurorluq orqanlarının digər əməkdaşlarının" sözləri əlavə edilsin;

1.2.2. 1.2-ci bəndə "işçilərinin" sözündən sonra "və prokurorluq orqanlarının digər əməkdaşlarının (bundan sonra - əməkdaşlar)" sözləri əlavə edilsin;

1.2.3. 3.1-ci bənd üzrə:

1.2.3.1. birinci abzasda "prokurorluq işçilərinin (bundan sonra - işçilər)" sözləri "əməkdaşların" sözü ilə əvəz edilsin;

1.2.3.2. 3.1.1-ci və 3.1.2-ci yarımbəndlərdə "işçilərin" sözü "əməkdaşların" sözü ilə əvəz edilsin;

1.2.3.3. 3.1.3-cü yarımbənddə "işçilər" sözü "əməkdaşlar" sözü ilə əvəz edilsin;

1.2.4. 3.4-cü bənddə "işçinin" sözü "əməkdaşın" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1081-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 18 yanvar 2024-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 21** **QƏRAR** **Bakı şəhəri,13 yanvar 2024-cü il**

## "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun yaradılması, "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun tərkibi, səlahiyyətləri və fəaliyyəti ilə bağlı məsələlər haqqında Əsasnamə"nin təsdiq edilməsi və "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 sentyabr tarixli 408 nömrəli Qərarının ləğv edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 661-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanında dəyişiklik edilməsi, "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 4 avqust tarixli 171 nömrəli Fərmanının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 yanvar tarixli 2001 nömrəli Fərmanının 2.2.1-ci yarımbəndinin və 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupu yaradılsın.

2. "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun tərkibi, səlahiyyətləri və fəaliyyəti ilə bağlı məsələlər haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur*).

3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"na uyğun olaraq kiçik və orta biznes evlərində xidmətlər göstərən dövlət orqanları (qurumları) Koordinasiya Qrupunun tərkibinin formalaşdırılması ilə əlaqədar Koordinasiya Qrupunda onları təmsil edəcək şəxslər barədə müvafiq məlumatları Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə təqdim etsinlər.

4. "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 sentyabr tarixli 408 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə1936

(Cild I) ləğv edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

** Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 22** **QƏRAR** **Bakı şəhəri,15 yanvar 2024-cü il**

## "İdxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının siyahısı"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 677-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 30 avqust tarixli 393 nömrəli və "Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 21 mart tarixli 969 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1946 nömrəli Fərmanının 2.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İdxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının siyahısı" təsdiq edilsin (əlavə olunur*).

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

** Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 24** **QƏRAR** **Bakı şəhəri,15 yanvar 2024-cü il**

## "Heyvanlar üçün bioloji preparatlar istehsalı obyektlərinin baytarlıq qanunvericiliyinin tələblərinə uyğunluğunun uçotunu aparmaq üçün onların qeydiyyatı Qaydası"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ştatdankənar (fəxri) konsulu haqqında" Əsasnamə barədə" 1997-ci il 21 aprel tarixli 575 nömrəli, "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə əlavə tədbirlər haqqında" 2003-cü il 23 oktyabr tarixli 951 nömrəli, "Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 26 may tarixli 69 nömrəli, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli və "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1010-VQD nömrəli Qanunun tətbiqi və "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 16 aprel tarixli 1921 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 iyun tarixli 2173 nömrəli Fərmanının 6.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Heyvanlar üçün bioloji preparatlar istehsalı obyektlərinin baytarlıq qanunvericiliyinin tələblərinə uyğunluğunun uçotunu aparmaq üçün onların qeydiyyatı Qaydası" təsdiq edilsin (əlavə olunur*).

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

** Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 23** **QƏRAR** **Bakı şəhəri,15 yanvar 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 24 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün yemək xərci müavinəti, habelə kommunal və digər xidmətlər üzrə dövlət büdcəsindən ödənişlər əvəzinə vahid aylıq müavinətin ödənilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 24 yanvar tarixli 11 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 1, maddə 125 (Cild I) ilə təsdiq edilmiş "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün yemək xərci müavinəti, habelə kommunal və digər xidmətlər üzrə dövlət büdcəsindən ödənişlər əvəzinə vahid aylıq müavinətin ödənilməsi Qaydası"nın 2.7-ci bəndində "səfərbərlikdən yayınmış" sözləri "müddətli həqiqi hərbi xidmətə və ya səfərbərlik üzrə hərbi xidmətə çağırışdan boyun qaçırmış" sözləri ilə əvəz edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 26** **QƏRAR** **Bakı şəhəri, 16 yanvar 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 88 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət mülkiyyətinə keçirilmiş və gömrük hərraclarında satılmamış qalan, yaxud mülki dövriyyədə olmasına yol verilməyən və mülki dövriyyəsi məhdudlaşdırılmış mallar, həmçinin tez xarab olan və saxlanc müddəti keçmiş mallar barəsində sərəncam verilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2005-ci il 20 aprel tarixli 226 nömrəli, "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" 2009-cu il 9 fevral tarixli 48 nömrəli, "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2009-cu il 3 aprel tarixli 74 nömrəli, "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2011-ci il 16 fevral tarixli 386 nömrəli, "Müəyyən sahibkarlıq fəaliyyəti növləri ilə məşğul olmaq üçün tələb edilən xüsusi razılıq (lisenziya) və icazə sistemi ilə bağlı bəzi məsələlər haqqında" 2011-ci il 26 oktyabr tarixli 509 nömrəli, "Dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması, yaşayış yeri üzrə qeydiyyat və lisenziyalaşdırma prosedurlarının elektronlaşdırılması sahəsində bəzi tədbirlər haqqında" 2015-ci il 31 avqust tarixli 588 nömrəli, "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 18 yanvar tarixli 745 nömrəli, "Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında" 2016-cı il 21 may tarixli 920 nömrəli, "Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 30 sentyabr tarixli 1048 nömrəli fərmanlarında və "Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 4 mart tarixli 1853 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 iyul tarixli 2233 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 88 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 319 (Cild I) ilə təsdiq edilmiş "Dövlət mülkiyyətinə keçirilmiş və gömrük hərraclarında satılmamış qalan, yaxud mülki dövriyyədə olmasına yol verilməyən və mülki dövriyyəsi məhdudlaşdırılmış mallar, həmçinin tez xarab olan və saxlanc müddəti keçmiş mallar barəsində sərəncam verilməsi Qaydaları"nın 4.1-ci və 4.2-ci bəndlərindən "xüsusi" sözü çıxarılsın.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 25** **QƏRAR** **Bakı şəhəri, 16 yanvar 2024-cü il**

## "Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamının 2.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 992 (Cild I) 2-ci hissəsində "yanvarın" sözü "aprelin" sözü ilə əvəz edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 18 QƏRAR Bakı şəhəri, 12 yanvar 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 aprel tarixli 94 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-si il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 aprel tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1.3-cü yarımbənddə "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

2. 2.1.4-8-ci yarımbənddə (hər iki halda) "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

3. 2.1.10-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.10. **qida məhsullarının qablaşdırılması** - məhsullara əmtəə görünüşü verən, məhsulun tam və ya qismən örtülməsini təmin edən, məhsulun tərkibini açılmamış və tamlığı pozulmamış vəziyyətdə qoruyan vasitə, daşınma məqsədilə istifadə olunan tara;".

4. Aşağıdakı məzmunda 2.1.11-1-ci yarımbənd əlavə edilsin:

"2.1.11-1. **etiketlənmə** - qida və yem məhsullarının üzərinə, qablaşdırma materialına, qida və yem məhsulunu müşayiət edən və ya ona aid olan sənədlərə, yaddaş vərəqələrinə (içlik vərəqələri), yapışdırılan vərəqələrə (stikerlərə) vurulan, istehlakçı üçün məhsul və istehsalçı barəsində informasiya verən mətn, nişan (əmtəə və digər), simvol, şərti işarələr və rəsmlər;".

5. 2.1.13-cü yarımbənddə "məhsulun" sözü "qida məhsullarının" sözləri ilə, "məhsullar" sözü "maddələr" sözü ilə əvəz edilsin və həmin yarımbənddən "və bioloji fəallığa malik qida əlavələri" sözləri çıxarılsın.

6. 2.1.18-ci və 2.1.25-ci yarımbəndlər ləğv edilsin.

7. 2.1.25-1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.25-1. **qida zənciri obyektinin və ya subyektinin (qida obyekti və ya subyekti), habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalını həyata keçirən obyektlərin qeydiyyatı** - qeydiyyat üçün tələb olunan məlumatlar təqdim edildiyi halda Azərbaycan Respublikasının ərazisində qida və yem məhsullarının ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi və utilizasiyası həyata keçirilən qida obyektləri və ya qida obyektləri olmadan fəaliyyət göstərən qida subyektləri, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalını həyata keçirən obyektlərin "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qeydiyyata alınması;".

8. Aşağıdakı məzmunda 2.1.25-2-ci yarımbənd əlavə edilsin:

"2.1.25-2. **qida zənciri obyektlərinin təsdiqi** - siyahısı Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən heyvan və bitki mənşəli qida məhsullarının və yem məhsullarının istehsalı, emalı, dövriyyəsi və utilizasiyası ilə məşğul olan qida obyektlərinin Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra - Agentlik) tərəfindən qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilməklə, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təsdiqi;".

9. 2.1.29-cu və 2.1.31-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"2.1.29. **qida məhsulları** - insanların qidalanması üçün nəzərdə tutulan emal olunmamış, yarımemal olunmuş və ya tam emal olunmuş məhsullar, o cümlədən qida əlavələri, bioloji aktiv qida məhsulları, qida xammalı, içkilər (alkoqollu və alkoqolsuz), içməli su (qablaşdırılmış), duz və saqqız. Bu anlayışa yem məhsulları, istehlak üçün hazır olmayan diri heyvanlar, toxum, məhsulun yığımına qədər bitkilər, dərman vasitələri, ətriyyat-kosmetik vasitələr, tütün və tütün məhsulları, narkotik və psixotrop maddələr və çirkləndirici maddələr daxil deyildir;

2.1.31. **qida təhlükəsizliyi** - qida zəncirinin bütün mərhələlərində, habelə qida məhsullarının istehlakı zamanı qida məhsullarının insanların həyat və sağlamlığına zərər vurmasını tam istisna edən vəziyyəti;".

10. 2.1.34-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.34. **qida məhsullarının yararlılıq müddəti** - saxlanma şərtlərinə əməl edilməklə, qida məhsullarının qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla müəyyən edilən təhlükəsizlik tələblərinə uyğunluğunun tam saxlanılması müddəti;".

11. 2.1.30-cu, 2.1.32-ci, 2.1.33-cü və 2.1.35-ci yarımbəndlər ləğv edilsin.

12. 3.3-2-ci bənddə "Etil (yeyinti)" sözləri "Etil (qida)" sözləri ilə, "etil (yeyinti)" sözləri "etil (qida)" sözləri ilə əvəz edilsin.

13. 3.4-cü bəndin üçüncü cümləsində "qida təhlükəsizliyi qeydiyyatına alan orqan və dövlət qeydiyyatı" sözləri "obyektin qida təhlükəsizliyi sahəsində qeydiyyatı və ya təsdiqi" sözləri ilə əvəz edilsin.

14. 3.15-ci bənddə "və vaxtaşırı olaraq" sözləri "ilkin və dövri" sözləri ilə əvəz edilsin və həmin bəndə "keçməlidirlər" sözündən sonra ", habelə gigiyenik təlimlərə cəlb olunmalıdırlar" sözləri əlavə olunsun.

15. 4.4-cü bənddə "ərzaq malları" sözləri "qida məhsulları" sözləri ilə, "mal və ya məhsulun istehsal edildiyi saat və tarix, ən son istehlak tarixi və saatı, saxlanma şərtləri" sözləri "qida məhsullarının adı, qida və enerji dəyəri, tərkibi, miqdarı, keyfiyyət göstəriciləri, istehsal tarixi, yararlılıq müddəti, saxlanma şəraiti, tərkibindəki allergenlər, mənşəyi, istehsalçının adı və ünvanı, istehsal üsulu və istifadə qaydaları" sözləri ilə əvəz edilsin.

16. 4.5-ci bəndə (ikinci halda) "saxlanma" sözündən sonra "(qida məhsullarının yararlılıq)" sözləri əlavə edilsin.

17. 4.6-cı bəndə "Saxlanma" sözündən sonra "(qida məhsullarının yararlılıq)" sözləri əlavə edilsin.

18. 4.13-cü bəndin ikinci cümləsinə "tələb olunan" sözlərindən sonra ", habelə qida məhsullarına münasibətdə "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsi ilə müəyyən olunan" sözləri əlavə edilsin.

19. 4.20-ci bənddə "Qeyri-ərzaq" sözü "Qeyri-qida" sözü ilə əvəz edilsin.

20. 5.1-ci bəndin üçüncü cümləsində "ərzaq mallarının, o cümlədən spirtli və spirtsiz içkilərin" sözləri "qida məhsullarının" sözləri ilə əvəz edilsin.

21. 5.10.4-cü yarımbənddə "tərkibi, kaloriliyi, sağlamlıq üçün zərərli maddələrin qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələbləri ilə müqayisəli miqdarı" sözləri "qida və enerji dəyəri, tərkibi, miqdarı, keyfiyyət göstəriciləri, istehsal tarixi, yararlılıq müddəti, saxlanma şəraiti, tərkibindəki allergenlər, mənşəyi, istehsal üsulu" sözləri ilə əvəz edilsin.

22. Aşağıdakı məzmunda 5.10-1-ci bənd əlavə edilsin:

"5.10-1. İctimai iaşə obyektləri qida təhlükəsizliyi sahəsində nəzərdə tutulmuş tələbləri yerinə yetirdikdən və Agentlik tərəfindən qeydiyyata alındıqdan və ya təsdiq edildikdən sonra qida məhsullarını istehlakçılara təqdim edə bilərlər.".

23. 5.15-ci bənddə "sənədlərdən birini" sözləri "aidiyyəti sənədləri" sözləri ilə əvəz edilsin.

24. 5.15.1-ci yarımbənddən "gigiyenik" sözü çıxarılsın və həmin yarımbənddə "qida məhsulları istehsalçısının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarış, qida təhlükəsizliyi sertifikatı" sözləri "qida obyektinin (subyektinin) qeydiyyata alınmasına və ya təsdiq olunmasına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalını həyata keçirən obyektlərin qeydiyyata alınmasına dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarış, idxal olunmuş qida və yem məhsullarına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatlara verilən idxal sağlamlıq aktı" sözləri ilə əvəz edilsin.

25. 5.21-ci bəndə "keyfiyyətini" sözündən sonra "və təhlükəsizliyini" sözləri əlavə edilsin.

26. 5.35-ci bənddə "ərzaq mallarının" sözləri "qida məhsullarının" sözləri ilə əvəz edilsin.

27. 5.44-cü bəndə "saxlanma" sözündən sonra "(qida məhsullarının yararlılıq)" sözləri əlavə edilsin.

28. 5.49-cu bəndin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Qanuna müvafiq olaraq müəyyən edilmiş tələblərə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsullarının geri çağırılması, yığışdırılması, utilizasiyası və məhv edilməsi "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 30.1-ci maddəsi ilə müəyyən olunmuş qaydada həyata keçirilir.".

29. 5.50-ci bəndin birinci cümləsində "qeyri-ərzaq malını" sözləri "qeyri-qida məhsulunu" sözləri ilə əvəz edilsin.

30. 5.51-ci bəndin ikinci cümləsində "qeyri-ərzaq malının" sözləri "qeyri-qida məhsulunun" sözləri ilə əvəz edilsin.

31. 5.54-cü bəndin birinci cümləsində "Ərzaq mallarında" sözləri "Qida məhsullarında" sözləri ilə əvəz edilsin.

32. 5.65-ci bəndin birinci cümləsində "ərzaq malı" sözləri "qida məhsulu" sözləri ilə, hər iki halda "malın" sözü "məhsulun" sözü ilə, "malı" sözü "məhsulu" sözü ilə və "malla" sözü "məhsulla" sözü ilə əvəz edilsin.

33. 6-cı hissənin adında "Ərzaq mallarının" sözləri "Qida məhsullarının" sözləri ilə əvəz edilsin.

34. 6.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"6.1. Qida və yem məhsullarının qablaşdırılması və etiketlənməsi "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsi ilə müəyyən edilmiş tələblərə cavab verməlidir.".

35. 6.2-ci bənddə "yeyinti məhsulları (qida)" sözləri "qida məhsulları" sözləri ilə əvəz edilsin və "şəhadətnamə" sözündən sonra ", idxal sağlamlıq aktı" sözləri əlavə edilsin.

36. 6.5-ci bənddə "yeyinti (qida)" sözləri "qida" sözü ilə əvəz edilsin.

37. 6.6-cı bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Qida məhsullarının qablaşdırılmasına dair tələblər qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla müəyyən edilir.".

38. 6.7-ci bənd ləğv edilsin.

39. 6.8-ci bənddə "ərzaq mallarının" sözləri "qida məhsullarının" sözləri ilə əvəz edilsin.

40. 6.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

"6.9. "Qida məhsullarının qablaşdırılmasında (bükülməsində) istifadə olunan materialların istehsalı və emalını həyata keçirən obyektlər qida təhlükəsizliyi sahəsində qeydiyyata alınmasına dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarışa, habelə idxal olunan materiallar idxal sağlamlıq aktına malik olmalıdır.".

41. 6.10-cu bənddə "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

42. 6.12-ci bənddə "Ərzaq mallarının" sözləri "Qida məhsullarının" sözləri ilə və "qeyri-ərzaq mallarının" sözləri "qeyri-qida məhsullarının" sözləri ilə əvəz edilsin.

43. 6.13-cü bənddə, 6.13.1-6.13.3-cü və 6.13.6-cı yarımbəndlərdə "ərzaq mallarının" sözləri "qida məhsullarının" sözləri ilə əvəz edilsin.

44. 6.13.4-cü və 6.13.5-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"6.13.4. "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə uyğun olaraq müəyyən edilən təhlükəli qida məhsullarının;

6.13.5. qeydiyyata alınmadan və ya təsdiq olunmadan qida sahəsində fəaliyyət göstərən qida obyektlərinin (subyektlərinin) qida məhsullarının;".

45. 6.13.7-ci və 6.13.10-cu yarımbəndlər ləğv edilsin.

46. 6.13.8-ci yarımbənddə "yeyinti mallarının" sözləri "qida məhsullarının" sözləri ilə əvəz edilsin.

47. 6.15-ci bənddə "ərzaq malları" sözləri "qida məhsulları" sözləri ilə əvəz edilsin, həmin bəndin mətni birinci cümlə hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Qida subyektləri qida məhsullarının istehlak olunduğu ictimai iaşə və xidmət obyektlərində Təhlükənin Analizi və Kritik Nəzarət Nöqtələrinə (HACCP-a) əsaslanan prosedurları tətbiq etməli və bu prinsiplərə əsaslanan qida təhlükəsizliyinə daxili nəzarət sisteminə malik olmalıdırlar.".

48. 7.2-ci bənddə "maksimum saxlanma" sözləri "yararlılıq" sözü ilə əvəz edilsin.

49. 7.3-cü bənddə "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinin birinci hissəsi" sözləri "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunu" sözləri ilə əvəz edilsin.

50. 7.4-cü bəndin ikinci cümləsində "ərzaq mallarının" sözləri "qida məhsullarının" sözləri ilə əvəz edilsin.

51. Aşağıdakı məzmunda 7.5-1-ci bənd əlavə edilsin:

"7.5-1. Məmulatların saxlanması və daşınması zamanı onların təhlükəsizliyi "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsi ilə müəyyən edilmiş tələblərə uyğun olmalıdır.".

52. 7.14-cü bəndin birinci cümləsində "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların göstərilən müddətdə" sözləri "yararlılıq müddətində" sözləri ilə əvəz edilsin.

53. 11.8-ci bənddə "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra - Agentlik)" sözləri "Agentliyin" sözü ilə və 20-1.14-cü bənddə "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi" sözləri "Agentlik" sözü ilə əvəz edilsin.

54. Aşağıdakı məzmunda 11.10-cu bənd əlavə edilsin:

"11.10. İlkin istehsalla məşğul olan qida subyektləri istehsal etdikləri məhsulların təhlükəsizliyinin təmin edilməsi üçün baytarlıq preparatlarından, bitki mühafizə vasitələrindən və aqrokimyəvi maddələrdən qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğun istifadə etməlidirlər.".

55. 16.1-ci bəndin birinci cümləsində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

56. 16.3-cü bəndin ikinci cümləsində "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci" sözləri "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci" sözləri ilə əvəz edilsin.

57. 16.6.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"16.6.1. qida zənciri obyekti və ya subyekti qida təhülkəsizliyi qeydiyyatına alınmayan və ya təsdiq edilməyən, idxal sağlamlıq aktı olmayan qida məhsulları;".

58. 16.6.2-ci yarımbənddə "saxlanma" sözü "yararlılıq" sözü ilə əvəz edilsin.

59. 16.7-ci bəndin mətni birinci cümlə hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Məmulatların saxlanması və daşınması zamanı onların təhlükəsizliyi "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsi ilə müəyyən edilmiş tələblərə uyğun olmalıdır.".

60. 16.14-cü bəndin ikinci cümləsində "ərzaq mallarının" sözləri "qida məhsullarının" sözləri ilə əvəz edilsin.

61. 18-ci hissənin adında, 18.1-18.3-cü və 18.8-ci bəndlərdə ismin müvafiq hallarında verilmiş "qeyri-ərzaq malları" sözləri ismin müvafiq hallarında "qeyri-qida məhsulları" sözləri ilə əvəz edilsin.

62. 19.2-ci bənddə "məhsullar Agentlik tərəfindən yoxlanıldıqdan sonra" sözləri "məhsullar qida zənciri obyekti və ya subyekti qeydiyyatına alındıqda və ya təsdiq edildikdə, habelə idxal olunan məhsullara münasibətdə idxal sağlamlıq aktına malik olduqda" sözləri ilə əvəz edilsin.

63. 19.5-ci bənddə "malların normativ tələblərin məcburi şərtlərinə uyğunluğunu təsdiq edən sənəd" sözləri "qida obyektinin (subyektinin) qeydiyyata alınmasına və ya təsdiq olunmasına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalını həyata keçirən obyektlərin qeydiyyata alınmasına dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarış, idxal olunan məhsullara münasibətdə idxal sağlamlıq aktı" sözləri ilə əvəz edilsin.

64. 20.8-ci bənddə "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

65. 20-1.2-ci bənddə, 20-1.8-ci bəndin birinci və ikinci cümlələrində, 20-1.14-cü bənddə "ərzaq məhsullarının" sözləri "qida məhsullarının" sözləri ilə əvəz edilsin.

66. 20-1.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"20.1-5. Yarmarkalarda qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə cavab verən, qida obyektinin (subyektinin) qeydiyyata alınmasına və ya təsdiq olunmasına dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarışı olan subyekt (illik dövriyyəsi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən ailə-kəndli təsərrüfatları istisna olmaqla) tərəfindən istehsal edilmiş qida məhsulları satışa çıxarıla bilər.".

67.20-1.14-cü bəndə "məhsulların" sözündən sonra "təhlükəsizliyinə və" sözləri əlavə edilsin.

68. 22.4.2-ci yarımbənddə "qeyri-ərzaq mallarının" sözləri "qeyri-qida məhsullarının" sözləri ilə əvəz edilsin.

69. 22.4.10-cu yarımbənddə "qida üçün yararsız olan ərzaq" sözləri "istifadəyə yararsız və təhlükəli qida" sözləri ilə əvəz edilsin.

70. 22.5.2-ci yarımbənddə "ərzaq məhsullarının" sözləri "qida məhsullarının" sözləri ilə əvəz edilsin.

71. 23.16-cı bənd aşağıdakı redaksiyada verilsin:

"23.16. İctimai iaşə məhsullarının istehsalı və istehlakının təşkili (xidmət göstərilməsi) ilə məşğul olan qida subyektlərinin qida məhsulları ilə bilavasitə təmasda olan əməkdaşları Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müəyyən olunmuş qaydada ilkin və dövri tibbi müayinələrdən keçirilməli, habelə gigiyenik təlimlərə cəlb olunmalıdırlar. İlkin və dövri tibbi müayinələrdən keçməmiş, habelə müxtəlif yoluxucu xəstəliklərin daşıyıcıları olan və ya infeksion xəstəliklərə yoluxmuş əməkdaşların ictimai iaşə obyektlərinə buraxılması qadağandır. İctimai iaşə xidmətinin təşkili zamanı işçilər qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə və şəxsi gigiyena qaydalarına əməl etməlidirlər.".

72. 23.21-ci bəndə "suyun" sözündən sonra "təhlükəsizliyi və" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 19 QƏRAR Bakı şəhəri, 13 yanvar 2024-cü il

## Abşeron və Xızı rayonlarının inzibati ərazilərində dövlət və bələdiyyə mülkiyyətinə aid bəzi torpaq sahələrinin bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında

"Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Qoyuluş gücü 240 MVt olan "Xızı-Abşeron" külək elektrik stansiyasının tikintisi məqsədilə Abşeron rayonunun inzibati ərazisində dövlət mülkiyyətində 8,0052 hektar, Abşeron rayonu Pirəkəşkül-Qobustan Bələdiyyəsinin mülkiyyətində 6,1763 hektar, Xızı rayonunun inzibati ərazisində dövlət mülkiyyətində 3,7665 hektar və Xızı rayonu Sitalçay Bələdiyyəsinin mülkiyyətində 18,8293 hektar olmaqla, ümumilikdə36,7773 hektar torpaq sahəsi bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilsin (torpaq sahəsinin yerləşdiyi yeri, ölçülərini və sərhədlərini göstərən yerquruluşu xəritəsi əlavə olunur).

2. Azərbaycan Respublikasının Energetika Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə müəyyən edilmiş bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi ilə bağlı tədbirləri Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli 2285 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası"nın tələblərinə uyğun həyata keçirsin.

3. Bu Qərar qüvvəyə mindiyi tarixdən elektrik enerjisinin istehsalı məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş 36,7773 hektar torpaq sahəsində külək elektrik stansiyasının tikintisinə icazə "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun 6.7-ci maddəsində nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq alınır.

4. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Qərarın 3-cü hissəsinə uyğun olaraq, tikintiyə icazə verildikdə həmin gündən, müəyyən edilmiş müddətdə tikintiyə icazə verilmədikdə isə müddət başa çatdığı gündən üç gün müddətində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Bu Qərarın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinə həvalə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 20 QƏRAR Bakı şəhəri, 13 yanvar 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2004-cü il 21 oktyabr tarixli 462 nömrəli, "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 27 dekabr tarixli 852 nömrəli və "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" 2021-ci il 2 fevral tarixli 2469 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 iyul tarixli 3970 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 547 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın 26-cı hissəsindən "Alternativ və" sözləri çıxarılsın və 26.1-ci bəndində "Alternativ və bərpa" sözləri "Bərpa" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Milli Məclisin Sədri Sahibə Qafarova Qazaxıstan və Tacikistanın səfirləri ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova yanvarın 18-də Qazaxıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Alim Bayellə görüşüb.**





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrinin böyük tarixə malik olduğu, əlaqələrimizin ümumi dəyərlər, ortaq tarix, din, dil əsasında uğurla inkişaf etdiyi diqqətə çatdırılıb. Spiker Sahibə Qafarova deyib ki, həm Azərbaycan, həm də Qazaxıstan müstəqil ölkə kimi zəngin dövlətçilik ənənələri üzərində qurulub və bu gün həmin ənənələrə əsaslanaraq öz inkişaflarını davam etdirirlər.

Sahibə Qafarova qeyd edib ki, dövlət başçılarımız arasında əlaqələr münasibətlərimizin inkişafında böyük rol oynayır. Görüşdə qarşılıqlı səfərlərin, keçirilən görüşlərin və tərəflər arasında imzalanan sənədlərin əməkdaşlığın daha da genişlənməsinə töhfələri vurğulanıb. Söhbət zamanı Azərbaycanla Qazaxıstanın beynəlxalq təşkilatlarda, o cümlədən Türk Dövlətləri Təşkilatı çərçivəsində səmərəli əməkdaşlıq etdiyi vurğulanıb.

Milli Məclisin Sədri Sahibə Qafarova Qazaxıstana rəsmi səfərini xatırladaraq səfər çərçivəsində keçirilən görüşlərdən, parlamentlərimiz arasında əlaqələrin inkişaf səviyyəsindən məmnunluğunu bildirib. Spiker həmçinin Qazaxıstan Parlament Məclisinin Sədri Yerlan Koşanovun ötən il Azərbaycan Milli Məclisinin Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş növbədənkənar iclasında iştirak etmək üçün Bakıya səfərini məmnunluqla xatırlayıb. Sahibə Qafarova Azərbaycan dövlətinin qurucusu və memarı, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin və onun ölməz ideyalarının bu gün davam etdirildiyini, Azərbaycanın bu siyasi kursa uyğun olaraq uğurla inkişaf etdiyini diqqətə çatdırıb.

Sahibə Qafarova parlamentarilərin öz xalqlarını təmsil etdiklərini, bu baxımdan qanunverici orqanlar arasında əlaqələrin daha da dərinləşməsinin ölkələrimiz və xalqlarımız arasında münasibətlərin genişlənməsinə töhfə verdiyini qeyd edib. Bildirilib ki, Azərbaycan Milli Məclisinin Qazaxıstan Respublikasının Parlament Məclisi və Senatı ilə yüksəksəviyyəli münasibətləri var. Tərəflər həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edirlər. Bu mənada, dostluq qruplarının uğurlu fəaliyyəti də qeyd edilib.

Görüşdə Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi, suverenliyimizin tam bərpası məsələlərindən də danışılıb. Sahibə Qafarova dünyada ikili standartların mövcud olduğunu təəssüflə bildirərək qeyd edib ki, bu gün Azərbaycanın qazandığı nailiyyətləri həzm edə bilməyən bəzi dövlətlər ölkəmizə qarşı qərəzli, ədalətsiz mövqedən çıxış edirlər. Biz Fransanın son dövrlərdə Azərbaycana qarşı mütəmadi hal alan davranışlarında bunu aydın şəkildə görürük. Spiker Fransa Senatının bir neçə gün öncə qəbul etdiyi sonuncu qətnaməsini ikiüzlülüyün bariz nümunəsi adlandıraraq deyib ki, Fransa bu cür addımları ilə beynəlxalq hüququn normalarına və prinsiplərinə də açıq hörmətsizlik nümayiş etdirir.

Qazaxıstanın ölkəmizdəki səfiri Alim Bayel də ölkələrimiz arasında münasibətlərin dinamik inkişafından məmnunluğunu bildirərək dövlət başçılarımızın uğurlu fəaliyyətinin və qarşılıqlı səfərlərinin bu əlaqələrə töhfə verdiyini deyib. O, səfir kimi fəaliyyətində ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsində səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb.

Görüşdə ölkələrimizin birgə icra etdiyi layihələrdən də danışılaraq, Trans-Xəzər beynəlxalq nəqliyyat dəhlizinin inkişaf etdirilməsi, Xəzər dənizinin dibi ilə fiberoptik rabitə xəttinin çəkilməsi, Qazaxıstan neftinin Azərbaycan ərazisindən nəql olunması qeyd edilib.

Söhbətdə Azərbaycan və Qazaxıstan arasında humanitar sahədə də əməkdaşlığın inkişaf etdiyi bildirilərək vurğulanıb ki, bu istiqamətdə keçirilən tədbirlər xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına töhfə verir. Qeyd olunub ki, ötən il Azərbaycanda Qazaxıstan Mədəniyyət Günləri keçirilib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Milli Məclisin Sədri Sahibə Qafarova yanvarın 18-də Tacikistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İlxom Abduraxmonla da görüşüb.

Spiker Sahibə Qafarova Azərbaycan və Tacikistan arasında münasibətlərin qardaşlıq və dostluq xarakteri daşıdığını bildirib. Ölkələrimiz arasında siyasi, iqtisadi, ticarət, nəqliyyat, logistika və digər sahələrdə ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi üçün görülən işlər qeyd edilib. Görüşdə münasibətlərin inkişafında dövlət başçılarının qarşılıqlı səfərlərinin, keçirilən görüşlərin və imzalanan sənədlərin mühüm əhəmiyyəti vurğulanıb. O cümlədən Azərbaycan və Tacikistanın beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlıq etdiyi bildirilib.

Söhbətdə ölkələrimiz arasında yüksəksəviyyəli münasibətlərin parlamentlər çərçivəsində də uğurla davam etdirildiyi qeyd olunub. Milli Məclisin Sədri özünün Tacikistana, Tacikistan Ali Məclisi Milli Məclisinin Sədri Rüstəm Emoməlinin, Tacikistan Respublikası Ali Məclisinin Nümayəndələr Palatasının Sədri Mahmadtoir Zokirzodanin ölkəmizə səfərlərini, keçirilən görüşləri məmnunluqla xatırladaraq qeyd edib ki, Azərbaycan Respublikasının Milli Məclisi ilə Tacikistan Ali Məclisinin Milli Məclisi arasında Əməkdaşlıq haqqında saziş imzalanıb. O bildirib ki, bu sənədin imzalanması əməkdaşlığımızın daha da genişlənməsinə əsaslar yaradıb. İkitərəfli əlaqələrin daha da inkişafı baxımından dostluq qrupları ilə yanaşı, parlament komitələri arasında da əməkdaşlığın əhəmiyyəti diqqətə çatdırılıb. Spiker qeyd edib ki, qanunverici orqanlarımız bir sıra beynəlxalq parlament təşkilatlarında da uğurla əməkdaşlıq edirlər.

Tacikistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İlxom Abduraxmon ölkəsinin dost Azərbaycanla münasibətlərə böyük önəm verdiyini və bu əlaqələri yüksək qiymətləndirdiyini bildirib. O deyib ki, iki ölkə arasında əlaqələrin inkişafında müxtəlif səviyyəli qarşılıqlı səfərlərin böyük rolu var.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclis komitələrinin iclasları keçirilib

Yanvarın 18-də Milli Məclisin Səhiyyə komitəsinin 2024-cü ilin yaz sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Əhliman Əmiraslanov gündəliyə 2023-cü ilin payız sessiyası dövründə Səhiyyə komitəsində görülən işlər barədə hesabatın və komitənin 2024-cü ilin yaz sessiyası üçün iş planının layihəsinin daxil edildiyini diqqətə çatdırıb.

Komitə sədri əvvəlcə 2023-cü ilin payız sessiyası ərzində komitədə görülən işlər barədə məlumat verib. O bildirib ki, hesabat dövründə komitənin 5 iclası keçirilib, 6 məsələyə baxılıb.

Nəzərə çatdırılıb ki, payız sessiyasında komitəyə 314 ərizə və şikayət daxil olub. Müraciətlərdə qaldırılan məsələlərlə əlaqədar aidiyyəti üzrə tədbirlər görülüb. Hesabat dövründə 233 nəfər vətəndaş qəbul edilib.

Sonra Əhliman Əmiraslanov Səhiyyə komitəsinin 2024-cü ilin yaz sessiyası üçün iş planının layihəsini təqdim edib. Bildirib ki, sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihələrinə baxılacaq, komitəyə daxil olan sənədlər müzakirə olunacaq, onlara rəy və təkliflər hazırlanacaq. Komitə sədri yoluxucu xəstəliklərlə mübarizə, virus infeksiyaları ilə bağlı ölkədəki mövcud vəziyyət, peyvəndləmə və görülən tədbirlərə dair dinləmənin keçirilməsinin də nəzərdə tutulduğunu söyləyib.

Komitə üzvləri ötən sessiya ərzində komitənin fəaliyyətini yüksək dəyərləndiriblər, yaz sessiyası üçün nəzərdə tutulan tədbirləri məqsədəmüvafiq hesab ediblər, bəzi təkliflərini səsləndiriblər.

Müzakirələrin yekununda Səhiyyə komitəsində 2023-cü ilin payız sessiyası dövründə görülən işlər barədə hesabat nəzərə alınıb, komitənin 2024-cü ilin yaz sessiyası üçün iş planı təsdiq edilib.

İclasın sonunda komitə sədri Əhliman Əmiraslanov bildirib ki, ölkəmiz mühüm ictimai-siyasi hadisə ərəfəsindədir, fevralın 7-də növbədənkənar prezident seçkiləri keçiriləcək. O, bunun Azərbaycanın bütün ərazisində keçiriləcək ilk seçkilər olduğunu vurğulayıb, bu prosesdə vətəndaşların fəal iştirak edəcəyinə əminliyini ifadə edib.

❖ ❖ ❖

Yanvarın 18-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin 2024-cü ilin yaz sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Musa Quliyev bildirib ki, qarşıdan gələn prezident seçkiləri ölkəmiz üçün mühüm siyasi hadisə olmaqla yanaşı, həm də Azərbaycanda yeni mərhələnin başlanğıcı olacaq. Komitə sədri qarşıdan gələn seçkilərin uğurlu keçəcəyinə inamını ifadə edib və xalqımıza uğurlar arzulayıb.

Sonra Musa Quliyev bildirib ki, iclasın gündəliyinə 3 məsələ daxildir. Gündəliyin birinci məsələsini - 2023-cü ilin payız sessiyası dövründə Əmək və sosial siyasət komitəsində görülən işlər barədə hesabatı təqdim edən komitə sədri diqqətə çatdırıb ki, 2023-cü ilin payız sessiyası dövründə komitənin 13 iclası keçirilib və həmin iclaslarda 36 məsələ müzakirə edilib.

Bununla yanaşı, komitə tərəfindən "Heydər Əliyev - 100: Müasir Azərbaycan - sosial rifah və sosial ədalət dövləti" mövzusunda geniş elmi-praktik konfrans keçirilib.

Sessiya ərzində komitəyə 348 sənəd, o cümlədən vətəndaşlardan 215 ərizə, nazirliklərdən və idarələrdən 133 cavab məktubu daxil olub. Komitə sədri Milli Məclisdə 90 nəfər, seçki dairəsində isə 51 nəfər vətəndaşı qəbul edib.

Hesabat nəzərə alındıqdan sonra Əmək və sosial siyasət komitəsinin 2024-cü ilin yaz sessiyası üçün iş planı barədə məlumat verən Musa Quliyev bildirib ki, yaz sessiyasında qanunvericilik təşəbbüsü subyektlərinin təqdim edəcəyi qanun layihələri, qanunlarda dəyişikliklər edilməsi haqqında qanun layihələri və digər qanun layihələri müzakirə ediləcək. Qeyd olunub ki, komitə tərəfindən "Əhalinin məşğulluğunun artırılması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi" mövzusunda və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunun tətbiqinin monitorinqi məqsədilə dinləmələrin keçirilməsi nəzərdə tutulur.

Komitə üzvlərinin qeyd və təklifləri dinlənildikdən sonra iş planı təsdiqlənib.

Sonra iclasda "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsi birinci oxunuşda müzakirə olunub. Bildirilib ki, qanun layihəsi "Media haqqında" qanuna uyğunlaşdırma məqsədilə 18 qanunda 174 maddə üzrə 223 adda terminoloji dəyişikliyi özündə ehtiva edir.



Qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

❖ ❖ ❖

Yanvarın 18-də Milli Məclisin Mədəniyyət komitəsinin 2024-cü ilin yaz sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda 3 məsələ müzakirə edilib.

Gündəliyin birinci məsələsini - 2023-cü ilin payız sessiyası dövründə Milli Məclisin Mədəniyyət komitəsində görülən işlər barədə hesabatı diqqətə çatdıran komitə sədri Fazil Mustafa bildirib ki, ötən sessiyada komitənin 2 iclası keçirilib və 4 məsələ müzakirə olunub. Payız sessiyasında komitənin ünvanına daxil olmuş 68 məktub, təklif, ərizə və şikayətlə bağlı müvafiq tədbirlər görülüb. Fazil Mustafa vurğulayıb ki, hesabat dövründə komitə üzvləri yerli və beynəlxalqsəviyyəli tədbirlərə qatılıblar, ölkədə və xaricdə keçirilən tədbirlərdə yaxından iştirak ediblər, seçicilərlə, şəhid ailələri və qazilərlə görüşlər keçiriblər.

Komitənin 2024-cü ilin yaz sessiyası üçün iş planı ilə bağlı bildirilib ki, iş planında komitəyə daxil olacaq qanun layihələrinin müzakirəsi, onlara rəy və təkliflərin hazırlanması, dinləmələrin keçirilməsi və digər məsələlər nəzərdə tutulub.

Sonra iclasda "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsi (birinci oxunuş) müzakirə olunub.

Qanun layihəsi barədə məlumat verən Fazil Mustafa bildirib ki, təqdim olunan qanun layihəsi "Media haqqında" qanuna uyğunlaşdırma məqsədilə hazırlanıb və əsasən terminoloji dəyişiklikləri özündə ehtiva edir.

Müzakirələrdə komitə üzvləri ötən sessiya ərzində komitənin fəaliyyətini yüksək dəyərləndiriblər, yaz sessiyası üçün nəzərdə tutulan tədbirləri məqsədəmüvafiq hesab ediblər, təkliflərini səsləndiriblər.

Yekunda Mədəniyyət komitəsinin 2023-cü ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı nəzərə alınıb, komitənin 2024-cü ilin yaz sessiyası üçün iş planı təsdiq edilib, gündəlikdəki qanun layihəsi isə birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

❖ ❖ ❖

Yanvarın 18-də Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin 2024-cü ilin yaz sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Milli Məclis Sədrinin müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli ötən il suverenliyimizin tam təmin edilməsinin tarixi əhəmiyyətindən, bu hadisənin Azərbaycanın qarşısında açdığı perspektivlərdən danışıb və qarşıdan gələn 7 fevral tarixli növbədənkənar prezident seçkilərini ölkəmizdə yeni mərhələnin başlanğıcı kimi dəyərləndirib.

İclasın gündəliyini açıqlayan vitse-spiker gündəliyə üç məsələnin - İctimai birliklər və dini qurumlar komitəsinin 2023-cü ilin payız sessiyası ərzində fəaliyyəti barədə hesabatın, qarşıdakı sessiya üçün iş planının və bir qanun layihəsinin daxil edildiyini bildirib.

Qeyd olunub ki, 2023-cü ilin payız sessiyası ərzində komitənin 7 iclası keçirilib, 8 məsələyə baxılıb. Hesabat dövründə komitəyə daxil olan müraciətlər nəzərdən keçirilib və müvafiq tədbirlər görülüb.

Komitənin 2024-cü ilin yaz sessiyası üçün iş planı ilə bağlı diqqətə çatdırılıb ki, iş planına qanunvericilik təşəbbüsü qaydasında daxil olan qanun layihələrinin, mövcud qanunlara ediləcək dəyişikliklərin müzakirəsi və digər məsələlər daxil edilib.

Gündəliyin 3-cü məsələsi olan "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsi (birinci oxunuş) ilə bağlı bildirilib ki, sənəd "Media haqqında" qanuna uyğunlaşdırma məqsədilə hazırlanıb.

Komitə üzvləri müzakirə olunan məsələlərlə bağlı çıxış ediblər, fikirlərini və qeydlərini səsləndiriblər.

Müzakirələrin sonunda İctimai birliklər və dini qurumlar komitəsinin 2023-cü ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı nəzərə alınıb, komitənin 2024-cü ilin yaz sessiyası üçün iş planı təsdiq edilib, gündəlikdəki qanun layihəsi isə birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

❖ ❖ ❖

Yanvarın 18-də Milli Məclisin Gənclər və idman komitəsinin 2024-cü ilin yaz sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, onlayn keçirilən tədbiri açan Milli Məclisin Sədr müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev diqqətə çatdırıb ki, iclasın gündəliyinə iki məsələ - komitənin 2023-cü il payız sessiyasının hesabatı və 2024-cü ilin yaz sessiyası üçün görüləcək iş planının layihəsi daxil edilib.

Ölkəmizin öz suverenliyini bərqərar etməsini ötən ilin ən böyük tarixi hadisəsi adlandıran komitə sədri 2023-cü ilin bir çox sahələrdə iqtisadi, siyasi, sosial baxımdan ölkəmiz üçün uğurlu olduğunu diqqətə çatdırıb. "Heydər Əliyev İli" çərçivəsində həm ölkəmizdə, həm də xaricdə silsilə tədbirlər keçirildiyini bildirib.

Komitənin ötən sessiyada gördüyü işlər barədə hesabatı ilə bağlı Adil Əliyev bildirib ki, hesabat dövründə Gənclər və idman komitəsinin 7 iclası keçirilib, ümumilikdə 4 məsələyə baxılıb. Həmçinin bir ictimai dinləmə keçirilib. Vitse-spiker 2023-cü ilin payız sessiyası dövründə komitəyə vətəndaşlardan, idarə və təşkilatlardan ümumilikdə 1204 müraciətin daxil olduğunu qeyd edib, vətəndaş qəbulları zamanı müraciətlərin həlli məqsədilə qanunvericilik çərçivəsində addımların atıldığını diqqətə çatdırıb.

Adil Əliyev komitə üzvlərinin "Heydər Əliyev İli" çərçivəsində keçirilən tədbirlərdə fəal iştirakından, kikboksinq üzrə "Heydər Əliyev Kuboku"ndan, "Heydər Əliyev müasir Azərbaycan gənclər siyasətinin banisidir" mövzusunda paytaxtda və Naxçıvan Muxtar Respublikasında gənclərlə görüşdən, millət vəkilləri və parlament Aparatının əməkdaşları ilə birgə "Heydər Zirvəsi"nə yürüşdən bəhs edib.

Diqqətə çatdırılıb ki, hesabat dövründə komitə üzvləri seçicilərlə, cəmiyyətin həssas qrupları, şəhid ailələri və qazilərlə, uğur qazanmış idmançılarla görüşüblər, onların qayğıları ilə maraqlanıblar.

Adil Əliyev Gənclər və idman komitəsinin 2024-cü ilin yaz sessiyası üçün iş planı ilə bağlı bildirib ki, sənəddə qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihələrinin müzakirəsi, gənclərin və idmançıların iştirakı ilə ictimai dinləmələrin, görüşlərin keçirilməsi, şəhid ailələrini ziyarət və digər məsələlər əksini tapıb. O, ölkəmizdə elan olunmuş "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində ekofəal gənclərlə, təşkilatlarla görüşlərin də planlaşdırıldığını diqqətə çatdırıb.

Komitə üzvləri Cəbi Quliyev, Etibar Əliyev və Jalə Əhmədova çıxış ediblər, müzakirə olunan məsələlərlə bağlı fikirlərini, qeyd və təkliflərini səsləndiriblər.

Yekunda komitənin 2023-cü ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı nəzərə alınıb, komitənin 2024-cü ilin yaz sessiyası üçün iş planı təsdiq edilib.

***"Azərbaycan"***



MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

**Yanvarın 18-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**



Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın yanvarın 13-də keçirilən iclasının protokolu təsdiqlənib.

Sonra 2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Mərkəzi Seçki Komissiyasının qərarı ilə qeydə alınmış namizədlər Zahid Məhərrəm oğlu Orucun və Fuad Ağasi oğlu Əliyevin, habelə namizədi qeydə alınmış Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının vəkil edilmiş şəxslər təyin edilməsi ilə bağlı müraciətlərinə baxılıb. Komissiya sözügedən namizədlər və siyasi partiya tərəfindən təqdim olunan vəkil edilmiş şəxsləri qeydə alıb.

İclasda komissiya üzvlərinin və iştirakçıların diqqətinə çatdırılıb ki, prezident seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının müxtəlif seçki subyektlərini əhatə edən genişmiqyaslı maarifləndirmə proqramı çərçivəsində reallaşdırılan layihələrdən biri artıq başa çatıb. Belə ki, Mərkəzi Seçki Komissiyasının Daxili İşlər Nazirliyi ilə birgə layihəsi çərçivəsində təşkil olunan və seçkilərdə polis əməkdaşlarının xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsinə həsr edilən regional seminar-müşavirələr yanvarın 9-dan etibarən Bakı, Gəncə, Şəki, Şirvan və Naxçıvanda müvəffəqiyyətlə keçirilib. Yanvarın 18-də Naxçıvan şəhərində keçirilən tədbirlə layihə yekunlaşıb. Qurumlararası sıx əməkdaşlıq sayəsində ərsəyə gələn və yüksək səviyyədə hazırlanıb keçirilən seminar-müşavirələrdə Mərkəzi Seçki Komissiyasının üzvləri, Katibliyin əməkdaşları və Daxili İşlər Nazirliyinin müvafiq qurumlarının nümayəndələrinin təqdimatında qarşıdan gələn seçkilərdə polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş rolu və vəzifələri barədə ətraflı məlumat verilib.

Beynəlxalq müşahidə missiyasının təmsilçisi, məşvərətçi səs hüquqlu komissiya üzvü, xüsusi icazə almış müşahidəçi və media nümayəndələrinin iştirak etdikləri iclasda bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər də olunub, həmçinin cari məsələlərə baxılıb.

QƏRAR № 5/20

## Mərkəzi Seçki Komissiyasının 2024-cü il 13 yanvar tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 13 yanvar tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*18.01.2024*

QƏRAR № 5/24

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.3.1-ci, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Sədaqət İmran qızı Seyidzadə və Qədir Kərim oğlu Məmmədov 16 saylı Yasamal ikinci, Niyaz Hümbət oğlu Behbudalıyev 120 saylı Cəbrayıl - Qubadlı seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*18.01.2024*

QƏRAR № 5/21

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi qeydə alınmış Zahid Məhərrəm oğlu Orucun vəkil edilmiş şəxslərinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi qeydə alınmış Zahid Məhərrəm oğlu Oruc vəkil edilmiş şəxslər təyin etmiş və onların qeydə alınması üçün müvafiq sənədləri Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, həmin şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 72-ci və 186-cı maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində aşağıdakı şəxslər Zahid Məhərrəm oğlu Orucun vəkil edilmiş şəxsləri kimi qeydə alınsınlar:
- Əliyev Əziz Novruz oğlu;
- Hüseynov İlyas Vaqif oğlu;
- Allahyarova Tahirə Bəkir qızı;
- Vəliyev Əfqan Musa oğlu;
- Cəlilzadə Şəhla İlqar qızı;
- Çıraqov Elnur Vaqif oğlu;
- Əliyev Seymur Cavanşir oğlu.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*18.01.2024*

QƏRAR № 5/22

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi qeydə alınmış Fuad Ağasi oğlu Əliyevin vəkil edilmiş şəxslərinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi qeydə alınmış Fuad Ağasi oğlu Əliyev vəkil edilmiş şəxslər təyin etmiş və onların qeydə alınması üçün müvafiq sənədləri Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, həmin şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 72-ci və 186-cı maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində aşağıdakı şəxslər Fuad Ağası oğlu Əliyevin vəkil edilmiş şəxsləri kimi qeydə alınsınlar:
- Şahverdiyev Cavid Nadir oğlu;
- Rəsulzadə İlham İntiqam oğlu;
- Verdiyev Nizami Abbasəli oğlu;
- Cəfərova Mayisə Səfxan qızı;
- Məlikli Nərmin Vüqar qızı;
- Eyniyeva Sevil Rüstəm qızı;
- Zeynalova Aygün Alhüseyn qızı;
- Əliyeva Gülnarə Rauf qızı;
- Eyvazov Nemət Əlibala oğlu;
- Ağayev Raqib Ağa oğlu;
- Gülbabayev Ağayar Gülbaba oğlu;
- Gülbabayev Şəhriyar Ağayar oğlu;
- Məhərrəmov Bəhruz Abdulsalam oğlu;
- Seyidzadə Zahid Ağairza oğlu;
- Ağayev Vasif Eyyub oğlu;
- Abışov Elnur Müslüm oğlu;
- Hüseynov Nazim Tapdıq oğlu;
- Əhmədov Vahid Əliş oğlu;
- Rəcəbov Hamis Saleh oğlu;
- Alışov İlham Alış oğlu;
- Rzayev Rasim Ağası oğlu;
- Xəlilov Kamran Ədalət oğlu;
- Abbasov Rəhman Əfqan oğlu;
- Salmanov Süleyman Loğman oğlu;
- Əliyeva Tərgül Həmid qızı;
- Ədilov Əhsən Miralı oğlu;
- Kərimova Aysel Azim qızı;
- Zöhrabov Sərdar Şirvan oğlu;
- Süleymanlı Nicat Novruz oğlu;
- Səmədov Qalib Namət oğlu;
- Rəsullu Anar Əlifağa oğlu;
- Abdullayev Vasif Arif oğlu;
- Ərəstunzadə Asim Mahir oğlu;
- Ağammədov İxtiyar Ayaz oğlu.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*18.01.2024*

QƏRAR № 5/23

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının vəkil edilmiş şəxslərinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikasının Prezidentliyinə namizədi qeydə alınmış Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası vəkil edilmiş şəxslər təyin etmiş və onların qeydə alınması üçün müvafiq sənədləri Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, həmin şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 72-ci və 186-cı maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində aşağıdakı şəxslər Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının vəkil edilmiş şəxsləri kimi qeydə alınsınlar:
- Astanov Vaqif Polad oğlu;
- Babayev İqbal Əziz oğlu;
- Zeynalov Mahir Həmzə oğlu;
- Həzquluyev Əli Səvindik oğlu;
- Səfərov Allahverdi Əli oğlu;
- Muxtarov Zamin Zabit oğlu;
- Əzizova Nərmin Ziya qızı;
- Cəbrayılov Bayram Zakir oğlu;
- Orduxanov Qədir Orduxan oğlu;
- Şahratov Dədəbək Özibək oğlu;
- İsayev Nəsimi Vələd oğlu;
- Məmmədov Zöhrab Seyidağa oğlu;
- Almuradov Rasim Allahverdi oğlu;
- Qocayev Nurəddin Səyyad oğlu;
- Şahbazov Elçin Fazil oğlu;
- Abışov Vaqif Şirin oğlu;
- Qasımov Azər Məhərrəm oğlu;
- Bayramov Akif Əlif oğlu;
- İsmayılov Faiq İslam oğlu;
- Abbasov Elçin Sabir oğlu.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*18.01.2024*

# Nizami birinci seçki dairəsindəki seçki məntəqələrində 890 nəfər ilk dəfə səs verəcək

**Fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar yanvarın 18-də 24 saylı Nizami birinci seçki dairəsinin dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının sədr, katib və üzvləri üçün treninqlərə başlanılıb.**

AZƏRTAC xəbər verir ki, treninqdə çıxış edən 24 saylı Nizami birinci seçki dairəsinin dairə seçki komissiyasının sədri Niyazi Nəcəfov prezident seçkilərində şəffaflığın və aşkarlığın təmin edilməsi üçün məntəqə seçki komissiyalarında hər cür şəraitin yaradıldığını, onların zəruri avadanlıqlarla təchiz olunduğunu söyləyib.

O bildirib ki, yanvarın 22-dək davam edəcək təlimlərin məqsədi seçki komissiyaları üzvlərinin məlumatlılığını və peşəkarlığını artırmaqdır.

MSK tərəfindən hazırlanmış slaydların və əyani vəsaitlərin köməyi ilə iştirakçılara səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rolu və vəzifələri, səsvermə otağının təşkil edilməsi qaydası, seçki günü müşahidəçilərin hüquqları, məntəqənin açılması, səsvermə ilə bağlı məlumatların verilməsi saatları, səsvermədə iştirak edən vətəndaşların barmağının mürəkkəblə işarələnməsi, hansı halda seçicinin səsvermə hüququndan istifadə edə bilməyəcəyi, səslərin hesablanması və s. ilə bağlı məlumatlar verilib. Təlim iştirakçılarına bununla bağlı yaddaş kitabçası təqdim edilib.

Niyazi Nəcəfov AZƏRTAC-a müsahibəsində seçkilərə hazırlıq işlərinin uğurla davam etdiyini, məntəqələrdə seçkilərin şəffaf və demokratik keçirilməsi, komissiya üzvlərinin normal fəaliyyəti üçün zəruri şəraitin yaradıldığını deyib. Bildirib ki, seçki məntəqələrinin 10-da veb-kamera, eyni zamanda sağlamlıq imkanları məhdud seçicilər üçün panduslar quraşdırılıb. "Dairədəki seçki məntəqələrinin sayı 36, seçicilərin sayı isə 49 min 444 nəfərdir. Qadınların sayı ümumi sayın 50 faizindən çoxdur. İlk dəfə səs verənlərin sayı 890, yaşlı seçicilərin sayı isə 1101 nəfərdir", - deyə o əlavə edib.

Dairə seçki komissiyasının sədri 401 müşahidəçinin qeydiyyatdan keçdiyini bildirib.

Qeyd edək ki, treninqlər 25 saylı Nizami ikinci, 18 saylı Nərimanov-Nizami-Binəqədi seçki dairəsinin dairə seçki komissiyalarında da keçirilir.

# On doqquz saylı Nərimanov birinci seçki dairəsində treninqlərə başlanılıb

**Fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar yanvarın 18-də 19 saylı Nərimanov birinci seçki dairəsinin dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının sədr, katib və üzvləri üçün treninqlərə başlanılıb. Yanvarın 22-dək davam edəcək təlimlərin məqsədi seçki komissiyaları üzvlərinin məlumatlılığını, peşəkarlığını artırmaqdır.**

AZƏRTAC xəbər verir ki, treninqlərdə 37 məntəqədən 222 nəfərin iştirakı nəzərdə tutulub. Məşğələləri Mərkəzi Seçki Komissiyasının (MSK) təlim kursunda iştirak edən Bəhruz Cabbarlı və Şamil Məmmədov aparırlar.

MSK tərəfindən hazırlanmış slaydların və əyani vəsaitlərin köməyi ilə iştirakçılara səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, seçki prosesində müstəsna hallar, səslərin hesablanmasına hazırlıq, seçki bülletenlərinin təsnifatı, səslərin hesablanması və yekun protokolun doldurulması, səsvermə prosesinə dair praktiki tapşırıqlar və sair ilə bağlı məlumatlar verilir. Təlim iştirakçılarına bununla bağlı yaddaş kitabçası təqdim edilir.

Dairə seçki komissiyasının sədri Azad Nəbiyev AZƏRTAC-a seçkilərə hazırlıq işlərinin uğurla davam etdiyini, məntəqələrdə seçkilərin şəffaf və demokratik keçirilməsi, komissiya üzvlərinin normal fəaliyyəti üçün lazımi şəraitin yaradıldığını deyib. O qeyd edib ki, məntəqələr seçki kabinələri, təşviqat, məlumat, seçici siyahısı lövhələri, generatorlar, elektrik fənərləri, daşınmaz və daşınan seçki qutuları, qeydiyyat dəftərləri, Seçki Məcəlləsi, prezident seçkiləri ilə bağlı təlimatlarla təmin olunub. Seçki məntəqələrinin 11-də veb-kamera quraşdırılıb. Sağlamlıq imkanları məhdud seçicilər də diqqətdən kənarda saxlanılmayıb. Belə ki, həmin qəbildən olan vətəndaşlar üçün məntəqələrdə panduslar quraşdırılıb.

"Hazırda dairədəki seçki məntəqələrinin sayı 37-yə, seçicilərin sayı isə 48 min 453-ə bərabərdir. Dairə üzrə 2 nəfərin 100-dən yuxarı yaşı var. Dairədə seçicilərin 87 nəfəri ilk dəfə səs verəcək. Onlar 18 yaşı tamam olan seçicilərdir", - deyə A.Nəbiyev qeyd edib.

Qeyd edək ki, treninqlər həmçinin 18 saylı Nərimanov-Nizami-Binəqədi, 20 saylı Nərimanov ikinci seçki dairələrinin də dairə seçki komissiyalarında keçirilir.



# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASI

## MSK və MEDİA Naxçıvandakı media nümayəndələri üçün seminar təşkil edib



**Mərkəzi Seçki Komissiyası və Medianın İnkişafı Agentliyi (MEDİA) Naxçıvanda media nümayəndələri üçün hibrid formatda seminar keçirib. Seminarda muxtar respublikanın media qurumlarının rəhbərləri, müxtəlif media orqanlarının Naxçıvandakı nümayəndələri və seçkini işıqlandıracaq jurnalistlər iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, seminarda çıxış edən MEDİA-nın şöbə müdiri Natiq Məmmədli Naxçıvanda fəaliyyət göstərən jurnalistlərlə fikir mübadiləsi aparılacağını, onların informasiya əldə etməsi ilə bağlı hər hansı çətinliyin olub-olmaması, jurnalistlərin seçki ilə bağlı informasiyada hansı qaydalara riayət etməsi kimi məsələlərin müzakirə ediləcəyini bildirib. Qeyd edib ki, seçki dövrü jurnalistlərin peşəkarlığını göstərmək üçün həm də bir sınaqdır.

Mərkəzi Seçki Komissiyasının üzvü İlkin Şahbazov vurğulayıb ki, bu kimi seminarlar media subyektlərinin prezident seçkilərində sərbəst fəaliyyətinin daha da təkmilləşdirilməsi və məlumatlılıq səviyyəsinin yüksəldilməsinə xidmət edir. Media ötən dövrdə bütün seçkilərdə fəallıq nümayiş etdirib. Ölkəmizdə seçkilərin işıqlandırılması üçün jurnalistlərə geniş imkanlar yaradılır.

MSK Katibliyinin Media və kommunikasiya şöbəsinin müdiri Şahin Əsədli qeyd edib ki, ərazi bütövlüyü tam təmin olunmuş Azərbaycanda ilk dəfə prezident seçkiləri keçiriləcək. Media seçkilərdə azad və sərbəstdir. Heç kimin jurnalistlərə qanunvericiliyin tələblərindən kənar müdaxilə etməyə haqqı yoxdur. Buna görə də jurnalistlər öz hüquqlarını bilməli və qanunla nəyin qadağan olunmasından məlumatlı olmalıdırlar.

"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" QSC-nin sədri Sahil Tahirli muxtar respublikada fəaliyyət göstərən jurnalistlərin həm MSK-nın, həm də MEDİA-nın tədbirlərinə, seminar-treninqlərinə qatılmasının zəruri olduğunu bildirərək, Naxçıvanda fəaliyyət göstərən jurnalistlərin seçki günü MSK-da keçiriləcək brifinqdə iştirakının vacibliyini vurğulayıb.

"Şərq qapısı" qəzetinin baş redaktoru Sara Əzimova seçki öncəsi təbliğat-təşviqat işlərində medianın fəaliyyətindən danışıb.

Seminar qarşılıqlı fikir mübadiləsi ilə yekunlaşıb.

## Prezident seçkiləri ilə bağlı Naxçıvanda polislər üçün seminar-müşavirə keçirilib



**Fevralın 7-nə təyin olunan prezident seçkilərində polis əməkdaşlarının xidməti fəaliyyətinin təkmilləşdirilməsinə dair seminar-müşavirə keçirilib.**

AZƏRTAC xəbər verir ki, Mərkəzi Seçki Komissiyası (MSK) və Daxili İşlər Nazirliyi tərəfindən birgə təşkil olunan seminar-müşavirədə MSK-nın, nazirliyin, şəhər və rayon polis idarələrinin nümayəndələri və dairə seçki komissiyalarının sədrləri iştirak ediblər.

Tədbirin təşkilində əsas məqsəd seçki qanunvericiliyinin və polisin üzərinə düşən vəzifələrin izah edilməsi olub.

Seminar-müşavirədə Mərkəzi Seçki Komissiyasının üzvü Fuad Cavadov seçki qanunvericiliyi, seçki sistemi, səsvermə prosesi, onun mərhələləri və müddətləri, seçki komissiyaları və polis orqanlarının birgə fəaliyyəti mövzularında çıxış edib.

Daxili İşlər Nazirliyinin nümayəndələri Sənan Əliyev və Cavid Cəfərov seçki kampaniyası dövründə və səsvermə günü ictimai qaydanın təmin edilməsi ilə bağlı polis əməkdaşlarının hüquq və vəzifələrindən danışıblar. Səsvermədən sonra seçki bülletenlərinin və digər sənədlərin dairə və Mərkəzi Seçki Komissiyasına gətirilməsi zamanı yüksək təhlükəsizlik tədbirlərinin görülməsinin vacibliyi vurğulanıb.

Mərkəzi Seçki Komissiyasının katibliyinin əməkdaşı Cavid Zeynalov isə seçki subyektləri, onların hüquq və vəzifələri, seçki subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilənin yolverilməzliyi barədə çıxış edib.

Seminar-müşavirənin sonunda müxtəlif mövzular ətrafında müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## Seçki hüquqlarının pozulmasına görə məsuliyyət nəzərdə tutan qanunvericilik aktları və məsuliyyət növləri

**Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsi ilə müəyyən edilib ki, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ var. Mərkəzi Seçki Komissiyası vətəndaşların məhz bu konstitusion hüquqlarının - seçmək və seçilmək hüququnun təmin olunması, seçki qanunvericiliyinin düzgün tətbiq edilməsi, seçkilərin keçirilməsi zamanı aşkarlıq, şəffaflıq, ədalətlilik kimi mühüm prinsiplərin qorunması, beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi istiqamətində bir sıra layihələr həyata keçirir və mütəmadi olaraq maarifləndirmə tədbirləri təşkil edir. Reallaşdırılan bütün layihələrin başlıca məqsədi seçicilərin və digər seçki prosesi iştirakçılarının hüquqlarının azad və sərbəst şəkildə təmin olunması üçün hərtərəfli şərait və geniş imkanlar yaradılması, seçkilərin hazırlanması və keçirilməsi dövründə hüquqazidd hərəkətlərə yol verilməməsidir.**



Seçki hüququnun pozulması dedikdə vətəndaşa konstitusiya ilə verilmiş azad seçki hüququnun, yəni seçkilərdə iştirak etmək, seçmək və seçilmək hüququnun pozulması başa düşülür. Seçki prosesinin iştirakçılarının tərkibi Seçki Məcəlləsi ilə müəyyən edilib. Bura seçicilər, seçki komissiyalarının üzvləri, namizədlər, qeydə alınmış namizədlər, namizədlərin və namizədi qeydə alınmış siyasi partiyaların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, habelə müşahidəçilər və media mənsubları daxildirlər.

Seçki Məcəlləsi ilə göstərilən subyektlərin seçki prosesində hüquqları da müəyyən olunub. Məsələn, aktiv seçki hüququna malik olan vətəndaş (səsvermə günü də daxil olmaqla 18 yaşına çatmış vətəndaş) konstitusiya ilə ona verilmiş seçki hüququnu həyata keçirmək üçün seçicilər siyahısına daxil edilir. Vətəndaşın hər hansı bir səbəbdən müvafiq icra hakimiyyəti orqanı tərəfindən seçici siyahılarına daxil edilməsi üçün məlumatları təqdim etməməsi seçicilərin öz hüquqlarını həyata keçirmələrinə mane olur və bu hal vətəndaşın seçki hüququnun pozulması kimi qiymətləndirilir.

Vətəndaşın konstitusiya ilə nəzərdə tutulmuş seçki hüquqlarının pozulmasına görə Cinayət Məcəlləsi, Mülki Məcəllə və İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri ilə məsuliyyət müəyyən edilib. Bundan əlavə, Seçki Məcəlləsinin 115-ci maddəsində də vətəndaşların seçki hüquqlarının pozulmasına görə məsuliyyət yaradan hallar göstərilib. Hüquq pozuntularına yol vermiş aşağıda qeyd edilən şəxslər cinayət, mülki və ya inzibati məsuliyyətə cəlb edilə bilərlər:

- zor tətbiqi ilə, aldatma, hədə ilə vətəndaşın seçmək və seçilmək hüququna mane olanlar;
- seçkinin (referendumun) nəticələrinə təsir məqsədi ilə vəzifə səlahiyyətlərindən sui-istifadə edənlər;
- namizədin lehinə imza atmağa vətəndaşları məcbur edən və ya namizədin müdafiəsi üçün imza yığılmasına mane olan və ya bu imzaların saxtalaşdırılmasında iştirak edən şəxslər;
- seçiciləri ələ alanlar, yəni Seçki Məcəlləsinin 88.6-cı maddəsi ilə qadağan edilmiş hərəkətləri edənlər;
- qeydə alınmış seçicilər barəsində məlumatları vaxtında rəsmiləşdirməyənlər və dəqiqləşdirməyənlər;
- namizədlər barəsində bilərəkdən yalan məlumatlar yayanlar və ya namizədlərin şərəf və ləyaqətini təhqir edən digər hərəkətləri edənlər (bu müddəa Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmiş söz və fikir azadlığının məhdudlaşdırılması üçün əsas ola bilməz);
- Seçki komissiyaları üzvlərinin, müşahidəçilərin, vəkil edilmiş şəxslərin, namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qrupunun səlahiyyətli nümayəndələrinin, media mənsublarının hüquqlarını pozanlar, o cümlədən seçki sənədlərinin surətlərinin və məlumatların vaxtında alınması və seçki sənədlərinin surətlərinin təsdiqi ilə bağlı hüquqlarını pozanlar;
- seçkiqabağı təşviqatın aparılması qaydalarını pozanlar, o cümlədən səsvermə gününə bir gün qalmış və ya səsvermə günü təşviqat aparan şəxslər;
- Seçki Məcəlləsinin müəyyən etdiyi qaydaların pozulmasına səbəb olan kommersiya və digər reklamları hazırlayanlar və yayanlar, yaxud xeyriyyə xidmətləri göstərənlər;
- seçki kampaniyasının maliyyələşdirilməsinin Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydalarını pozanlar;
- seçki bülletenlərinin qalıqlarını gizlədənlər və ya seçki komissiyasının qeydə almadığı seçki bülletenlərinin, səsvermə vəsiqələrinin əlavə tirajını hazırlayanlar;
- seçki komissiyasının işinə mane olanlar və ya seçki komissiyası üzvlərinin öz vəzifələrini yerinə yetirməsi ilə bağlı fəaliyyətlərinə qeyri-qanuni müdaxilə edənlər;
- seçki məntəqələrində səsverməyə mane olanlar;
- səsvermənin gizliliyini pozanlar;
- seçiciləri öz iradələrinə zidd səs verməyə məcbur edənlər;
- seçki sənədlərini saxtalaşdıranlar, saxta sənədlər tərtib və təqdim edənlər (seçki qutularına bir şəxs tərəfindən birdən çox seçki bülleteni salmaq halları da daxil olmaqla), səsləri bilərəkdən qeyri-düzgün hesablayanlar və ya seçkinin yekunlarını bilərəkdən təqdim və ya dərc etməyənlər;
- vətəndaşların seçici siyahıları ilə tanış olmaq hüququnu pozanlar;
- vətəndaşlara başqa şəxslərin əvəzinə səs vermək imkanı yaratmaq məqsədi ilə seçki bülletenləri verənlər, vətəndaşa doldurulmuş seçki bülleteni verənlər və ya birdən artıq seçki bülleteni alınmasına imkan yaradanlar;
- seçkilərin hazırlanmasına və keçirilməsinə ayrılmış vəsaitin xərclənməsi hesabatlarını, namizədlərin, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qruplarının maliyyə hesabatlarını təqdim və dərc etməyənlər;
- Seçki Məcəlləsində nəzərdə tutulmuş hallarda seçkilərdə iştirak etmək üçün məzuniyyət verməyən işəgötürənlər;
- seçki komissiyalarının Seçki Məcəlləsinin pozulması ilə bağlı verdiyi məlumatları yoxlamayan dövlət orqanlarının vəzifəli şəxsləri;
- seçkilərdə iştirak etdiyi müddətdə xidməti vəzifələrinin icrasını dayandırmayan dövlət və ya bələdiyyə xidmətində olan qeydə alınmış namizədlər;
- seçici imzalarının toplanmasında iştirak edən hüquqi şəxslər, dövlət və bələdiyyə orqanlarının, qurumların və təşkilatların vəzifəli şəxsləri.

Yuxarıda qeyd edilmiş pozuntulara yol vermiş şəxslər pozuntunun xarakterinə görə İnzibati Xətalar Məcəlləsi və ya Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyətə cəlb edilirlər.

Belə ki, İnzibati Xətalar Məcəlləsinin 164 - 179-cu maddələrinə əsasən aşağıdakı pozuntulara görə məsuliyyət nəzərdə tutulur:

- seçkiqabağı və ya referendum ilə bağlı təşviqatın aparılması qaydalarının və müddətinin pozulmasına görə;
- təşviqat nəşr materiallarının qəsdən məhv etmə və ya namizədin seçicilərlə görüşünə mane olmağına görə;
- namizəd haqqında yalan məlumatlar yaymağa, yəni seçkinin nəticəsinə təsir göstərmək məqsədi ilə deputatlığa və ya seçkili orqana (vəzifəyə) namizəd haqqında bilərəkdən yalan məlumatlar dərc etməyə və ya onları başqa üsullarla yaymağa görə;
- Seçki (referendum) komissiyası üzvünün, müşahidəçilərin, vəkil edilmiş şəxslərin, namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qrupunun səlahiyyətli nümayəndələrinin, media nümayəndələrinin Seçki Məcəlləsi ilə müəyyən edilmiş hüquqlarını, o cümlədən seçki sənədlərinin surətlərinin və məlumatların vaxtında alınması və seçki sənədlərinin surətlərinin təsdiqi ilə bağlı hüquqlarını pozmağa görə;
- seçicilər haqqında məlumatları təqdim edən müvafiq icra hakimiyyəti orqanı tərəfindən həmin məlumatların düzgün, tam və vaxtında verilməməsinə görə;
- seçki bülletenlərinin, səsvermə protokollarının və vəsiqələrinin verilməsi və saxlanması qaydalarının pozulmasına görə;
- dövlət avtomatlaşdırılmış informasiya sistemindən istifadə qaydasının pozulmasına, yəni səsvermə başlandıqdan sonra seçkilərin yekunları və səsvermənin nəticələri barədə protokollar imzalananadək yuxarı seçki komissiyalarının informasiya xidmətlərindən aşağı seçki komissiyalarının informasiya xidmətlərinə məlumatın qəbulunu təsdiq edən siqnallardan başqa hər hansı məlumatın verilməsinə görə;
- seçki (referendum) ilə əlaqədar hədə-qorxu və ya zorakılığa çağıran çıxışlar edilməsi, yaxud belə materialların yayılmasına görə;
- seçicinin bilərəkdən birdən çox seçici siyahısına daxil edilməsinə görə;
- seçici siyahıları ilə vətəndaşların tanış olmaq hüququnun və digər hüquqların pozulmasına görə;
- seçkilərdə (referendumda) iştirak etmək üçün məzuniyyət verilməsindən imtina etməyə, yəni dövlət və ya yerli özünüidarəetmə orqanlarına seçkilərin hazırlanmasında və ya keçirilməsində onun iştirakının təmin edilməsi məqsədi ilə deputatlığa və ya seçkili orqana (vəzifəyə) qeydə alınmış namizədə, namizədin vəkilinə və ya seçki (referendum) komissiyasının üzvünə məzuniyyət verilməsindən imtina etməyə görə;
- qeydə alınmış namizədin seçkilərdə iştirak etdiyi müddətdə xidməti vəzifələrinin icrasını dayandırmamasına görə;
- seçici imzalarının toplanması qaydasının pozulmasına görə;
- seçkilərin (referendumun) maliyyələşdirilməsi və ya maliyyə hesabatlarının təqdim edilməsi qaydalarının pozulmasına görə;
- təşviqat materillarının hazırlanması və yayılması qaydalarının pozulmasına görə;
- səsvermənin nəticələri və ya seçkilərin yekunları haqqında məlumatın bilərəkdən təqdim edilməməsi və ya dərc olunmamasına görə.

Göstərilən pozuntulara yol vermiş fiziki şəxslər pozuntunun xarakterindən asılı olaraq 50 manatdan 2000 manatadək, vəzifəli şəxslər 150 manatdan 2500 manatadək, hüquqi şəxslər 2000 manatdan 7000 manatadək cərimə edilirlər.

Seçki Məcəlləsinin 116-cı maddəsi ilə müəyyən edilib ki, vətəndaşların seçki hüquqlarının pozulmasına görə məntəqə və dairə seçki komissiyaları, Mərkəzi Seçki Komissiyası namizəd, qeydə alınmış namizəd, habelə onların və siyasi partiya, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri barəsində bu Məcəllədə nəzərdə tutulmuş hallarda qanun pozuntularına görə İnzibati Xətalar Məcəlləsinə əsasən inzibati xəta protokolu tərtib etmək və cərimənin tətbiqi üçün məhkəməyə müraciət etmək hüququna malikdirlər.

Seçki Məcəlləsinin 115-ci maddəsi ilə müəyyən edilmiş bir sıra seçki hüquqlarının pozulmasına görə məsuliyyət isə Cinayət Məcəlləsinin "İnsan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlər" fəslinin müvafiq maddələrində nəzərdə tutulub.

Seçki hüququnun həyata keçirilməsində yuxarıda qeyd edilmiş bəzi pozuntulara yol vermiş şəxslər barəsində cinayət məsuliyyəti Cinayət Məcəlləsinin 159-cu, 159-1-ci, 160-cı və 161-ci maddələrində qeyd olunub.

Cinayət Məcəlləsinin 159-cu maddəsi ilə vətəndaşın seçki (referendumda iştirak) hüquqlarının həyata keçirilməsinə mane olma, vətəndaşı namizədin lehinə imza atmağa məcburetmə və ya namizədin müdafiəsi üçün imza yığılmasına maneolma, vətəndaşı öz iradəsinə zidd səsverməyə məcburetmə və ya onun səs verməsinə mane olmağa görə cərimə cəzası ilə yanaşı, ictimai işlər və ya yol verilmiş cinayət əməlinin xarakterinə görə, altı aydan iki ilədək müddətə azadlıqdan məhrumetmə cəzası da nəzərdə tutulub.

Yuxarıda qeyd edilən əməllər ələ alma, aldatma, zor tətbiq etməklə və ya zor tətbiqetmə hədəsi ilə törədildikdə, həmçinin qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə, yaxud vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə ağırlaşdırıcı hal kimi maddənin sanksiyasını daha ağır cəza növü əvəz edə bilər.

Cinayət Məcəlləsinin 159-1-ci maddəsi ilə seçkilərdə (referendumda) iştirak qaydalarını pozmağa, yəni namizədlərin, partiyaların, siyasi partiyalar bloklarının seçki (referendum) kampaniyalarına müdaxilə etmə və ya onu pozma, seçkiqabağı kütləvi tədbirlərin keçirilməsinə mane olma, seçkilərdə (referendumda) başqalarının əvəzinə səs verilməsinə şərait yaratma cinayət məsuliyyəti yaradan əməl olaraq göstərilməklə, həmin əməllərə görə cərimə cəzası ilə yanaşı, ictimai işlər, islah işləri və ya azadlıqdan məhrumetmə növündə cəza tətbiq edilə bilər.

Cinayət Məcəlləsinin 160-cı maddəsi ilə seçki (referendum) komissiyalarının işinə müdaxilə etmə və ya təsir göstərmə, həmçinin seçki komissiyası üzvünün öz vəzifələrini yerinə yetirməsi ilə bağlı fəaliyyətinə müdaxilə etmə də cinayət məsuliyyəti yaradan əməl kimi xarakterizə olunmaqla maddənin sanksiyasında müvafiq cəza növü nəzərdə tutulub.

Seçki Komissiyasının üzvü tərəfindən seçki (referendumda iştirak) sənədlərinin saxtalaşdırılması və ya saxta sənədlərin təqdim edilməsi, bilə-bilə səslərin düzgün hesablanmaması, səsvermənin nəticələrinin düzgün müəyyənləşdirilməməsi və ya səsvermənin gizliliyinin pozulması Cinayət Məcəlləsinin 161-ci maddəsi ilə cinayət məsuliyyəti yaradan əməl kimi nəzərdə tutularaq cərimə və ya müəyyən müddətdə islah işləri növündə cəza tətbiq edilməsi ilə nəticələnir.

İnanırıq ki, seçicilər və digər seçki subyektləri qanunvericiliyin tələblərinə dəqiqliklə əməl etməklə, qarşıdan gələn seçkilərin azad, ədalətli və şəffaf keçirilməsinə öz töhfələrini verəcəklər.

*Ramiz İBRAHİMOV,*
*Azərbaycan Respublikası*
*Mərkəzi Seçki Komissiyasının üzvü*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Fransa Senatının qətnaməsi ilə əlaqədar Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin

## BƏYANATI

Fransada fəaliyyət göstərən erməni lobbisi rəhbərlərinin və onların təsiri altında olan Fransa rəsmilərinin və siyasətçilərinin təhriki ilə Fransa Respublikası Senatının 2024-cü il yanvarın 17-də qəbul etdiyi qərəzli, birtərəfli və əsassız qətnamə ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi aşağıdakıları bəyan edir:

- Son illərdə Fransa Respublikasının siyasi dairələri, o cümlədən Senatı və Milli Assambleyası birbaşa Yelisey Sarayından alınmış təlimat əsasında açıq irqçi, azərbaycanofob və islamofob fəaliyyətini daha da intensivləşdirmişdir və beynəlxalq hüquq normalarına və prinsiplərinə açıq hörmətsizlik nümayiş etdirərək Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı ədalətsiz addımlar atmaqda davam edir;

- Fransa hökumətinin apardığı anti-Azərbaycan siyasəti, o cümlədən Fransa Parlamentinin hər iki palatasında ölkəmiz əleyhinə indiyədək qəbul edilmiş qətnamələr ucbatından iki ölkə arasında münasibətlər tarixinin ən aşağı səviyyəsindədir və mahiyyətcə dayandırılmış hesab edilə bilər;

- Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə hörmət edilməsi Fransa tərəfinin həm çoxtərəfli, həm də ikitərəfli beynəlxalq öhdəliyi olsa da, Fransa istər ölkə daxilində, istərsə də beynəlxalq təşkilatlarda təşəbbüsçüsü olduğu qətnamə layihələrində ölkəmizin ərazi bütövlüyünü və suverenliyini sual altına qoymuşdur;

- BMT Təhlükəsizlik Şurası və Avropa İttifaqı çərçivəsində Fransanın irəli sürdüyü Azərbaycan əleyhinə çoxsaylı qərar və qətnamə layihələrinin qəbul olunmaması Azərbaycan dövlətinin uğurlu xarici siyasəti ilə yanaşı, Fransanın təşəbbüslərinin bu təşkilatlarda haqlı olaraq qərəzli və qeyri-obyektiv addımlar kimi qiymətləndirilməsi ilə bağlıdır;

- Fransanın Azərbaycana qarşı qeyri-qanuni fəaliyyətinin bir istiqamətini də uğursuz kəşfiyyat işi təşkil etmişdir. Bu ölkənin Bakıdakı səfirliyinin iki əməkdaşı diplomatik statuslarına uyğun olmayan, "Diplomatik əlaqələr haqqında" 1961-ci il tarixli Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətə görə Azərbaycan hökuməti tərəfindən "persona non grata" (arzuolunmaz şəxs) elan olunaraq ölkə ərazisindən çıxarılmışdır;

- Fransa hökumətinin, eləcə də Senatının və Milli Assambleyasının destruktiv və təxribatçı addımları Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin həyata keçirilməsinin qarşısını almağa və Cənubi Qafqaz regionunda vəziyyəti gərginləşdirməyə xidmət edir;

- Son aylar Ermənistan-Azərbaycan şərti sərhədində tam sakitliyin hökm sürməsi və heç bir münaqişəli halın baş verməməsi, görünür, Fransa tərəfini narahat edir. Fransa müxtəlif vasitələrə əl ataraq Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanması istiqamətində görülən işlərə maneçilik törətməyə çalışır;

- Fransa Ermənistana silah-sursat satmaqla onun Azərbaycanla münasibətlərinin normallaşdırılmasına zərbə vurur, Ermənistandakı revanşist qüvvələri yeni müharibəyə həvəsləndirir;

- Cənubi Qafqaz regionunun və bütövlükdə Avropanın təhlükəsizliyi üçün təhdid törətmiş, Azərbaycanın qətiyyətli səyləri ilə artıq tarixə qovuşmuş Ermənistan-Azərbaycan münaqişəsinin 30 ilə yaxın müddətdə həll edilməməsinin əsas səbəblərindən biri də danışıqlar prosesində beynəlxalq vasitəçi rolunu oynamış bəzi dövlətlərin, xüsusən Fransanın Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalına əsaslanan status-kvonu qoruyub saxlamağa çalışması olmuşdur;

- "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyasını və onun iki protokolunu, UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" 1972-ci il 16 noyabr tarixli Konvensiyasını və "Mədəni irsin qəsdən dağıdılması haqqında" 2003-cü il 17 oktyabr tarixli Bəyannaməsini xatırladan Fransa Senatı Azərbaycan torpaqlarını 30 ilə yaxın işğal altında saxlamış Ermənistanın həmin konvensiyaları və bəyannaməni kobudcasına pozduğunu bilə-bilə heç zaman bu ölkəni beynəlxalq öhdəliklərinə əməl etməyə çağırmamışdır;

- İndiki Ermənistan ərazisində yaşamış yüz minlərlə azərbaycanlının ata-baba yurdlarından zorla kütləvi surətdə qovulmasına səssiz qalan və onların geri qayıdış hüququnun bərpasına çağırış etməyən Fransa yenə də ikili standartlar siyasətinə sadiq qalaraq ermənilərin Azərbaycan ərazisində yerləşdirilməsi üçün hər fürsətdə canfəşanlıq edir;

- Mədəni irsin qorunmasından dəm vuran Fransa qadın azadlığının və hüquqlarının tərənnümçüsü kimi tanınan görkəmli şairə, rəssam, maarifçi və xeyriyyəçi Xurşidbanu Natəvanın Evian-Le-Ba şəhərində heykəlinin təhqir olunmasının qarşısını almamış, bu rəzaləti törədənləri hələ də tapıb cəzalandırmamışdır;

- Fransa "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı Beynəlxalq Ədalət Məhkəməsinin müvəqqəti tədbirlər barədə qərarlarını məqsədli şəkildə təhrif edir. Fransanın iddialarının əksinə olaraq, məhkəmə Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü bir daha təsdiq edən, Ermənistanın Azərbaycanın Qarabağ üzərində beynəlxalq səviyyədə tanınmış suverenliyini şübhə altına alan tələbini rədd edən qərar qəbul etmiş, Azərbaycanın bütün hərbi və hüquq-mühafizə orqanlarının şəxsi heyətinin Qarabağ bölgəsindən çıxarılması ilə bağlı əsassız tələbini rədd etmişdir. Həmçinin Beynəlxalq Ədalət Məhkəməsi Laçın nəzarət-buraxılış məntəqəsinin Laçın yolu boyunca hərəkətə mane olduğuna dair Ermənistanın iddiasını qəbul etməmişdir;

- Fransa Senatının qətnaməsində və Fransa rəsmilərinin mütəmadi açıqlamalarında iddia edildiyinin əksinə olaraq, hətta Avropa Şurasının İnsan hüquqları üzrə komissarının Ermənistana və Azərbaycana səfərindən sonra hazırladığı hesabatda da qeyd edilir ki, Azərbaycan hakimiyyəti tərəfindən heç bir güc tətbiq olunmadan, Azərbaycanın Qarabağ bölgəsini tərk etmək yerli ermənilərin öz könüllü qərarı olmuşdur;

- Azərbaycana qarşı açıq düşmənçilik siyasəti yürüdən Fransadan fərqli olaraq, dünyanın əksər ölkələri, eləcə də müvafiq beynəlxalq təşkilatlar Azərbaycanın qarşılaşdığı "mina terroru"nu pisləyən açıqlamalar yaymışlar. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində minalarla kütləvi çirklənmə ilə bağlı kəskin problem və bunun ərazilərin reabilitasiyası, eləcə də keçmiş məcburi köçkünlərin öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtması prosesi üçün yaratdığı əngəllər, habelə onların sağlamlığı və həyatı üçün törətdiyi ciddi təhlükələr beynəlxalq hesabatlarda tanınmışdır;

- Dünyanın müxtəlif bölgələrində 50-dən artıq dövlətin ərazisini işğal etmiş, sərvətlərini talamış, xalqlarını uzun illər əsarətdə saxlamış Fransanın törətdiyi vəhşiliklər, habelə insanlıq əleyhinə cinayətlər, eləcə də müharibə cinayətləri bəşər tarixinin qara səhifələridir. Müstəmləkə illərində Fransa silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini kütləvi surətdə qətlə yetirmişdir. Törədilmiş soyqırımı cinayətləri Fransanın siyasi tarixində silinməsi mümkün olmayan ləkədir;

- 1960-1966-cı illərdə Əlcəzairin Böyük Səhrada payına düşən Reggan və İn Ecker adlı ərazilərində Fransa tərəfindən 17 nüvə sınağı gerçəkləşdirilmişdir ki, onlardan da 11-i yeraltı sınaqlar olmuşdur. Fransa aşkar edilməmiş kimyəvi, radioaktiv və zəhərlənmiş tullantıların yerləşdiyi ərazilərə dair topoqrafik xəritələri indiyədək Əlcəzair tərəfinə təqdim etmir. Eyni zamanda Fransa həmin sınaqların və tullantıların yerli əhaliyə göstərdiyi təsirlərin qiymətləndirilməsi və müvafiq kompensasiyanın verilməsi məsələsindən də boyun qaçırır;

- İşğal etdiyi Əlcəzair ərazisində 5 milyondan artıq mina basdıran Fransa həmin minaların xəritələrini Əlcəzair tərəfinə verməkdən bu günədək imtina edir. Nəticədə Azərbaycan kimi Əlcəzair də dünyada mina partlayışından ən çox əziyyət çəkən ölkələrin sırasında ön yerlərdən birini tutur;

- Əlcəzairin 1830-1962-ci illəri əhatə edən işğalı dövründə 1,5 milyondan artıq insan fransızlar tərəfindən qətlə yetirildiyindən bu ölkə "1,5 milyon şəhid ölkəsi" adlandırılır;

- 1832-ci ildə El-Uffia qəbiləsi gecə yatdığı yerdə qılıncdan keçirilmiş, qadınlar və uşaqlar da daxil olmaqla, 12 min adam öldürülmüşdür;

- 1945-ci ildə Setif şəhərində 45 min əlcəzairli öldürülmüş, 5 minə yaxın adam həbs olunmuş, 99 nəfər edam, 64 nəfər ömürlük katorqa cəzalarına məhkum edilmişdir;

- 1961-ci il oktyabrın 17-də on minlərlə əlcəzairli Fransa işğalını pisləmək üçün Parisdə nümayişə çıxmışdır. Fransa polisinin açdığı atəş və etirazçıların Sena çayına atılması nəticəsində 1500-ə qədər əlcəzairli qətlə yetirilmiş, mindən çox şəxs həbs edilmişdir. Bu hadisə tarixə "Sena qətliamı" kimi daxil olmuşdur;

- Fransanın işğal etdiyi Cibuti, Niger və Çadda xalqın islam təhsili alması qadağan edilmiş, məscid və mədrəsələr dağıdılmışdı. Müsəlman alimləri həbs edilmiş, müqavimət göstərən on minlərlə müsəlman qətlə yetirilmişdi. Tarixə "elm adamlarının soyqırımı" kimi həkk olunan hadisəni də fransızlar törətmişlər. Fransızlar 1917-ci ildə Çadda dini həyatı yenidən nizamlamaq adı altında konfrans təşkil edərək tədbirə qatılan 400-ə yaxın müsəlman elm adamının hamısını güllələmişlər;

- XIX əsrdə müstəmləkə müharibələrində öldürülən döyüşçülərin 18 min ədəd kəllə sümüyü Parisin İnsan Muzeyində saxlanılır və nümayiş etdirilir. Həmin kəllə sümüklərinin 500-dən çoxu əlcəzairli döyüşçülərə aiddir. Əlcəzairin həmin sümükləri geriyə qaytarmaq tələbini Fransa hələ də tam yerinə yetirmir. Bu cür mağara təfəkkürünə hazırda Fransadan başqa, dünyanın az dövlətində rast gəlmək mümkündür;

- Fransanın işğal etdiyi Mərakeşdə 1907-ci ilin avqustunda tarixə "Kasablanka döyüşü" kimi daxil olmuş hücumu nəticəsində 2 gün ərzində 3 minə yaxın mərakeşli qətlə yetirilmişdir;

- Tunisdə 1956-cı ildə mübarizə nəticəsində Fransa işğalına rəsmən son qoyulsa da, Fransa tərəfi ölkənin suverenliyinə hörmət etməyərək, bu ölkədə hərbi mövcudluğunu qoruyub saxlamağa cəhd göstərmişdir. 1961-ci ildə Tunis xalqının Fransa hərbi bazasının bağlanmasına dair tələbinə fransız hərbçilər qətllərlə cavab vermişlər. "Bizert böhranı" nəticəsində 5 minə yaxın tunislinin öldürüldüyü bu ölkənin Qızıl Aypara Cəmiyyəti tərəfindən qeydə alınmışdır;

- Fransa işğal etdiyi ölkələrdə Cenevrə Konvensiyası ilə qadağan olunmuş kimyəvi silahlardan - zəhərli qazlardan istifadə etmişdir. Həmin qazların təsirinə məruz qalmış insanların nəvə-nəticələri bu gün də onkoloji və digər xəstəliklərdən əziyyət çəkirlər;

- Vyetnamda 1947-ci il noyabrın 29-da törədilmiş, "Mıy Ça" adlandırılan qətliam nəticəsində fransızlar 170-i qadın və 157-si uşaq olmaqla, yüzlərlə vyetnamlını vəhşicəsinə öldürmüşlər. 400-ə yaxın evin yandırıldığı bu qətliamlar zamanı vyetnamlı qadınlar güllələnməzdən əvvəl Fransa əsgərləri tərəfindən zorlanmışlar;

- 1994-cü ildə Fransa Ruandada "təhlükəsiz zona yaratmaq" adı altında hərbi əməliyyat keçirmişdir. Nəticədə Fransa silahlı qüvvələri onlara qoşulan yerli münaqişə tərəfinin iştirakı ilə bu ölkədə tutsi qəbiləsinin 800 mindən çox üzvünü qətlə yetirmişlər. "Ruandada tutsi qəbiləsinin soyqırımında Fransanın roluna dair hesabata məsul komissiya" tərəfindən 2021-ci il martın 26-da Fransa dövlətinin başçısına təqdim edilmiş sənəddə Fransanın qətliamda məsuliyyəti qeyd olunmuşdur;

- 2021-ci il martın 30-da Birləşmiş Millətlər Təşkilatının Malidə sabitləşmə üzrə çoxölçülü kompleks missiyasının (MİNUSMA) Müdafiə və insan hüquqları bölməsinin dərc etdiyi hesabatda Fransa hərbçilərinin Malinin Bounti kəndi yaxınlığında həyata keçirdiyi hava hücumu nəticəsində 19 mülki şəxsin həlak olduğu qeyd edilmişdir;

- Fransa işğal altında saxladığı dənizaşırı ərazilərdə mədəni hegemonluq, "kultursid" həyata keçirir, yerli mədəniyyətin inkişafını əngəlləyir, yoxa çıxmaq təhlükəsi altında olan yerli dilləri unutduran və aborigenlərin tarixinə, coğrafiyasına uyğun gəlməyən fransız məktəb proqramlarını tətbiq edən assimilyasiya siyasəti yürüdür;

- Fransa Maohi Nuidə (Fransa Polineziyası) çay suyunun civə ilə kütləvi çirklənməsi, Martinik və Qvadelupanın torpaqlarının pestisidlərlə zəhərlənməsi kimi ağır cinayətlər törətmişdir;

- Fransa parlamentarilərini ilk öncə öz hökumətini müstəmləkəçilik siyasətindən əl çəkməyə və artıq uzun müddətdir ki, müstəqilliyi uğrunda mübarizə aparan Kanaky (Yeni Kaledoniya) və Maohi Nuinin (Fransa Polineziyası) azadlığını təmin etməyə çağıran qətnamə qəbul etməyə dəvət edirik;

- Qəmər Adaları İttifaqının ərazisi olan Mayotla bağlı BMT Baş Assambleyasının 1994-cü il 6 dekabr tarixli, A/Res/49/18 nömrəli qətnaməsində Baş Assambleya Qəmər Federativ İslam Respublikasının Mayot adası üzərində suverenliyini bir daha təsdiq etmiş, Fransa hökumətini Qəmər arxipelaqının 1974-cü il dekabrın 22-də öz müqəddəratını təyinetmə referendumu ərəfəsində Qəmər adalarının ərazi bütövlüyünə hörmət edəcəyinə dair götürdüyü öhdəlikləri yerinə yetirməyə çağırmışdır. BMT-nin əlaqədar qətnamələrinə məhəl qoymayan və beynəlxalq hüquqa hörmət etməyən Fransanı sözügedən qətnamələri icra etməyə çağırırıq;

- Fransanı törətdiyi insanlığa qarşı cinayətləri və müharibə cinayətlərini tanımağa, vəhşiliklər törətdiyi xalqlardan üzr istəməyə, həmçinin təbii sərvətlərini talan etdiyi dövlətlərə kompensasiya ödəməyə çağırırıq;

- Fransa parlamentarilərini öz hökumətini ölkədə artmaqda davam edən irqçi, antisemit, türkofob və islamofob təzahürlərin qarşısını almaq üçün siyasi iradə nümayiş etdirməyə və bu halların qarşısını almağa yönələn qətnamə qəbul etməyə dəvət edirik.

Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi yuxarıda şərh olunanları, xüsusən Fransanın davamlı anti-Azərbaycan fəaliyyətini nəzərə alaraq, Azərbaycan Respublikası hökumətinə aşağıdakı tədbirlərin görülməsi ilə bağlı çağırış edir:

1. Fransaya qarşı sanksiyalar tətbiq edilsin.
2. Fransa rəsmilərinin Azərbaycanda hər hansı aktivləri aşkar edildikdə dondurulsun.
3. Fransa ilə bütün iqtisadi əlaqələr dayandırılsın.
4. "Total Energies" də daxil olmaqla, bütün Fransa şirkətləri Azərbaycandan çıxarılsın.
5. Fransa şirkətlərinin Azərbaycan dövlətinin sifarişi ilə həyata keçirilən hər hansı layihədə iştirakına yol verilməsin.
6. Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Kanaky, Maohi Nui və Korsikanın müstəqilliyinin tanınması istiqamətində addımlar atsın.

## Rəsmi Paris beynəlxalq hüquq normalarına hörmətsizlik edir

**Fransanın Azərbaycana qarşı iftira və qərəzləri bitib-tükənmək bilmir. İki ölkə arasında münasibətlər Fransanın günahı ucbatından getdikcə tündləşir. Bu ölkə əvvəllər də haqsız olaraq ədalətə, həqiqətə göz yumub Ermənistanı dəstəkləyirdi. Azərbaycan ərazilərinin vaxtilə ermənilər tərəfindən işğal olunduğunu dilinə gətirməyən Fransa daim ermənilərin müdafiəsində dayanıb.**

Azərbaycan 44 günlük Vətən müharibəsində beynəlxalq hüquqa, BMT-nin Nizamnaməsinə uyğun olaraq ərazi bütövlüyünü təmin etdikdən, Ermənistanı məğlubiyyətə uğratdıqdan sonra rəsmi Parisin mövqeyi ölkəmizə qarşı tamam dəyişdi. Bu dəyişiklik onsuz da isti olmayan münasibətləri daha da soyutdu. Açıq-aydın göründü ki, Fransa İkinci Qarabağ müharibəsində ölkəmizin qələbəsini istəmirmiş. Haqqın, ədalətin zəfər çalmasının əleyhinə imiş. Azərbaycanın beynəlxalq hüquq normaları əsasında öz haqqını bərpa etməsi işğalçı Ermənistanın havadarlarından biri, deyərdik ki, elə birincisi olan Fransanı çox ciddi şəkildə narahat edirmiş.

Təbiidir ki, bizim üçün Fransanın nə istəyib-istəməməsi maraqlı deyil. Xalqımız 44 günlük Vətən müharibəsində güclü, qüdrətli ordusu ilə 30 ilə yaxın ərazilərimizi işğalda saxlayan Ermənistana qalib gəldi. Ordumuz Qarabağdan, eləcə də başqa bölgələrdən separatçı və işğalçı qüvvələri tamam qovub çıxartdı. Azərbaycan xalqı olaraq bu, bizim 30 il gecikmiş halalca haqqımız idi. Bunun nə ermənilərdən ötrü yaxasını parçalayan Fransaya, nə də o biri dövlətlərə heç bir aidiyyəti yoxdur.

Amma Azərbaycanın regiondakı daim artan gücünü istəməyən, zamanın diktə etdiyi reallıqla barışmaq istəməyən Fransa gündə bir hoqqa çıxardır. Dəyərsiz qərarlar, qətnamələr və bəyanatlar qəbul edir. Son günlər qəbul olunan qərar və qətnamələrə diqqətlə baxanda belə qənaətə gəlmək olur ki, fransız senatorlar axşamlar ermənilərlə bağlı yuxularında nəyi görürlərsə, sahah onu Senatda müzakirəyə çıxarırlar. Doğrudan da, Paris xəyallar şəhəri imiş.

Yenə də deyəsən fransızlar yuxularını qarışdırıblar. Fransa Senatı bir qrup ermənipərəst, anti-Azərbaycan ovqatlı senator tərəfindən təklif edilən daha bir dəyərsiz qətnamə qəbul edib. Qəbul olunan bu mənasız və əsassız qətnamə Azərbaycan Respublikasının beynəlxalq səviyyədə, o cümlədən elə Fransa Respublikasının özü tərəfindən tanınan ərazi bütövlüyünə və beynəlxalq hüququn əsas prinsiplərinə açıq şəkildə hörmətsizlik deməkdir.

Başını belə yararsız qətnamələr arasında itirib isterik vəziyyətə düşən Emmanuel Makron hökuməti ümid edir ki, Azərbaycana qarşı rəngli və rəngsiz oyunlardan çıxmaqla, təzyiq və qərəzli variantlara əl atmaqla nəyəsə nail ola bilər. Erməni lobbisindən divara vurulmuş şəkil kimi asılı qalmış fransız senatorların özləri də çox yaxşı bilirlər ki, qəbul etdikləri bu qətnamənin heç bir hüquqi əsası yoxdur. Sadəcə olaraq, senatorlar öz ağalarına sadiqliklərini bir daha göstərirlər.

Fransa Senatında Azərbaycan əleyhinə qəbul olunmuş qətnamə haqlı olaraq ölkə ictimaiyyəti tərəfindən böyük narazılıqla qarşılanıb. Azərbaycan Respublikasının Milli Məclisi Fransa Senatının qərarı ilə bağlı etiraz bəyanatı qəbul edib. Azərbaycan parlamenti haqlı olaraq Fransa Senatına qarşı kəskin etirazını bildirib. Bəyanatda Azərbaycan hökumətinə çağırış edilir ki, Fransanın ATƏT-in Minsk qrupunun həmsədrliyindən geri çağırılması üçün ATƏT-in rəhbərliyinə müraciət olunsun. Eyni zamanda Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında mövcud olan siyasi münasibətlərə yenidən baxılsın. Bəyanatda həmçinin Azərbaycanla Fransa arasında mövcud olan iqtisadi əlaqələr dərindən təhlil edilərək, lazımi tədbirlərin görülməsi də tövsiyə edilir.

Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatında bildirilir ki, son illərdə Fransa Respublikasının siyasi dairələri, o cümlədən Senatı və Milli Assambleyası birbaşa Yelisey Sarayından alınmış təlimat əsasında açıq irqçi, azərbaycanofob və islamofob fəaliyyətini daha da intensivləşdirmişdir və beynəlxalq hüquq normalarına və prinsiplərinə açıq hörmətsizlik göstərərək Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı ədalətsiz addımlar atmaqda davam edir.

Uzaq və yaxın keçmişi müstəmləkəçilik üzərində qurulan bir dövlətin Azərbaycanı nədəsə günahlandırmaqda mənəvi haqqı yoxdur. Makron Fransasının, onun sifarişi ilə oturub-duran Senatın Azərbaycana qarşı qəbul etdiyi bu qətnamə sözsüz ki, qərəzdən və çirkin niyyətdən qaynaqlanır. Senatın təxribatçı addımı Fransa siyasi dairələrinin ənənəvi Ermənistan təəssübkeşliyinin növbəti təzahüründən başqa bir şey deyil. Paris bu yanlış addımı ilə Azərbaycanı deyil, öz ölkəsini pis vəziyyətə salır.

Makronu erməni lobbisi hakimiyyətə gətirib. Elə onlar da belə boş qətnamə və qərarları ilə onun sonunu gətirəcək. Günümüzün dəyişməyən bir reallığı var - Ermənistanın havadarının bu şousu da fiaskoya uğrayacaq. Gec-tez rəsmi Paris öz səhvini anlayıb geriyə addım atacaq. Nəhayət, Fransa və digər dövlətlər anlamalıdırlar ki, müstəqil və güclü Azərbaycan dövləti ilə mənasız, əsassız qətnamələrlə danışmaq olmaz.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Qərbi Azərbaycan İcması Fransa Senatının qətnaməsinə cavab verib

**Qərbi Azərbaycan İcması Fransa Senatının 2024-cü il yanvarın 17-də qəbul etdiyi qərəzli, birtərəfli və əsassız qətnamə ilə əlaqədar bəyanat yayıb.**

AZƏRTAC bəyanatı təqdim edir:

"İrqçi, islamofob, azərbaycanofob Fransa Senatı daha bir anti-Azərbaycan qətnaməsi qəbul edib. Fransız Senatında əyləşən müasir səlibçilər anlamırlar ki, Azərbaycan öz suveren ərazisində hərbi əməliyyat keçirməyə görə heç kimdən icazə almır və bu mənada Fransa Senatı öz yerini bilməlidir. Azərbaycanla bağlı gülünc ittihamlar irəli sürən Fransa Senatı qoy "Fransada niyə tez-tez az qala vətəndaş müharibəsi yaşanır", "Fransa niyə Korsika dilini qadağan edir", "Fransa ordusunun Niger, Mali, Burkino Fasoda nə işi var", "Fransa nə üçün özündən min kilometrlərlə uzaqda yerləşən əraziləri hələ də müstəmləkə asılılığında saxlayır" kimi suallara cavab versin.

İkinci Dünya müharibəsində biabırcasına məğlub olduqdan sonra başqalarının mərhəməti ilə BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusuna yiyələnmiş, bir neçə aydır ki, bu qurumda Azərbaycan əleyhinə qətnamə qəbul etdirə bilməyən Fransa, görünür özünü Senatın qətnaməsi ilə ovundurur.

Fransa Senatının gözünü etnik və dini nifrət o qədər tutub ki, "Azərbaycanı və onun müttəfiqlərini öz qoşunlarını Ermənistan ərazisindən çıxarmağa" çağırır. Bununla Senat özünü lağlağı obyektinə çevirir.

Qarabağ ermənilərinin "öz müqəddəratını təyin etmək hüququ"ndan danışan Fransa qoy gedib Korsikaya, basklara, Yeni Kaledoniyaya müstəqillik versin.

Bir tərəfdən Ermənistanın ərazi bütövlüyünün qorunmasından danışaraq, digər tərəfdən "Dağlıq Qarabağ respublikası", "Dağlıq Qarabağın demokratik surətdə seçilmiş liderləri" ifadələrindən istifadə edən Senat əslində özü-özünü ələ salır. AZƏRTAC-ın müxbirinin Yeni Kaledoniyaya girişinə qadağa qoyanlar Azərbaycandan "Dağlıq Qarabağ respublikasının siyasi liderləri"nin buraxılmasını tələb edir.

Senat "erməni mədəni irsi"nə görə narahat olursa, qoy onda Fransanın əsrlərlə Afrikadan oğurladığı mədəni irs nümunələri ilə məşğul olsun. Fransanın Qarabağa göndərmək istədiyi UNESCO missiyası elə Fransanın özünə göndərilməlidir ki, həmin oğurlanmış irs nümunələrinin əsl sahiblərinə qaytarılmasını təmin etsin.

Qarabağ ermənilərinin geriyə qayıdışından danışan səlibçi mentalitetli Fransa Senatı başa düşməlidir ki, qayıdış qarşılıqlı olmalı, qərbi azərbaycanlıların da Ermənistana qayıdışı təmin edilməlidir.

Başa düşürük, azərbaycanofobiya son illər Fransada gəlirli peşəyə, "qəhrəman", "alovlu natiq" olmaq üçün əla fürsətə çevrilir. Amma Fransa təkcə İkinci Dünya müharibəsində, son illərdə Afrikada məğlub olmayıb, Fransa həm də 2020-2023-cü illərdə Cənubi Qafqazda məğlub oldu. Son illər özünü təmiz urvatsız edən rəsmi Paris bununla barışmalı, regiona soxulmaq siyasətindən əl çəkməlidir.

Avropa İttifaqını Azərbaycanla münasibətləri yenidən nəzərə keçirməyə çağıran özündən müştəbeh fransız Senatı elə bilir ki, dünya Fransanın, Avropanın ətrafında fırlanır.

Azərbaycan və Ermənistanın dekabrın 7-də birbaşa danışıqlarla əldə etdiyi razılıqlar fonunda fransız Senatının bu təxribatçı addımı siyasi klounluqdur.

Fransanın qardaş Türkiyəyə yönəlmiş ittihamlarını da qətiyyətlə rədd edirik.

Ermənistan da başa düşməlidir ki, Fransanın heç kimə lazım olmayan silahları ona sırıması, Avropa İttifaqının Ermənistanda baza qurması İrəvana heç bir kömək etməyəcək, əksinə, Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olmasına mane olacaq. Fransanın Ermənistana maksimum verə biləcəyi Qarabağ ermənilərinə Parisin fəxri vətəndaşı adı verib baş aldatmaq ola bilər. Ermənistan 1-ci respublikanın səhvlərindən nəticə çıxarmalıdır".

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Fransa Azərbaycanla Ermənistan arasında sülh olmasını istəmir

**"Azərbaycana qarşı qərəzli siyasətini davam etdirən rəsmi Paris artıq bütün diplomatik normaları pozaraq nəinki ölkəmizin daxili işlərinə müdaxilə etmək istəyir, eyni zamanda ölkələrarası münasibətləri pozmaqdan da çəkinməyərək açıq formada qarayaxma kampaniyası aparır.Yanvarın 17-də Fransa Senatında ötən ilin dekabrın 1-də təklif edilmiş partiyalararası qətnamə müzakirə edilib və səsə qoyulub. Tamamilə həqiqətdən uzaq, əsassız, Yelisey sarayının sifarişi əsasında hazırlanmış absurd bəyanatlarla dolu bu sənəd fransalı parlamentarilərin mütləq əksəriyyətinin sanki "ürəyindən xəbər verib". Senatın 337 üzvündən 336-sı Fransa üçün rəzalət sayıla biləcək bu sənədin lehinə səs verib".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Sevil Mikayılova deyib. Deputat bildirib ki, həmin parlamentarilər öz müraciətlərində hətta Azərbaycana qarşı cəza sanksiyalarının qəbul olunmasına da çağırış ediblər: "Fransanın anti-Azərbaycan siyasəti artıq bütün qırmızı çizgiləri keçib. Məhz bu səbəbdən ötən gün Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi Fransa Senatının qətnaməsi ilə əlaqədar bəyanat qəbul edib. Bəyanatda Fransada fəaliyyət göstərən erməni lobbisi rəhbərlərinin və onların təsiri altında olan Fransa rəsmilərinin və siyasətçilərinin təhriki ilə Senatın 2024-cü il yanvarın 17-də qəbul etdiyi qərəzli, birtərəfli və əsassız qətnaməyə tutarlı cavab verilib".

Sevil Mikayılova söyləyib ki, son illərdə müəyyən təlimatlar əsasında açıq irqçi, anti-Azərbaycan və islamofob fəaliyyətini daha da intensivləşdirən, beynəlxalq hüquq normalarına və prinsiplərinə açıq meydan oxuyaraq Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı hörmətsizlik göstərməkdə davam edən Fransa siyasi dairələrinə, o cümlədən Senatına və Milli Assambleyasına bir daha xatırlatmaq yerinə düşər ki, Azərbaycanın Fransa ilə əlaqələri olmasa da, olar. O cümlədən Fransa Azərbaycanla əlaqələri olmadan da davam edə bilər. Lakin onilliklər ərzində qurulmuş münasibətləri sındırıb dağıtmaqda bu ölkənin məqsədi nədir? Əgər söhbət Ermənistanın maraq və mənafeyi uğrunda canfəşanlıqdan gedirsə, Azərbaycan 30 illik işğal və münaqişəyə son qoyaraq hazırda qonşu ölkə ilə normallaşma prosesini irəliyə aparır. Bu məsuliyyətli dönəmdə Parisin tutduğu mövqe təbii ki, onun öz maraq və mənafeyini çirkin yollarla təmin etməkdən irəli gəlir".

Deputatın sözlərinə görə, əslində bu cür düşüncəsiz və heç bir əsası olmayan anti-Azərbaycan mövqeyi özünü daim Avropada demokratiyanın beşiyi adlandıran Fransanın əsl simasını ifşa edir. "Şübhə yoxdur ki, Paris regionda sabitlik tərəfdarı deyil. Daha konkret desək, Fransa Ermənistanla Azərbaycan arasında sülh əldə olunmasını istəmir. Son aylar, xüsusilə keçən il sentyabrın 19-20-də keçirilən antiterror tədbirlərindən sonra Ermənistan-Azərbaycan şərti sərhədində tam sakitliyin hökm sürməsi və heç bir münaqişəli halın baş verməməsi, görünür, Fransanı qane etmir. Elə bu səbəbdən də Fransa müxtəlif vasitələrə əl ataraq Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanması istiqamətində görülən işlərə mane olmağa çalışır", - deyə müsahibim qeyd edib.

Sevil Mikayılova əlavə edib ki, bütün təzyiq və hücumlar Azərbaycan tərəfindən layiqli cavablandırılır: "Azərbaycan parlamentinin Fransa ilə bağlı sənəd qəbul etməsi ilə yanaşı, bu ölkə ilə siyasi və iqtisadi əlaqələrə yenidən baxılması üzərində də düşünülməlidir. Azərbaycanda fəaliyyət göstərən Fransa şirkətlərinin, xüsusilə də "Total" neft şirkətinin ölkəmizdən çıxarılması müzakirə predmetinə çevrilə bilər. Çünki bu şirkətin Azərbaycanın "Abşeron" qaz yatağındakı payından gəlir əldə etməsi və bu gəlirin bir hissəsinin əleyhimizə siyasət yürüdən Fransa büdcəsinə daxil olması heç də məntiqli görünmür".

Deputat yekunda vurğulayıb ki, Fransa öz neokolonialist siyasətinə nəzər salaraq, müasir reallıqlarda törətdiyi tarixi cinayətləri etiraf etməli, hüquqları pozulmuş milyonlarla günahsız insanın haqqını qaytarmalıdır. Fransa Senatının bu problemlərin həlli ilə məşğul olması daha məqsədəuyğundur.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## "Fransaya sanksiya tətbiq olunsun, şirkətləri Azərbaycandan çıxarılsın"

### Rəsmi Bakı Fransaya həddini bildirməkdə qərarlıdır

**2024-cü il yanvarın 17-də Fransa Senatının qəbul etdiyi qərəzli, birtərəfli və əsassız qətnamə Parisin növbəti iftira və yalanlarla dolu kağız parçasıdır və xalqımız, dövlətimiz tərəfindən qətiyyətlə rədd edilir.**

Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi də yanvarın 18-də Fransa Senatının Fransada fəaliyyət göstərən erməni lobbisi rəhbərlərinin və onların təsiri altında olan Fransa rəsmilərinin və siyasətçilərinin təhriki ilə qəbul etdiyi qətnaməsi ilə əlaqədar bəyanat qəbul edib. Bəyanatda Fransanın davamlı anti-Azərbaycan fəaliyyətini nəzərə alaraq tədbirlərin görülməsi ilə bağlı Azərbaycan hökumətinə çağırış edilib.

### Bütün platformalarda acı məğlubiyyət

Ermənistanın torpaqlarımızı işğal altında saxladığı 30 illik dövr ərzində Fransa həm erməni lobbisinə yalan vədlər verməklə onlardan xeyli pul qoparıb, həm də Qarabağ və Şərqi Zəngəzurda sərvətlərimizin qanunsuz istismarı ilə məşğul olub. Buna görə düz 25 il vasitəçi kimi danışıqların sonsuzadək sürməsi və ya dondurulması yönündə fəaliyyət göstərib.

Lakin müstəmləkəçi Fransanın bu mənfur siyasəti Vətən müharibəsində Azərbaycanın Zəfər çalması ilə iflasa uğradı. Eyni zamanda ölkəmizin 2023-cü ildə suverenliyini təmin etməsi ilə həm Parisin separatizmə uzanan dəstək əli kəsildi, həm də ümumilikdə Fransanın Cənubi Qafqaza yerləşmək siyasəti ömürlük iflasa uğradıldı.

Buna görədir ki, Fransa Azərbaycana qarşı xüsusilə son üç ildir ki, daha aqressiv və qərəzli siyasət yürüdür, hətta bunu təkcə siyasi, diplomatik sahədə yox, mədəniyyət sahəsində də açıq nümayiş etdirir. Görkəmli şairimiz Xurşidbanu Natəvanın Fransadakı heykəlinə qarşı edilən vandallıq hərəkətləri də buna bariz nümunədir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin bəyanatında da bildirilir ki, son illərdə Fransanın siyasi dairələri, o cümlədən Senatı və Milli Assambleyası birbaşa Yelisey Sarayından alınmış təlimat əsasında açıq irqçi, azərbaycanofob və islamofob fəaliyyətini daha da intensivləşdirmiş və beynəlxalq hüquq normalarına və prinsiplərinə açıq hörmətsizlik nümayiş etdirərək Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı ədalətsiz addımlar atmaqda davam edirlər: "Fransa hökumətinin apardığı anti-Azərbaycan siyasəti, o cümlədən Fransa parlamentinin hər iki palatasında ölkəmiz əleyhinə indiyədək qəbul edilmiş qətnamələr ucbatından iki ölkə arasında münasibətlər tarixinin ən aşağı səviyyəsindədir və mahiyyətcə dayandırılmış hesab edilə bilər".

Komitənin bəyanatında o da bildirilir ki, Fransa hökumətinin, eləcə də Senatının və Milli Assambleyasının destruktiv və təxribatçı addımları Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin həyata keçirilməsinin qarşısını almağa və Cənubi Qafqaz regionunda vəziyyəti gərginləşdirməyə xidmət edir.

Ümumiyyətlə, son ayların analizi də göstərir ki, Fransa heç cür Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanmasını istəmir və bu istiqamətdə görülən işlərə maneçilik törətməyə çalışır. Fransanın Ermənistana silah-sursat satması da onun bölgəni yenidən müharibə ocağına çevirmək kimi murdar niyyətindən xəbər verir.

### Fransanın utancverici qanlı tarixi

Azərbaycan mötəbər beynəlxalq tribunalarda XXI əsrdə də neokolonialist siyasət yürüdən Fransanı ifşa edir. Müstəmləkəçi ölkənin qlobal səviyyədə siyasətdə yer almasının, beynəlxalq təşkilatlarda təmsil olunmasının mümkünsüzlüyünü faktlarla ortaya qoyur.

Komitənin bəyanatında da vurğulanır ki, dünyanın müxtəlif bölgələrində 50-dən artıq dövlətin ərazisini işğal etmiş, sərvətlərini talamış, xalqlarını uzun illər əsarətdə saxlamış Fransanın törətdiyi vəhşiliklər, habelə insanlıq əleyhinə cinayətlər, eləcə də müharibə cinayətləri bəşər tarixinin qara səhifələridir. Müstəmləkə illərində Fransa silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini kütləvi surətdə qətlə yetirmişdir. Törədilmiş soyqırımı cinayətləri Fransanın siyasi tarixində silinməsi mümkün olmayan ləkədir.

Fransa bu gün də neokolonialist siyasət həyata keçirir, xalqları əsarətdə saxlayır, onların azadlıq istəklərini boğur, qətllər törədir.

"Fransa parlamentarilərini ilk öncə öz hökumətini müstəmləkəçilik siyasətindən əl çəkməyə və artıq uzun müddətdir ki, müstəqilliyi uğrunda mübarizə aparan Kanaky (Yeni Kaledoniya) və Maohi Nuinin (Fransa Polineziyası) azadlığını təmin etməyə çağıran qətnamə qəbul etməyə dəvət edirik", - deyə komitənin bəyanatında deyilir.

### Fransaya qarşı sanksiyalar tətbiq edilməlidir

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin qəbul etdiyi bəyanatda Fransanın davamlı anti-Azərbaycan fəaliyyətini nəzərə alaraq Azərbaycan hökumətinə aşağıdakı tədbirlərin görülməsi ilə bağlı çağırış edildiyi də öz əksini tapıb.

Sözügedən bəyanatda bununla bağlı bildirilir: Fransaya qarşı sanksiyalar tətbiq olunsun, Fransa rəsmilərinin Azərbaycanda hər hansı aktivləri aşkar edildikdə dondurulsun, Fransa ilə bütün iqtisadi əlaqələr dayandırılsın, "Total" da daxil olmaqla, bütün Fransa şirkətləri Azərbaycandan çıxarılsın, Fransa şirkətlərinin Azərbaycan dövlətinin sifarişi ilə həyata keçirilən hər hansı layihədə iştirakına yol verilməsin.

Bəyanatda o da vurğulanıb ki, Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Kanaky, Maohi Nui və Korsikanın müstəqilliyinin tanınması istiqamətində addımlar atsın.

Göründüyü kimi, tarixi müstəmləkəçilik, xalqların kütləvi qırğını üzərində qurulan Fransa Ermənistanın timsalında qətliamlar, soyqırımlar, terrorlar törədən bir ölkəyə hamilik edərək bu gün də qanlı, islamofob, türkofob, irqçi siyasət yürütdüyünü açıq ortaya qoyur. Üstəlik, Fransanın çox yaxın tarixdə Əlcəzairdə və dünyanın bir çox başqa yerlərində törətdiyi qanlı əməllərinin üstünü ört-basdır edərək, onilliklərboyu erməni qəddarlığı ilə üz-üzə qalan Azərbaycana qarşı xüsusi kin və nifrətlə qərəzli siyasət yürütməsi, yalan ittihamlar səsləndirməsi, qətnamələr qəbul etməsi, yumşaq ifadə etsək, həyasızlıqdan başqa bir şey deyil.




Ancaq müstəmləkəçi Fransanın beynəlxalq hüquqa zidd bütün əməlləri Bakı tərəfindən ifşa olunur, erməni lobbisinin oyuncağına çevrilən Makron hakimiyyətinə layiqli cavab verilərək yerinə otuzdurulur.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Fransaya yerini göstərməyin vaxtıdır

**"Son vaxtlar Fransa Azərbaycana qarşı, demək olar ki, bütün istiqamətlərdə - siyasi, iqtisadi, hərbi, demoqrafik, geosiyasi və mədəniyyət sahələrində çox qərəzli addımlar atır. Fransada fəaliyyət göstərən erməni lobbisi rəhbərlərinin və onların təsiri altında olan siyasətçilərin təhriki ilə Fransa Senatının 2024-cü il yanvarın 17-də qəbul etdiyi qərəzli və birtərəfli qətnamə bir daha göstərdi ki, Azərbaycan onlara layiq olan siyasi cavabı verməlidir. Bu baxımdan Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin Fransa Senatının qətnaməsi ilə bağlı bəyanatı xüsusi əhəmiyyət kəsb edir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat qeyd edib ki, Parisin qərəzli davranışlarının sayı-hesabı yoxdur və o, artıq həddini aşıb: "Xüsusilə Vətən müharibəsində və sentyabrın 19-20-də həyata keçirilən antiterror tədbirlərindən sonra Fransa rəsmi dairələri bu mənada daha çox aktivlik nümayiş etdirirlər. Fransa parlamentinin hər iki palatasında ölkəmiz əleyhinə qərarlar qəbul edilir, BMT, Avropa İttifaqı çərçivəsində keçirilən müxtəlif tədbirlərdə Fransanın qeyri-obyektiv və ədalətsiz təşəbbüsləri müşahidə edilir. Belə davranışlarla Fransa Cənubi Qafqaz regionunda vəziyyəti gərginləşdirir və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına əngəl olur. Həmçinin Ermənistana silah-sursat satmaqla Azərbaycanla sülh sazişinin imzalanması məsələsini kölgə altında saxlayır".

Deputatın dediyinə görə, müharibə vaxtı birmənalı şəkildə Ermənistanı dəstəkləyən Fransa bu gün sülhün bərqərar olmasını qətiyyən istəmir. Bunu atdığı bütün addımlarda sübuta yetirir. Azərbaycan torpaqları işğalda olarkən Fransanın həmin ərazilərdən yararlanması da onun məkrli davranışlarından xəbər verirdi. İndi Fransa vaxtilə etdiyi özbaşınalıqları artıq edə bilmir. Ona görə də yeni reallıqları həzm etmək Ermənistanın "böyük bacısı" üçün çətindir.

Arzu Nağıyev vurğulayıb ki, dünyanın ən müstəmləkəçi ölkələrindən biri olan Fransa bu barədə heç söz də açmır: "Əksinə, hər vəchlə müstəmləkəçilik siyasətini genişləndirməyə çalışır, Ermənistandan da məhz bu çirkin niyyəti üçün sui-istifadə edir. Parisin Afrikada və digər yerlərdə törətdiyi cinayətləri saymaqla bitirmək olmaz. Fransanın adı tarixdə qanlı hadisələrin, böhranların səbəbkarı, eləcə də müstəmləkəçilər siyahısında lider kimi qalacaq".

Deputat söyləyib ki, "Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində Fransa ilə bağlı bəyanatın qəbul edilməsi təqdirəlayiqdir. Biz səlahiyyətlərimizdən yararlanıb onlara qarşı sanksiyalar tətbiq edə bilərik. Yəqin ki, belə də olacaq. Hesab edirik ki, münasibətlərin bu səviyyəsində iqtisadi əlaqələr dayandırıla, Fransanın böyük şirkətləri ölkədən çıxarıla bilər. Həmçinin həyata keçirilən layihələrdə Fransanın iştirakı qadağan oluna bilər. Əgər onlar qondarma qurumu, separatçı yığınını bir dövlət kimi tanımağa çalışırlarsa, Azərbaycan da onların müstəmləkə altında saxladıqları ölkələrin müstəqilliyini tanıya bilər.

Arzu Nağıyev sonda qeyd edib ki, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi Fransanın davamlı anti-Azərbaycan fəaliyyətini nəzərə alaraq, Azərbaycan hökumətinə bir sıra tədbirlərin görülməsi ilə bağlı çağırış edib: "Həmin tədbirlərə Fransaya qarşı sanksiyaların tətbiq edilməsi, Azərbaycanda aktivləri aşkar edilən fransalı rəsmilərin aktivlərinin dondurulması, bütün iqtisadi əlaqələrin dayandırılması, "Total" da daxil olmaqla, bütün Fransa şirkətlərinin Azərbaycandan çıxarılması, Fransa şirkətlərinin Azərbaycan dövlətinin sifarişi ilə həyata keçirilən layihələrdə iştirakına yol verilməməsi və Kanaky, Maohi Nui və Korsikanın müstəqilliyinin tanınması istiqamətində Xarici İşlər Nazirliyi tərəfindən müəyyən addımların atılması daxildir".

*N.QAFARZADƏ,*
*"Azərbaycan"*

## Ermənistanda 5 ildə cinayətkarlıq 20 dəfədən çox artıb

**Hayastanda cinayət hadisələrinin sayında əhəmiyyətli dərəcədə artım baş verib ki, bu da sözügedən ölkənin ümumilikdə cinayətkarlar məskəninə çevrilməkdə olduğunu göstərir.**

Bölgələrdə də cinayətkarlıq səviyyəsi əsas etibarilə mülkiyyət oğurluğu, özgənin əmlakını qanunsuz yolla mənimsəmə və bu qəbildən olan qanunazidd əməllər hesabına çoxalmaqdadır. Məhz bu da iqtisadi problemlərin Hayastan üçün daha bir fəsad yaratdığını, yəni ölkənin kriminogen durumunu xeyli ağırlaşdırdığını təsdiqləyir.

Eyni zamanda ölkə iqtisadiyyatında yaranmış böhranlı vəziyyət, əhalinin əksəriyyətinin yoxsulluğun son həddində yaşaması, işsizliyin tüğyan etməsi və özbaşınalıq halları iş adamlarını bu ölkədən qaçırır.

"4rd.am" nəşri yazıb ki, ağır cinayətlərin sayı hakimiyyət dəyişikliyindən əvvəlki beş ildə 34, hakimiyyət dəyişikliyindən sonrakı beş ildə isə 669 hadisə artıb. Başqa sözlə, xüsusilə təhlükəli cinayət təxminən 20 dəfə artıb. 2023-cü ilin yanvar-noyabr aylarında isə ötən ilin müvafiq dövrü ilə müqayisədə bu cinayətlər 2 dəfə artıb.

Qeyd olunub ki, Hayastanın xarici təhlükəsizliyinə təhdidlərin dərinləşməsi və onların gündəlik təzahürləri bu hakimiyyətin əsas gündəmini təşkil edir: "Saxta "sülh" paketləməsi, dönməz itkiləri olan real müharibələr, milli və dövlət maraqlarının hakimiyyətin dar siyasi və şəxsi maraqlarına tabe edilməsi, yeni müharibəyə rəvac verən təhdidlər. Lakin daxili təhlükəsizliyin artan problemləri və real çağırışları heç də az əhəmiyyət kəsb etmir. Rəsmi statistikaya görə, son beş ildə cinayətlər və cəmiyyətin daxili təhlükəsizlik riskləri kəskin şəkildə artıb.

Bildirilib ki, cinayətlərin ümumi sayında 2013-2017-ci illərdə 10,6 faiz, hakimiyyət dəyişikliyindən sonrakı beş ildə - 2018-2022-ci illərdə isə 66,8 faiz artım qeydə alınıb, yəni artım tempi təxminən 6,3 dəfə olub. Son məlumatlara görə, yüksək artım 2023-cü ilin yanvar-noyabr aylarında da davam edib.

Ağır cinayətlərin sayı hakimiyyət dəyişikliyindən əvvəlki beş ildə 11,7 faiz azalma, hakimiyyət dəyişikliyindən sonrakı beş ildə isə 40 faiz çoxalma qeydə alınıb. Əvvəlki beş ilin yüksək artım tempi 2023-cü ilin yanvar-noyabr aylarında əhəmiyyətli dərəcədə yüksəlib.

Qeyd edilib ki, narkotiklərlə bağlı cinayətlərin sayı hakimiyyət dəyişikliyindən əvvəlki beş ildə, demək olar ki, dəyişməyib, hakimiyyət dəyişikliyindən sonra - 2018-2022-ci illərdə isə 2,6 dəfə artıb. 2023-cü ilin yanvar-noyabr aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici 2,3 dəfə artaraq, müstəqillik əldə etdikdən sonra qeydə alınan illik artım göstəriciləri ilə müqayisədə misilsiz olub. O da əlavə edilib ki, korrupsiya cinayətlərinin sayı hakimiyyət dəyişikliyindən əvvəlki və sonrakı beş ildə bir-birinə kifayət qədər yaxındır, baxmayaraq



ki, hazırkı hakimiyyət korrupsiyaya qarşı mübarizəni özünün prioriteti və əsas şüarı kimi elan edir. Görünən odur ki, hər il Hayastan vətəndaşlarının yaşayışı ötənilkindən daha ağır olur.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

Prezidentliyə namizədlərin ödənişsiz təşviqat materialları

# QALİB XALQIN QALİB LİDERİ!

## Yeni Azərbaycan Partiyası seçkiqabağı təşviqat kampaniyasını uğurla davam etdirir








2024-cü il fevralın 7-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar seçki qanunvericiliyinə uyğun olaraq yanvarın 15-dən etibarən seçkiqabağı təşviqat mərhələsi başlanıb.

Prezident seçkilərinə "Qalib xalqın Qalib Lideri!" şüarı ilə gedən Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası mütəşəkkil qaydada davam edir. Kampaniya çərçivəsində respublikamızın bütün bölgələrində, o cümlədən işğaldan azad edilmiş ərazilərimizdə seçki qanunvericiliyinə uyğun olaraq keçirilən görüşlərdə seçicilər böyük ruh yüksəkliyi və coşğu ilə iştirak edirlər. Görüşlər zamanı Yeni Azərbaycan Partiyasının təşviqat qruplarının üzvləri Azərbaycanın keçdiyi möhtəşəm inkişaf yolu, xüsusilə son 20 ildə Heydər Əliyev siyasi kursunun Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində qazanılan nailiyyətlər barədə geniş məlumatlar verir, uğurların davamlılığının təmin olunmasını şərtləndirən amillərdən bəhs edirlər.

Görüşlərdə vurğulanır ki, Yeni Azərbaycan Partiyasının prezident seçkilərində cənab İlham Əliyevin namizədliyini irəli sürməsi xalqımızın istək və arzularından irəli gəlir. Bu gün hər bir Azərbaycan vətəndaşı bilir ki, ölkəmizin əzəmətli inkişafı Heydər Əliyev ideyaları, Ümummilli Liderin siyasi varisi, Prezident, YAP Sədri İlham Əliyevin siyasəti ilə bağlıdır. Cənab İlham Əliyev ötən müddət ərzində öz fəaliyyəti ilə hər bir azərbaycanlının Prezidenti olduğunu təsdiq edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il ərzində Azərbaycan zəngin və şərəfli inkişaf yolu keçib, tarixi nailiyyətlər qazanıb. Dövlətimizin qüdrəti artıb, ölkənin siması bütünlüklə dəyişib, insanların həyat səviyyəsi yüksəlib. Cənab İlham Əliyevin 2003-cü ildə verdiyi bütün vədlər real həyatda öz təsdiqini tapıb.










Görüşlərdə həmçinin Prezident İlham Əliyevin beynəlxalq müstəvidə də uğurlu siyasətinin əhəmiyyətindən və nəticələrindən bəhs olunur. Vurğulanır ki, dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən çoxvektorlu xarici siyasət nəticəsində Azərbaycan regionun ən güclü dövlətinə çevrilib. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə sədrlik etməsi və digər bu kimi faktlar müasir ölkəmizin beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir.

Seçicilərlə görüşlərdə dövlətimizin başçısının uzaqgörən, prinsipial və milli maraqlara əsaslanan siyasəti nəticəsində qarşıda duran ən ümdə vəzifənin yerinə yetirilməsinə - ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa edilməsinə nail olunduğu xüsusi vurğulanır. Qürur hissi ilə qeyd edilir ki, Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və ordumuzun gücü nəticəsində möhtəşəm Zəfərlə sona çatdı. Əgər üç il bundan əvvəl Vətən müharibəsi nəticəsində biz işğala son qoymuşduqsa, ötən il sentyabrın 20-də ordumuzun Qarabağda lokal xarakterli antiterror tədbirləri nəticəsində suverenliyimizi tam təmin etdik. Bu, çoxəsrlik dövlətçilik tariximizin ən parlaq səhifəsidir.

Təşviqat kampaniyası çərçivəsində keçirilən görüşlərdə işğaldan azad olunmuş ərazilərimizin bərpası istiqamətində ardıcıl tədbirlər həyata keçirildiyi, Böyük qayıdışın gerçəkliyə çevrildiyi fəxarətlə diqqətə çatdırılır. Tarixi Zəfər nəticəsində yaranmış yeni reallıqlar Qarabağın və Şərqi Zəngəzurun cənnətə çevriləcəyini əminliklə söyləməyə əsas verir.

Görüşlərdə diqqətə çatdırılır ki, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa olunması 7 fevral prezident seçkilərinin keçirilməsini şərtləndirən mühüm amildir. Çünki Azərbaycanın konstitusiya quruluşunun bərpası müasir tariximizdə yeni dövrün başlanğıcı hesab olunur. Əlamətdar haldır ki, müstəqil Azərbaycan tarixində seçkilər ilk dəfə bütün ölkə ərazisində keçiriləcək. Ona görə də bu seçkilər Zəfər seçkisi kimi dəyərləndirilir. Yeni dövrdə qarşıda mühüm strateji hədəflər dayanır və onlara çatmaq üçün seçicilər 7 fevralda fəal olmağa və qalib Lider İlham Əliyevə səs verməyə dəvət olunur.

Təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyasının nümayəndələri çoxsaylı tədbirlərlə yanaşı, seçiciləri, xüsusilə də şəhid ailələrini, qaziləri və müharibə iştirakçılarını ziyarət edirlər.

Görüşlər zamanı çıxış edən seçicilər də 2003-cü ildən sonra inkişafın yeni mərhələsinə qədəm qoyan Azərbaycanın ötən 20 ildə keçdiyi yolun qürurverici olduğunu vurğulayırlar. Belə bir əminlik ifadə edilir ki, qarşıdakı dövrdə də Prezident İlham Əliyevin liderliyi ilə ərazi bütövlüyünü bərpa etmiş Azərbaycan çoxsaylı nailiyyətlər qazanacaq. Yeni hədəflərə, yeni-yeni zəfərlərə yalnız Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə müvəffəq olmaq mümkündür. Ona görə də seçicilər 7 fevral seçkilərində müstəqil Azərbaycana Zəfər sevinci yaşadan, xalqımızı qələbələrdən qələbələrə aparan qalib Lider - Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevə səs verəcəklərini qətiyyətlə vurğulayırlar!

## Prezidentliyə namizəd Fazil Mustafanın seçicilərlə ilk görüş - toplantısı baş tutdu







Fevralın 7-də keçiriləcək prezident seçkilərində iştirak edəcək prezidentliyə namizədlərin seçkiqabağı təşviqat kampaniyasına start verilib.

Seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Böyük Quruluş Partiyasından prezidentliyə namizəd Fazil Mustafanın seçicilərlə ilk görüş - toplantısı baş tutub. Seçicilərlə görüş Sabunçu qəsəbəsi, Ə.Məmmədəliyev küçəsi 2 ünvanında yerləşən "Abşeron Yüksək Gərginlikli Elektrik Şəbəkəsi" MMC-nin akt zalında keçirilib.

İzdihamlı keçən görüşdə prezidentliyə namizəd Fazil Mustafa Sabunçu qəsəbəsində yaşayan seçicilərə göstərdikləri fəallıqlarına görə təşəkkür edib. Yüksək əhvali-ruhiyyə ilə keçirilən görüşdə F.Mustafa seçici məmnuniyyətinin fəaliyyəti dövründə həmişə onun üçün prioritet olduğunu qeyd edərək, budəfəki seçki platformasında da ənənəsinə sadiq qalacağını bildirib. Sabunçu qəsəbəsində yaşayan seçicilərlə görüşdə prezidentliyə namizəd Fazil Mustafanı vəkil Oqtay Qasımov müşayiət edib.

## Sumqayıtda möhtəşəm görüş keçirilib



Böyük Quruluş Partiyasından prezidentliyə namizəd Fazil Mustafanın seçkiqabağı təbliğat, təşviqat kampaniyası davam edir.

F.Mustafa növbəti görüşünü Sumqayıt şəhərində keçirib. Möhtəşəm və izdihamlı keçirilən görüşdə prezidentliyə namizəd öncə seçiciləri seçki platformasının əsas istiqamətləri ilə tanış edib. O, ölkədə bir çox sahədə, o cümlədən təhsil, mədəniyyət, səhiyyə, hüquq sahələrində təxirəsalınmaz islahatların aparılmasının zəruriliyini vurğulayıb. O, qeyd edib ki, seçicilərin etimadını qazanacağı təqdirdə ilk növbədə sözügedən sahədə islahatların həyata keçirilməsinə nail olacaq.

Daha sonra Fazil Mustafa seçicilərin suallarını cavablayıb.



## Razi Nurullayev Binəqədi seçiciləriylə görüşüb





Milli Cəbhə Partiyasının (MCP) sədri, deputat, prezidentliyə namizəd Razi Nurullayev Binəqədidə seçicilərlə görüşüb. Görüşdə Razi Nurullayev "Sosial ədalət, sosial demokratiya" şüarlı platformasına dair geniş məlumat verib, mövcud sosial-iqtisadi problemlərə toxunub, bu problemlərin həlli yollarından danışıb. Sonda prezidentliyə namizəd seçicilərin suallarını cavablandırıb.





## Razi Nurullayev bir qrup İmişli sakiniylə görüşüb

Milli Cəbhə Partiyasının (MCP) sədri, deputat, prezidentliyə namizəd Razi Nurullayev İmişlidə bir qrup seçici ilə ayaqüstü görüşüb. Namizəd görüşün çox həyəcanlı və mənalı keçdiyini bildirib. Razi Nurullayev İmişli seçicilərinin ona güvəndiyini deyib. Rayon sakinlərinə müraciət edən namizəd "Bilirəm ki, İmişli camaatı mənə inanır. Sağ olun, var olun. Sizinlə irəlidə əzəmətli görüş keçirəcəyik ki, səsindən qulaqlar tutulsun", - deyə bildirib.



# 7 FEVRAL PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR

## Xalq doğru və müdrik seçimini edəcək



"Fevralın 7-də ölkəmizin ictimai-siyasi həyatında çox əlamətdar hadisəyə şahidlik edəcəyik. Azərbaycan vətəndaşları səbirsizliklə gözlədikləri tarixi gündə fəal iştirak edəcək, öz layiqli namizədlərinə səs verəcəklər. Növbədənkənar prezident seçkilərinin keçirilməsi qərarı sanki çoxdan gözlənilmiş xəbər kimi xalqımızı razı saldı. Bunun nəticəsidir ki, müvafiq sərəncamdan sonra mediada çox böyük minnətdarlıq hissi ilə yazılmış şərhlər oxuyuruq. Budəfəki seçkilərin Zəfər seçkisi olması da bu baxımdan xüsusi əhəmiyyət kəsb edir".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Məlahət İbrahimqızı deyib. Deputat bildirib ki, seçkilərin ilk dəfə ölkəmizin bütün ərazilərində keçirilməsi barədə qərar xalqımızın hər bir nümayəndəsini sevindirir. Son 200 illik dünya tarixində hələ heç bir dövlət uzun illər düşmən tapdağında qalmış torpaqlarını işğaldan azad edə bilməyib. Bu, dövlətimizin uğurlu xarici siyasəti, düşünülmüş siyasi gedişləri hesabına baş verib. Ona görə də seçkilərdə fəal iştirak edərək layiqli namizədə səs vermək hər birimizin mənəvi vətəndaşlıq borcudur.

Məlahət İbrahimqızı deyib ki, növbədənkənar prezident seçkiləri Zəfər seçkisi olmaqla, dünyanın müxtəlif ölkələrində baş tutmuş hansısa seçkilərlə müqayisə oluna bilməz: "Azərbaycan demokratik seçkilər keçirməyə qadirdir. Elə ilkin prosedurlardan da görünür ki, bütün proses demokratik və şəffaf aparılır. Ümumiyyətlə, bütün dünyaya məlumdur ki, Azərbaycan demokratik dəyərlərə, humanizm və ədalətlilik prinsiplərinə hər zaman sadiqdir. Bunu həm daxili, həm də xarici siyasəti ilə bağlı atdığı bütün addımlarında sübuta yetirir".

Deputatın sözlərinə görə, bu seçkilərdə 7 namizədin hər birinə bərabər imkanlar yaradılacaq: "Seçkidə iştirak etmək hüququna sahib olan Azərbaycan vətəndaşı siyasi iradəsini sərbəst formada ifadə edərək, öz namizədinə səs vermək imkanına malik olacaq. Ümid edirik, xalqımızın doğru seçimi bizi daha işıqlı sabahlara aparacaq. Fevralın 7-dən sonra hələ çox uğurlu addımlar atacağıq, qazandığımız zəfərlərin bizə bəxş etdiyi üstünlükləri daha çox dadacağıq".

Məlahət İbrahimqızı seçki prosesi barədə də məlumat verib. Deyib ki, Konstitusiyanın müvafiq maddələrinə müvafiq olaraq, vətəndaşlarımızın cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak, dövlətin idarə olunmasında iştirak və dövlət orqanlarına seçmək və seçilmək hüququna təminat verilir. Konstitusiyada təsbit edilmiş bu hüquqları gözləmək və qorumaq üçün bütün aidiyyəti orqanlar səfərbər edilib. Yəni növbədənkənar prezident seçkilərinin hazırlanması və keçirilməsi, səslərin hesablanması, səsvermənin yekunlarının, seçkilərin nəticələrinin müəyyən edilməsinin açıq və aşkar həyata keçirilməsi üçün heç bir maneə yoxdur.

Deputat yekunda qeyd edib ki, Azərbaycan xalqı müdrik, qətiyyətli və cəsarətlidir. Hər zaman seçim məqamı yetişəndə doğru qərar verməyi bacarıb. İnanırıq ki, xalqımızın taleyi yenə etibarlı əllərə həvalə olunacaq".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

## Gənclər bu seçkilərin də ən fəal iştirakçıları olacaqlar

44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi və ötən ilin sentyabrındakı antiterror əməliyyatları nəticəsində Qarabağda erməni separatizminə birdəfəlik son qoyulması Azərbaycanın müasir dövlətçiliyinin ən əlamətdar hadisələrinə çevrilməklə yanaşı, tariximizdə və respublikamızın bundan sonrakı inkişafında tamamilə yeni mərhələnin başlanğıcı oldu.

Növbədənkənar prezident seçkilərinin elan edilməsi torpaqlarımızın azadlığı kimi milli prioritetin qətiyyətlə reallaşması və Azərbaycanın yeni tarixi dövrə qədəm qoyması ilə əlaqədar qəbul olunan siyasi qərardır.

Qürur hissi ilə qeyd etməliyik ki, Azərbaycan artıq uzun müddətdir özünün müasir dövlətçilik tarixinin ən qüdrətli mərhələsini yaşayır. Ötən 20 ildə keçdiyimiz dinamik inkişaf yolundan, tam iqtisadi müstəqilliyimizin təmin olunmasından başlamış respublikamızın beynəlxalq mövqelərinin daha da möhkəmlənməsinə, qlobal nüfuzunun yüksəlməsinə qədər nail olduğumuz hər bir möhtəşəm uğur bu reallığı təsdiq edən mühüm siyasi-iqtisadi faktorlardır. Ərazi bütövlüyümüzün tam bərpa edilməsi, respublikamızın hər yerində konstitusiya quruluşunun bərqərar olunması, 200 illik dövrdə bütün faciələrimizin səbəbi olmuş erməni separatizminin məhv edilməsi isə bu nailiyyətlərimizin zirvə nöqtəsidir. Bununla da xalqımız tariximizin torpaqlarımızın azadlığı uğrunda mübarizə mərhələsini, habelə yüksəlişinin parlaq qələbələr və uğurlarla zəngin bir dövrünü layiqincə başa vurdu.

Qarşıda isə dövlət və xalq olaraq bizi yeni inkişaf hədəfləri gözləyir. Yeni milli prioritetlərə doğru ilkin siyasi addımlardan birincisinin məhz prezident seçkiləri olması tamamilə məntiqlidir. Çünki respublikamızda seçkilər təqvim ardıcıllığına uyğun olaraq öz vaxtında keçirilməli olsaydı, qədəm qoyduğumuz yeni dövrün ilk seçkisi bu ilin sonunda keçiriləcək bələdiyyə seçkiləri olacaqdı. Lakin yeni dövrə qədəm qoyarkən ilk seçkinin prezident seçkiləri olması daha doğru və daha müdrik siyasi başlanğıcdır. Geridə qoyduğumuz 20 illik mərhələyə də elə bu prezident seçkiləri ilə yekun vurulacaq.

Seçkilərin növbədənkənar keçirilməsinə gəldikdə isə, bütün dünyada qəbul olunmuş bu siyasi təcrübə ölkəmizdə də hüquqi norma kimi təsbit olunub. Seçkilər növbədənkənar keçiriləndə sadəcə seçicilər öz siyasi iradələrini vaxtından əvvəl ifadə edirlər. Azərbaycan qanunvericiliyi növbəti prezident seçkilərinin keçirilməsi ilə növbədənkənar prezident seçkilərinin keçirilməsi arasında hər hansı hüquqi prosedur, yaxud müddət fərqi müəyyən etmir.

Növbədənkənar prezident seçkilərinə 20 günə yaxın müddət qalır. Ötən aydan başlanmış seçki kampaniyasının bir neçə mərhələsi artıq arxada qalıb. Mərkəzi Seçki Komissiyası 7 nəfər namizədin seçkilərdə iştirakını təsdiq edib. MSK-nın təqvim planına əsasən, yanvarın 15-dən etibarən namizədlərin seçkiqabağı təşviqat mərhələsi başlayıb. Gedişat göstərir ki, təşviqat mərhələsində bütün namizədlər üçün bərabər şərait yaradılıb. Hər bir namizəd, namizədin səlahiyyətli nümayəndələri və vəkilləri istər kütləvi-informasiya vasitələrində, istər açıq və qapalı məkanlarda, istərsə də qanunvericiliklə təsbit olunmuş bütün formalarda təşviqatla məşğul ola bilərlər.

Bütün bunlar ilk növbədə Azərbaycanda bərqərar olunmuş demokratik seçki mühitindən xəbər verir. Bu baxımdan qarşıdan gələn prezident seçkiləri Azərbaycanın demokratik inkişafının növbəti təntənəsinə çevriləcək.

Naxçıvan Muxtar Respublikasında da prezident seçkiləri kampaniyası qanunvericiliyə uyğun davam edir. Seçki komissiyalarının üzvlərinin ilik və bacarıq səviyyələrinin yüksəldilməsi, vətəndaşların seçki hüquqlarının təmin edilməsi, ilk dəfə səs verəcək gənc seçicilərin maarifləndirilməsi, onlara hüquq və vəzifələrinin izah edilməsi ilə bağlı müxtəlif tədbirlər təşkil olunur. Bu sırada Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı ilə seçki könüllülərinin ilk dəfə səs verəcək gənclərlə görüşlərini xüsusi qeyd etməliyik. "Gəncin səsi, Gələcəyin səsi!" şüarı altında keçirilən görüşlərdə məqsəd ilk dəfə səs verəcək gənclərə onların hüquq və vəzifələrini izah etmək, seçki prosesində iştirak üçün lazım olan prosedur qaydaları barədə ətraflı məlumat vermək və bütün gəncləri seçkidə iştirakçılığa səsləməkdir. Belə görüşlər çərçivəsində maarifləndirmə sessiyaları ilə yanaşı, gənclərin asudə vaxtlarının səmərəli və əyləncəli təşkil edilməsi məqsədilə onların maraqlarını əhatə edəcək müxtəlif mövzularda kvestlər, komanda quruculuğu və şəbəkələşmə oyunları həyata keçirilir.



Ümumiyyətlə isə, muxtar respublikada seçkilərin yüksək səviyyədə təşkil olunması, azad, ədalətli və şəffaf keçirilməsi yönündə hər bir şərait tam təmin edilib. Bütün seçki məntəqələri lazımi texniki və metodiki vəsaitlərlə təchiz olunub. Seçki məntəqələrində seçicilərin rahat, sərbəst, şəffaf şəraitdə səs vermələri, müşahidələrin aparılması üçün hər cür şərait yaradılıb. Məntəqələrdə quraşdırılmış müşahidə kameraları vasitəsilə seçki prosesini canlı izləmək mümkün olacaq.

Əsrlərdir məhrumiyyətlərə, əsarətə, torpaq itkilərinə düçar olmuş bir toplumdan artıq müzəffər xalqa çevrilmişik. Ona görə qarşıdan gələn prezident seçkiləri bir neçə mühüm tarixi məqamla əlamətdardır. Belə ki, bu seçkilər torpaqlarımızın tam azadlığı şəraitində keçiriləcək. Bu seçkilər müstəqillik dövründə ilk dəfə olaraq Azərbaycanın bütün ərazilərində baş tutacaq. Olduqca qürurvericidir ki, biz bu seçkiyə qalib xalq kimi gedirik.

Torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün təmin edilməsi ilə yeni reallıqlar yaranıb və qarşıda bizi həyata keçirməli olduğumuz yeni milli prioritetlər gözləyir. Qarabağ və Şərqi Zəngəzurun bərpası, yüz minlərlə soydaşımızın öz doğma yurdlarına qayıdışı, yeni iqtisadi və sosial inkişaf göstəricilərinə nail olunması, sabitliyin və təhlükəsizliyin davamlılığının qorunması kimi hədəflərimiz, böyük planlarımız var. Habelə qarşıdakı illərdə yeni islahatlara start veriləcək. Bu mənada fevralın 7-nə təyin olunmuş növbədənkənar prezident seçkiləri xüsusi əhəmiyyətə malikdir.

Bütün tarixi proseslərdə, siyasi hadisələrdə doğru qərarlar verən xalqımız qarşıdan gələn prezident seçkilərində də müdrik seçimini edəcək. Bu seçkidə xalqımız özünün firavan və təhlükəsiz gələcəyinə, indiyə qədər əldə edilmiş uğurların, Azərbaycanın yüksəlişinin yeni dövrdə də davamına və yeni zəfərlərə səs verəcək. O cümlədən hər zaman seçkilərdə yüksək fəallıq nümayiş etdirmiş, doğru seçim etmiş Naxçıvan seçiciləri də ən layiqli namizədi dəstəkləyəcəklər.

**Cəbi QULİYEV,**
***Milli Məclisin deputatı***

## Bütün namizədlər üçün bərabər imkanlar təmin edilib

Fevralın 7-nə təyin olunmuş prezident seçkilərinin təbliğat-təşviqat mərhələsi başlayıb. Yeddi namizədin mübarizə apardığı bu seçkidə hər bir siyasi partiyaya, namizədə, seçiciyə və seçki kampaniyasının digər iştirakçılarına ədalətli və bərabər imkanlar yaradılıb.



Mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib ki, 2023-cü il dekabrın 7-də müvafiq sərəncamla ölkədə növbədənkənar prezident seçkiləri elan edildi və proses 2024-cü il fevralın 7-nə təyin olundu. Müharibədə qələbəmiz və suveren haqlarımızın tam bərpası qarşıya qoyulan missiyaların ləyaqətlə tamamlandığını göstərdi. Eyni zamanda hazırkı reallıq məhz bu uğurlara əsaslanan nəticələrin davamlılığını diktə edən yeni şərtləri meydana çıxardı. Bu mənada fevralın 7-də prezident seçkilərinin keçirilməsi inkişafın yeni hədəflərə uyğun tempdə davamlılığını təmin etmək üçün tarixi zərurətdir.

Deputatın sözlərinə görə, artıq Seçki Məcəlləsinin tələblərinə müvafiq olaraq, prezidentliyə namizədin irəli sürülməsi, onun müdafiəsi üçün imza toplanması və qeydə alınma prosesləri uğurla realizə olunub: "Proseslərin gedişi bir daha sübut edir ki, Azərbaycanda qanun çərçivəsində namizədlərə bərabər münasibət təmin edilir. Həmçinin qanun əsasında seçicilərə, seçki hərəkətlərinin həyata keçirilməsində iştirak etmək hüququ olan şəxslərə sənədlərlə və məlumatlarla tanış olmaq üçün hər bir şərait yaradılıb, birmənalı və aydın anlaşılmaqla müntəzəm xarakterli kommunikasiya imkanı təmin olunub".

Bəhruz Məhərrəmov əlavə edib ki, seçicilərin seçkilərdə iştirakı üçün imkan dairəsində bütün tədbirlər öncədən görülüb və görülməkdədir. Eyni zamanda inklüzivliyin təminatı üçün həssas təbəqədən olan şəxslərin, habelə uzaq və ya yolu çətin keçilən yerlərdə yaşayan seçicilərin seçkilərdə iştirakı üçün bütün imkanlar yaradılıb. Seçicilər, namizədlər, qeydə alınmış namizədlər, siyasi partiyalar və müşahidəçilər üçün Konstitusiyanın 57-ci maddəsinə və Seçki Məcəlləsinin 16-cı fəslinə müvafiq olaraq, istənilən pozuntu ilə bağlı işlək, aşkar, səmərəli və əlçatan şikayət mexanizmləri mövcuddur.

Deputat vurğulayıb ki, Azərbaycan vətəndaşı seçimində sərbəstdir: "Vətəndaşların sərbəst iradə ifadəsi üçün siyasi-hüquqi bazis, o cümlədən faktiki şərait mövcuddur. İndi yeganə vəzifə vətəndaşlıq öhdəliyinə sadiq qalaraq seçki aktivliyini təmin etməkdir. Unutmamalıyıq ki, hazırkı situasiyada seçkidə aktivlik milli maraqlar, dövlətçilik məfkurəsi fonunda qiymətləndirilməlidir. Çünki cəmi 30 il əvvəl parçalanmaqda olan Azərbaycan bu gün işğala, təcavüzə, separatizmə son qoymuş və faktiki olaraq Orta Asiyanın, Şərqi və Cənubi Avropanın, Balkanların enerji təhlükəsizliyinin, həm də milli təhlükəsizliyinin qarantına çevrilmişdir. Eyni zamanda Qərb neoimperializmini regionda aciz duruma düşürmüş hərbi-siyasi gücdür".

Bəhruz Məhərrəmov yekunda qeyd edib ki, Zəfərin davamlılığı, inkişafın dayanıqlılığı naminə xalqımızın səsi və iradəsi layiqli təmsilçinin seçilməsinə gətirib çıxaracaq.

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

## Tərtərin hər yerində seçki əhvalı hökm sürür

Müqəddəs Vətən savaşında faşist xislətli Ermənistan silahlı qüvvələrinin hücumlarına daha çox məruz qalan, eyni zamanda yenilməz iradəsi, dövlətə, xalqa, vətənə sonsuz məhəbbətdən qaynaqlanan mübarizə əzmi ilə düşmənə layiqli cavab verən Tərtərdə bu gün seçki ruhu hökm sürür və bu, səbəbsiz deyil.



Təkcə bir faktı xatırladaq: 44 günlük müharibədə Tərtərin şəhər və kəndlərinə təxminən 16 min top mərmisi və müxtəlif tipli raketlər atılmışdır. Çox sayda evlər, xəstəxanalar, məktəblər, uşaq bağçaları dağıdılmışdır. Amma məqsədi, amalı xalqa xidmət olan qüdrətli dövlətimizin dəstəyi ilə təxirəsalınmaz tədbirlər görülmüş, dağılan evlər, sosial infrastruktur ən qısa zamanda bərpa edilmişdir. Bu gün Tərtərdə müharibədən zərər çəkmiş istənilən evin qapısını döysən, onların təhlükəsizliyinə etibarlı qarant olan dövlətin ünvanına deyilən böyük minnətdarlığın, səmimi ehtiramın şahidi olarsan. O üzdən qəhrəman elin qədirbilən övladları qarşıdakı prezident seçkilərinə zamanın reallıqlarından qaynaqlanan aydın fikirlə, yüksək əhvalla gedirlər.

Tərtər rayon sakini, Əməkdar müəllim İlham Məmmədovun dedikləri bu baxımdan qeyd etdiyimiz fikirlərlə səsləşir:

- Doğma Azərbaycanımızın taleyi məhz bizim fəallığımızdan və birliyimizdən asılıdır. Düşünürəm ki, seçkiqabağı günlərdə hər birimiz yaxın tarixə bir daha nəzər salmalı, günümüzün reallıqları fonunda öz seçimimizi müəyyənləşdirməliyik. Nankor qonşularımızın xəyanətlərini, bizə qarşı apardıqları ədalətsiz müharibəni, 30 il ərzində ərazilərimizin 20 faizini işğal altında saxladıqlarını, bu səbəbdən yaranan 1 milyonluq qaçqın və məcburi köçkün soydaşlarımızın yaşadıqları məhrumiyyətləri unutmağa haqqımız yoxdur. Eyni zamanda sadalanan bu bəlalara son qoyan, xilaskarlıq missiyasını şərəflə reallaşdırıb ərazi bütövlüyümüzü təmin edən, Xankəndidə üçrəngli bayrağımızı dalğalandıran ordumuzun, onun Ali Baş Komandanının vətən və xalq qarşısındakı tarixi xidmətlərini unutmaq mümkün deyil. Bizi məğlub durumdan gerçək bir qalibə çevirən həm də xalqın birliyi oldu.

Müharibənin vurduğu yaraları sağalan Tərtər indi abad görkəmi ilə üzə gülür. Hər yanda səliqə-sahman hiss olunur. 7 fevral prezident seçkilərinə çağıran plakat və şüarlar diqqət çəkir. Şəhərin mərkəzi hissəsində yerləşən 97 saylı Seçki Dairəsi Tərtər, Naftalan və Goranboy rayonlarının müxtəlif yaşayış məntəqələrini əhatə edir. Dairə seçki komissiyasının sədri Həmid Mehdiyevlə həmsöhbət oluruq.

- Prezident seçkilərinin son dərəcə məsul bir siyasi kampaniya olduğu hər kəsə məlumdur. Biz Dairə Seçki Komissiyası olaraq üzərimizə düşən məsuliyyəti dərk edirik. Odur ki, seçkilərin demokratik və şəffaf keçirilməsini təmin etmək üçün bizdən asılı olan hər bir tədbiri yüksək səviyyədə yerinə yetirməyə çalışırıq. Artıq beynəlxalq müşahidəçilər də yerlərdə hazırlıq işləri ilə tanış olmaq üçün bölgələrə səfər edirlər. Yanvarın 15-də ATƏT-in təmsilçiləri Varela Serra Ella və Speldel Yuergen bizim dairədə oldular. Görülmüş hazırlıq işlərindən razı qaldıqlarını bildirdilər. Eyni zamanda müxtəlif məsləhət və tövsiyələr də verdilər.

Həmid Mehdiyevdən öyrəndik ki, dairə 59 məntəqəni əhatə edir. Məntəqələrin 48-i Tərtərdə, 5-i Naftalanda, 4-ü Goranboyda, 1-i Ağdərədə, 1-i isə Suqovuşandadır. Ümumi seçici sayı 52.556 nəfərdir. Bu seçkilərdə 1.402 nəfər ilk dəfə səs verəcək. Məntəqə seçki komissiyalarının üzvlərini təlimatlandırmaq üçün yaxın günlərdə dairədə treninqlərə start veriləcək.

Qışın bu qarlı, şaxtalı günlərində Tərtərdə yaz havası duyulur. Onu qarşıdakı seçkilərdə vətənin bütövlüyünə, böyük Zəfərə, milli birliyə səs verəcəyini qət edən tərtərlilərin hərarəti yaradır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Neftçala seçkilərə yeni nailiyyətlərlə gedir

Neftçalada aparılan tikinti-quruculuq, abadlıq işləri bir gün də səngimir. Əsaslı şəkildə təmir edilən yollar, səhiyyə ocaqları, məktəb binaları, işə salınan müəssisələr rayonun sosial-iqtisadi inkişafının davamlı olmasından xəbər verir.

2023-cü ilin aprel ayında Neftçala Olimpiya İdman Kompleksinin açılışı oldu. Əvvəllər yüksək dərəcəli idmançıları ilə fərqlənən rayonun gənclərinə bu, ən böyük hədiyyə idi. Hazırda kompleksdə idmanın müxtəlif növləri üzrə onlarca gənc və yeniyetmə sistemli şəkildə məşqlər edir. Bununla onlar asudə vaxtlarını səmərəli keçirməklə bərabər, rayonun idman sahəsindəki keçmiş şöhrətini qaytarmaq əzmində olduqlarını da göstərirlər.

Bu günlər neftçalalıların həyatında daha bir mühüm hadisə baş verdi. Neftçala şəhərinin içməli su təchizatı sistemləri istismara verildi. Bu layihə 2035-ci iləcən perspektiv inkişaf nəzərə alınmaqla 89 min nəfər əhalinin içməli su təchizatının yaxşılaşdırılmasına hesablanmışdır. Artıq layihə çərçivəsində Şirvan-Muğan qrup su kəmərindən Neftçala şəhərinə qədər uzunluğu 40 kilometr olan birinci magistral su kəməri çəkilmiş və Salyan şəhəri yaxınlığında 7500 kubmetr su tutumu olan anbar inşa edilmişdir. İlkin mərhələdə - 2020-ci ildə Neftçala şəhərinə içməli su verilmişdir. 2023-cü ildə isə rayonun qəsəbə və kəndlərinə xidmət edən 36 kilometrlik ikinci magistral su kəmərinin tikintisi yekunlaşmışdır. Paralel olaraq Neftçala şəhərində ümumi uzunluğu 150 kilometr olan içməli su təchizatı şəbəkəsi inşa edilmiş və 5060 sayğac quraşdırılmışdır. Layihə çərçivəsində uzunluğu 9,6 kilometr kanalizasiya kollektoru və nasos stansiyası da inşa edilmişdir. Neftçala şəhəri ilə yanaşı, rayonun içməli sudan korluq çəkən 39 yaşayış məntəqəsinin də problemi həll edilmişdir. Digər kəndlərin su təminatını yaxşılaşdırmaq üçün isə layihələndirmə işləri aparılmışdır. Eyni zamanda rayonda nərə cinsli balıqların yetişdirilməsi üçün yeni müəssisələrin yaradılması, kənd təsərrüfatının daha da inkişaf etdirilməsi sahəsində mühüm işlər görülmüşdür. Bütün bu və rayonun sosial-iqtisadi inkişafını göstərən onlarca digər yeniliklər kifayət edir ki, neftçalalılar 7 fevral prezident seçkilərinə yüksək əhvalla getsinlər.



70 saylı Neftçala Seçki Dairəsi (DSK) üzrə 48 məntəqə var. Onlardan 7-si yeni yaradılmışdır. DSK üzrə 51 min 462 nəfər seçici qeydə alınmışdır. Qeydə alınmış müşahidəçlərin sayı isə 300-dən çoxdur.

DSK-nın sədri Ülvi Məmmədzadə dedi ki, məntəqə üzvləri üçün maarifləndirici treninqlər keçirilmişdir. Rayon icra hakimiyyəti başçısının sərəncamı ilə namizədlərin seçicilərlə görüşlərinin keçirilməsi üçün qapalı və açıq şəraitdə yerlər də ayrılmışdır. Həmçinin məntəqə seçki komissiyalarının yerləşdiyi binaların ərazisindəki təşviqat lövhələrində prezidentliyə namizədlərin şəkilləri və onların haqqında məlumatlar öz əksini tapmışdır.

11 saylı seçki məntəqəsi Suvarma Sistemləri İdarəsinin inzibati binasının birinci mərtəbəsində yerləşir. Məntəqənin sədri Təbriz Eyyubov bildirdi ki, təxminən 1312 nəfər seçicini qeydə almışlar. Məntəqədə texniki işlər artıq yekunlaşmışdır. Məntəqə telefonlaşmış, alternativ işıq mənbəyi olan generator, seyf, yanğınsöndürmə balonu, daşınan və daşınmaz səsvermə qutuları və s. lazımi avadanlıqlar da gətirilmişdir. Müşahidəçilər üçün xüsusi yerlər hazırlanmış, divarda məlumat lövhəsi asılmışdır.

Ümumiyyətlə, Neftçalada ölkəmizin həyatında mühüm hadisə olan 7 fevral növbədənkənar prezident seçkilərinə hazırlıq işləri yüksək səviyyədə gedir. Məqsəd seçicilərin həmin gün məntəqələrə gəlib sərbəst şəkildə səs vermələrinə nümunəvi şərait yaratmaqdır.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Seçkilərdən seçkilərə

# İqtisadi islahatların innovativ idarəetmə modeli

**8 il əvvəl ölkədə aparılan iqtisadi islahatların əhatə dairəsinin genişləndirilməsini və bu sahədə işlərin səmərəli əlaqələndirilməsini təmin etmək məqsədilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) təsis olundu. Bu illər ərzində İİTKM beynəlxalq təcrübədə geniş yayılmış "beyin və əməl" mərkəzi (think and do tank) kimi işini qurdu. Hazırda iqtisadi islahatların real vaxt rejimində idarə edilməsi ölkədə strateji idarəetmənin tərkib elementinə çevrilib. 2023-cü ildən İİTKM texnoloji inqilabın çağırışlarına uyğun olaraq süni intellektlə insan zəkasının birgə işini - kiborq yanaşmasını tətbiq edir. Beləliklə, uğurun əsasında bir tərəfdən qalib dövlətin aparıcı "beyin və əməl mərkəzi" mandatı, digər tərəfdən isə qabaqcıl idarəetmə texnologiyaları dayanır. Bunu mərkəzin ötənilki fəaliyyətində də aydın görmək mümkündür.**




## Azərbaycanda tam təkmil monitorinq və qiymətləndirmə institutu formalaşıb

İİTKM-in 2023-cü ildə əldə etdiyi ən böyük uğurlardan biri Azərbaycanda monitorinq və qiymətləndirmə institutunun kəmiyyət və keyfiyyət baxımından yeni mərhələyə çatdırılmasıdır. Mərkəzə monitorinq və qiymətləndirilməsi həvalə olunmuş onlarca strategiya, dövlət proqramı və fəaliyyət planlarının icra vəziyyətinə nəzarət böyük verilənlər bazası yaradır. Dünyada datanın əsas əmtəəyə çevrildiyi bir vaxtda İİTKM-də tətbiq edilən proqram təminatları strukturlaşmış data yaradır ki, bu da data əsaslı idarəetməni gücləndirir.

Bu dövlət sənədləri arasında əhatə dairəsinə görə digərlərindən fərqlənən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın monitorinq və qiymətləndirilməsi çərçivəsində il ərzində 33 əsas icra orqanının iştirakı ilə 8 işçi qrup formalaşdırılıb və bu qruplar effektiv şəkildə əlaqələndirilib, işçi iclas və görüşlərin vaxtında keçirilməsi təmin olunub və görülmüş işlərin istər ictimaiyyət, istərsə də əlaqədar qurumlar üçün kommunikasiyası aparılıb. 2023-cü ilin hesabatları www.azerbaijan2030.gov.az portalına yerləşdirilib və data-əsaslı idarəetmə üçün zəmin yaradıb.

Mərkəzin monitorinq və qiymətləndirməsini apardığı digər dövlət sənədləri isə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" və "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" başda olmaqla, iqtisadi və sosial həyatın ən müxtəlif sahələrini, o cümlədən tikinti, qida, məşğulluq, standartlaşdırma, nəqliyyat və logistika kimi sahələri əhatə edir. Monitorinq və qiymətləndirilmə əgər əvvəllər fəaliyyət əsaslı idisə, indi daha çox səmərəliliyin qiymətləndirilməsi əsasında həyata keçirilir. Beləliklə, nəticə əsaslı büdcə və proqram idarəetməsi birləşdirilir.

## Monitorinq və qiymətləndirmə fəaliyyətində süni intellekt faktoru

Hazırda İİTKM-də monitorinq və qiymətləndirmə nəticəsində strateji baxış, əsas hədəf göstəriciləri, məqsədlər, prioritetlər, fəaliyyət istiqamətləri, tədbirlər, həmçinin hər bir tədbirin ilkin, aralıq və son nəticələri olmaqla on minlərlə data toplanır. Belə çeşidli dataların əsasında monitorinqi həyata keçirilən proqramların əsas uğurlarını, çağırışları, riskləri və tövsiyələri müəyyənləşdirmək üçün süni intellekt imkanları tətbiq olunur. Elə www.azerbaijan2030.gov.az, www.boyukqayidish.gov.az və www.nakhchivan2027.monitoring.gov.az portalları da bu ehtiyacın innovativ həllinə hesablanıb. Qeyd olunan portallar yalnız şəffaflığı təmin etmir, eyni zamanda monitorinq və qiymətləndirmə prosesinin tərəfləri arasında "kommunikasiya məsafəsi"ni azaldır.

Ötən il ərzində İİTKM rəqəmsal ticarət platformalarında da Azərbaycanın mövqeyini gücləndirməyə davam edib. Bu məqsədlə mərkəzin nəzdində fəaliyyət göstərən Rəqəmsal Ticarət Qovşağı yeni Yol Xəritəsi hazırlayıb. Bu Yol Xəritəsinə əsasən, qeyri-rezidentlər yenilənmiş portal (mresidency.az) vasitəsilə ölkəmizə gəlmədən mobil imzaların alınması, fiziki şəxslər üçün məsafədən bank hesablarının açılması, hüquqi şəxsin onlayn qeydiyyatı, əmək müqavilələrinin qeydiyyatı, notariat xidmətləri, virtual hüquqi ünvanın qeydiyyatı, "metaverse" virtual məkanda əməkdaşlıqların qurulması üçün konsaltinq və digər elektron xidmətlərə bir pəncərədən müraciət edə biləcəklər. Bu da dövlət-özəl tərəfdaşlığı çərçivəsində Azərbaycanın investisiya cəlbediciliyini artırmağa, ticarət əlaqələrini gücləndirməyə və "bir pəncərə" sistemi ilə qeyri-rezidentlərə elektron xidmətlər paketinin təqdim olunmasına şərait yaradacaq.




Ölkədə həyata keçirilən islahatları iqtisadi cəhətdən qiymətləndirməyə imkan verən təhlil alətləri İİTKM-də mütəmadi olaraq istifadə edilməkdədir. Mərkəzin iqtisadi modellər laboratoriyasında mövcud olan Maliyyə Proqramlaşdırılması modeli, Dinamik Stoxastik Ümumi Tarazlıq modeli, iqtisadi fəaliyyət sahələri arasındakı qarşılıqlı əlaqələri nəzərə almaqla müxtəlif iqtisadi təsirləri simulyasiya etməyə imkan verən Xərclər-buraxılış modeli və digər ekonometrik modellər əsasında təhlillər 2023-cü ildə də davam etdirilib.

## "Enterprise Azerbaijan" - startapçıların ən yaxın dəstəkçisi

Müasir innovasiyalardan yararlanmaqla qeyri-neft-qaz sektorunun inkişafına dəstək məqsədilə yaradılmış "Enterprise Azerbaijan" portalının 2023-cü il üçün ən böyük uğuru startaplarla bağlı olub. Təkcə "Startup School - 1" layihəsinin uğurla gerçəkləşdirilməsi Azərbaycanın startap ekosisteminə verilmiş ən böyük töhfə sayıla bilər. ABŞ-nin Nevada Universitetinin Özmən Sahibkarlıq Mərkəzi ilə birgə həyata keçirilmiş beynəlxalq müsabiqəyə dünyanın 10-a yaxın ölkəsindən (ABŞ, Almaniya, İrlandiya, Türkiyə, Mavritaniya, Pakistan, Qazaxıstan, Azərbaycan və s.) 200-dən çox layihə təqdim edilib. Daxil olmuş layihələrdən 33 ən yaxşı komanda (layihə) seçilərək, tədris sessiyasına cəlb olunub. Onlara ABŞ, İsrail, Polşa, Fransa, İsveç, İngiltərə, Türkiyə və Azərbaycandan olan professor və beynəlxalq ekspertlər tərəfindən 60+ saat onlayn və 15 günlük oflayn təlimlər, həmçinin ustad dərsləri keçirilib. Təlimlərdə iştirak etmiş 33 layihədən 10 ən yaxşı layihə final mərhələsinə adlayıb, onların arasından isə ilk 3 yerin sahibləri seçilib. "Entertprise Azerbaijan" I yerin qalibi olmuş "Abroadventure" komandasının üzvlərinin Nevada Universitetində I2B təlimlərdə iştirak etmək üçün ABŞ-yə səfərini təşkil edib.

İlin sonunda "Enterprise Azerbaijan" növbəti "Startup School" layihəsinin keçiriləcəyinə dair elan paylaşıb. İlkin reaksiyalar bu layihəyə də marağın böyük olacağını göstərir. "Startup School - 2"nin əsas devizi "AI for Karabakh"dır (Qarabağ üçün süni intellekt). Bu layihənin gerçəkləşməsi üçün "Enterprise Azerbaijan" öz partnyorlarının siyahısına Alman Süni İntellektin Araşdırma Mərkəzini də əlavə edib. Layihədə məqsəd yerli startapları inkişaf etdirməklə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası zamanı qarşıya çıxa biləcək çağırışların süni intellekt vasitəsilə həllinə nail olmaq, Azərbaycanda gənclərin texnologiya savadını inkişaf etdirməklə insan resurslarının inkişafına töhfə verməkdir.

## İİTKM "Metaverse"də də mövcuddur

Müasir trendləri yaxından izləyən və ən son texnologiyaları öz fəaliyyətində tətbiq etməyə çalışan İİTKM metareallıqdan da yan keçməyib. Hələ ilin əvvəlində mərkəzin operatoru olduğu "Azexport" portalı və Rəqəmsal Ticarət Qovşağının "MTradeVerse" platformasında virtual reallıq formatında rəqəmsal inzibati binası hazırlanıb. İnteraktiv avatarlara və süni intellektə uyğun fərdiləşdirilə bilən bu platforma Azərbaycanın metareallıqda təqdim olunan ilk dövlət xidməti kimi tarixə düşüb. Bir faktı qeyd edək ki, "McKinsey"nin hesabatına əsasən, 2030-cu ilə kimi metasahənin 5 trilyon ABŞ dollarına qədər genişlənəcəyi gözlənilir. 2023-cü ilin sonunda isə mərkəz metareallıqda mövcudluğunu bir qədər də genişləndirərək, "Azexport"un təşəbbüsü ilə "MTradeVerse"də regionun ilk virtual sərgi və konfrans məkanını istifadəyə verib. Virtual məkan zamandan və məkandan asılı olmadan dünyanın istənilən nöqtəsindən istifadəyə açıq olmaqla "Made in Azerbaijan" brendli məhsulları daha geniş auditoriyaya çatdırmağa xidmət edir.

İİTKM Azərbaycanın və regionun ən sanballı beyin mərkəzlərindən biri kimi 2023-cü ildə də intellektual məhsul ortaya qoymağa davam edib. Mərkəz il ərzində 9 kitab - monoqrafiya, dərslik, dərs vəsaiti və tədris proqramı təqdim edib. Sadəcə türk dünyasının iqtisadi mənzərəsinin canlandırıldığı "Türk dövlətləri iqtisadiyyatı" kitabının yazılmasında yeddi türk dövlətinin iqtisadi tədqiqatlar sahəsində tanınmış 35-dən artıq alimi iştirak edib. Eləcə də "Rəqəmsal iqtisadiyyat", "İslam maliyyə sistemi və Azərbaycanda perspektivləri", "Heydər Əliyev və Azərbaycanın kənd təsərrüfatı", "İnnovasiya və sahibkarlıq: startap ekosistemi" kitablarının ərsəyə gəlməsi üçün mərkəzin əməkdaşları ilə yanaşı, digər yerli və xarici qurumların əməkdaşlarının da yaxından iştirakı təmin olunub.







## Qeyri-neft-qaz ixrac coğrafiyası genişlənir, biznes mühiti yaxşılaşır

İİTKM qeyri-neft sektorunun inkişafı istiqamətində fəaliyyətini yola saldığımız ildə də davam etdirib. "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə 2023-cü ilin yanvar-dekabr ayları ərzində hüquqi və fiziki şəxslər tərəfindən 1564 dəfə müraciət daxil olub. Ümumilikdə, 3607 ədəd sertifikat verilib. Hesabat dövrü ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə 242,9 milyon ABŞ dolları dəyərində ixrac həyata keçirilib. Mərkəz vasitəsilə qeyri-neft məhsullarının aylıq ixracında ən yüksək göstərici noyabr ayında 42 milyon ABŞ dolları olaraq qeydə alınıb. Üstəlik, "Azexport"un xətti ilə 46 adda məhsula birillik "Sərbəst satış" sertifikatı verilib. Bundan başqa, "azexport.az" portalı üzərindən ölkədaxili çatdırılma xidməti istifadəyə verilib.

Ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması üçün çalışan Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiya ötən il də aktiv fəaliyyət göstərib. Bunu komissiyanın internet portalı olan "www.azranking.az"da da görmək mümkündür. Komissiyanın işçi qrupları müntəzəm şəkildə iclaslar keçirib və beynəlxalq indekslər nəzərə alınmaqla vacib qərarlar qəbul edib. Həmçinin ötən il azranking.az portalı yenilənib və funksionallığı artırılıb, sahibkarlar üçün "Elektron məlumatlandırma sistemi" yaradılıb.

2023-cü ildə İİTKM beynəlxalq və regional əməkdaşlıqlara da xüsusi önəm verib. Ötən il ərzində İslam Ölkələri üzrə Statistik, İqtisadi və Sosial Tədqiqatlar və Tədris Mərkəzi, Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq İnstitutu, Pakistan Xarici Əlaqələr Şurası ilə anlaşma memorandumları imzalanıb. Bu sənədlər İİTKM-ə daha genişmiqyaslı layihələr həyata keçirməyə, beynəlxalq tədqiqat təcrübəsini artırmağa, həmçinin Azərbaycanla bağlı reallıqları daha geniş platformalarda təbliğ etməyə imkan verir. Hesabat ili ərzində mərkəzin əməkdaşları ABŞ, Çin, Fransa, Almaniya, Yaponiya, Türkiyə, Polşa, Estoniya, Macarıstan və Qazaxıstanda keçirilmiş beynəlxalq konfrans və tədbirlərdə iştirak ediblər, işgüzar görüşlər keçiriblər.

## Türk dövlətlərinin ümumi inkişafı ilə bağlı araşdırmalar davam etdirilib

İİTKM-in nəzdində fəaliyyət göstərən Türk Dünyası Araşdırmalar Mərkəzi (TDAM) də ötən il çox məhsuldar işləyib. Türk Dövlətləri Təşkilatının (TDT) Katibliyi ilə sıx əməkdaşlıq quran TDAM 35 müəllifli "Türk dövlətləri iqtisadiyyatı" kitabını da bu əməkdaşlığın nəticəsi kimi ortaya qoyub. Kitabın Azərbaycan, Türkiyə, Qazaxıstan və Macarıstanda geniş təqdimatları keçirilib. İİTKM-də keçirilmiş təqdimatda TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev şəxsən iştirak edib. Bundan başqa, TDAM Türkiyənin İstanbul şəhərində keçirilən İqtisadi Əməkdaşlıq üzrə İşçi qrupun 14-cü görüşündə türk dünyasının interaktiv geoiqtisadi xəritəsinin hazırlanması təklifini verib və bu təklif böyük razılıqla qarşılanıb. Hazırda bu xəritənin hazırlanması üzərində işlər davam etdirilir. Eyni zamanda TDAM-ın da aktiv təşəbbüskarlığı ilə TDT və Türk Akademiyasının nəzdində İqtisadi Siyasət Araşdırma Mərkəzləri Şəbəkəsi təsis olunub və bu çərçivədə Ankarada "Türk İqtisadiyyatları 2023: Rəqəmsal Ticarət və İnvestisiya Hesabatı" təqdim olunub. Bundan başqa, Qazaxıstan və Macarıstanda keçirilmiş bir çox konfransda TDAM-ın aktiv iştirakı təmin olunub.




## Kommunikasiyanın qovşağı

İİTKM 23 internet resursu ilə həm mərkəzin fəaliyyəti, həm də Azərbaycanda qeyri-neft-qaz sektorunda əldə olunmuş nailiyyətlər barədə Azərbaycan ictimaiyyətini müntəzəm şəkildə məlumatlandırmağa davam edib. Mərkəzin istifadə etdiyi kommunikasiya platformalarına "Facebook", "X", "Instagram", "LinkedIn", "Telegram" və "YouTube" kimi dünyanın əsas sosial şəbəkələri daxildir. Mərkəzin rəsmi internet saytları da il ərzində aktivliyini qoruyub saxlayıb. İİTKM-in kommunkasiya komandası Azərbaycanın yerli televiziya kanalları, xəbər saytları və qəzetlərinin imkanlarından istifadə edərək, il ərzində ümumilikdə 320-dən çox xəbərin yayılmasını təmin edib.

İİTKM yalnız ictimai-publisistik müstəvidə deyil, yerli və xarici elm platformalarında da aktiv iştirak edib. 2023-cü il ərzində mərkəzin əməkdaşlarının yerli elmi jurnallarda 20-dən artıq elmi məqaləsi dərc edilib. İngiltərə, Kanada, Türkiyə, Çexiya və Rusiya başda olmaqla, xaricdə dərc olunmuş elmi məqalələrin sayı isə 10-dək olub.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*



# İnvestisiya ünvanı dəyişir

## İndi regionlarımız daha cəlbedicidir

**Bu gün Azərbaycan Cənubi Qafqaz iqtisadiyyatında 64 faiz paya malik ölkədir. Təxminən son 20 ildə ölkə iqtisadiyyatına yönəldilən investisiyaların ümumi həcmi 318,9 milyard, birbaşa xarici investisiyaların həcmi isə 100,6 milyard dollar olmuşdur. ÜDM-də isə 3,6 dəfə real artım əldə edilmiş, adambaşına ÜDM 7126 dollara yüksəlmişdir.**

Valyuta ehtiyatları 2003-cü ildəki 1,6 milyard dollardan 43 dəfə artaraq 68,5 milyard dollara çatmışdır. Dövlət büdcəsinin gəlirləri 1,2 milyard manatdan 35,6 milyard manata, xarici ticarət dövriyyəsi 5,2 milyard dollardan 51,2 milyard dollaradək yüksəlmişdir. İxracın həcmi 2,6 milyard dollardan 38,1 milyard dollara çatmışdır. Yalnız qeyri-neft məhsullarının ixracı 9 dəfə artaraq 3,3 milyard dollar olmuşdur.

Konkret aqrar sektora gəldikdə, son illər kənd təsərrüfatında görülən işlər və tətbiq edilən yeniliklər innovativ baxımdan diqqət çəkir və bu sahənin daha sürətli inkişafına zəmin yaradır. Aqrar sektordan söz düşəndə, kənd camaatının həyat səviyyəsinin yüksəldilməsi və istehsal prosesində müasir texnologiyaların tətbiqini qeyd etməmək mümkün deyil. Məsələn, xəbər verildiyi kimi, bir neçə gün əvvəl Neftçala rayonunda yeni içməli su təchizatı sistemləri istismara verilmişdir. Dövlət büdcəsi hesabına həyata keçirilən layihə rayon üzrə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla 89 min nəfərin içməli su təchizatının yaxşılaşdırılmasına hesablanmışdır.

Lənkəranda "Laran" Məhdud Məsuliyyətli Cəmiyyətinin qənnadı məhsullarının istehsalı müəssisəsinin fəaliyyətə başlaması da maraqlı nümunədir. Umumi dəyəri 5 milyon manat olan bu layihənin həyata keçirilməsinə dövlət dəstəyi olaraq Sahibkarlığın İnkişafı Fondu 1,2 milyon manat güzəştli kredit ayırmışdır. İllik istehsal gücü natura ifadəsində 2000-2500 ton (hazırda 1500-1800 ton istehsal edilir) olan müəssisədə 5 növdə və 56 çeşiddə məhsul, o cümlədən karamel, lokum, şokoladlı lokum, marmelad, şokoladlı marmelad istehsal edilir. Braziliya, Türkiyə, Çin və Rusiyadan alınan avadanlıqların quraşdırıldığı müəssisədə istehsal edilən məhsullar daxili bazarla yanaşı, Rusiya, İsrail, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Moldova və İraqa ixrac olunur. Hazırda müəssisədə 120 nəfər çalışır.

"Lenk Fruit" MMC-nin Lənkəran rayonunun Separadi kəndində yeni salınmış sitrus bağları da aqrar sektorun uğurlu inkişafını nümayiş etdirir. Bağların ümumi ərazisi 150 hektardır. Burada əsasən Türkiyədən gətirilmiş 141 min ədəd sitrus meyvələri, şaftalı və nektarin ağacı əkilmişdir. Layihənin ümumi dəyəri 10,7 milyon manatdır. Ən müasir aqrotexniki xidmətlərin göstərildiyi bağda damcı üsulu ilə müasir suvarma şəbəkəsindən istifadə edilir. Maraqlısı isə odur ki, bağda ölkədə ilk dəfə qış aylarında şaxtanın temperaturunu normal dərəcəyə salan, dəyəri 2,2 milyon dollar olan 15 xüsusi avadanlıq quraşdırılmışdır. Bir avadanlıq 9 hektar ərazini şaxtadan qoruya bilir. Növbəti illərdə daha 5 belə avadanlığın quraşdırılması nəzərdə tutulur. Bugünəcən 110 hektar sahədə naringi və limon, 20 hektarda şaftalı, 5 hektarda nektarin və 7 hektarda giləmeyvə bağı salınmışdır. Sitrus əkin sahələrinin məhsuldarlığı hər hektardan 35-40 tona çatacaq ki, bu da yerli növlərin məhsuldarlığından 2-3 dəfə çoxdur.

Lənkəran və Neftçala rayonlarında yeni salınan bağlar, tikilən obyektlər sübut edir ki, ölkənin regionları, hətta ən ucqar kəndləri belə ən müasir texnologiyaların tətbiqi sayəsində inkişaf edir. Bu baxımdan son 20 ildə kənd təsərrüfatında istehsal həcminin real ifadədə 2,1 dəfədən çox artması, əkin sahələrinin 25,9, aqrar sektora investisiya qoyuluşunun 11 dəfə artması təsadüfi sayıla bilməz. Məhz bu hesaba əksər kənd təsərrüfatı və ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi təmin olunmuşdur. Bunlardan savayı, ötən illər aqrar sahəyə dövlət dəstəyi, o cümlədən maliyyələşmə mexanizmi təkmilləşdirilmiş, müasir tələblərə uyğun aqrar sığorta sistemi yaradılmış və investisiyaların cəlbi üzrə stimullar sistemi formalaşdırılmışdır. Nəticə isə qeyd etdiyimiz son faktların timsalında göz önündədir.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*



# Seçkilərdən seçkilərə

## Qarabağ və Şərqi Zəngəzur bu gün də hünər meydanıdır

**30 illik işğala son qoyulduqdan sonra Qarabağın dirçəldilməsi, bərpa-quruculuq işləri Azərbaycan dövlətinin qarşısında duran ən əsas məsələ oldu. Bu məqsədlə qəbul edilən Böyük qayıdış proqramında viran qalmış yurd yerlərinin yenidən qurulması, "ağıllı" kənd və şəhərlərin, müasir infrastrukturun yaradılması önə çəkildi.**



"Ağıllı kənd" Ağalıya ilk köç 2022-ci ilin 19 iyulunda baş tutdu. 2023-cü ilin martında isə Tərtərin Talış kəndi sakinlərinə qucaq açdı. Bununla işğaldan azad olunan yaşayış məntəqələrinə yeni nəfəs, yeni həyat gəldi, yollarımız erməni quldurlarının izlərindən təmizləndi, yaşayış məskənlərimizin siması dəyişdi. Ardınca Zabux kəndi, Laçın və Füzuli şəhərləri pərən-pərən olmuş sakinlərini qəbul etdi. Yenidən qurulmuş yaşayış məskənlərində həyat qaynamağa başladı. İndi bu kənd və şəhərlər həm də yurd həsrəti çəkənlərin arzularının gerçəkləşdiyi yerlərdir.

Ümumilikdə Böyük qayıdış proqramı çərçivsində 2023-cü ildə Füzuli şəhərinə 380 ailə (1392 nəfər), Laçın şəhərinə 408 ailə (1555 nəfər), Ağalıya 175 ailə (871 nəfər), Talışa 20 ailə (90 nəfər), Laçın rayonunun Zabux kəndinə 203 ailə (783 nəfər) olmaqla 1186 ailə (4691 nəfər) köçürülüb. Bu, sıradan fakt deyil. Erməni vandallarının dağıdıb yerlə yeksan etdikləri ərazilərin yenidən məskunlaşdırılması nəhəng işdir. Bu, əslində bərpa deyil, yeni yaşayış məskənlərinin salınmasıdır. 30 il ərzində Ermənistan işğal etdiyi ərazilərdə daşı daş üstə qoymayıb. Satdığını satıb, sata bilmədiyini yerlə bir edib. Çünki bu, erməni xislətidir. Yurda bağlılıq, torpağı sevmək, vətən təəssübü hər xalqın işi deyil. Onun üçün gərək türk doğulasan, azərbaycanlı olasan. Əks halda biz qısa müddətdə Qarabağ və Şərqi Zəngəzurun 8 şəhər və 92 kəndinin baş planını təsdiqləməz, 30 kəndin təməlini qoymaz, yüz kilometrlərlə yol çəkməz, körpü salmaz, dağları yarıb tunellər tikməzdik.

Bu il də Qarabağda və Şərqi Zəngəzurda infrastruktur layihələrinin hamısı davam edəcək. Su anbarları, yollar, körpülər, məktəblər, xəstəxanaların tikintisi səngiməyəcək. İçməli su xətləri, elektrik enerjisi və digər infrastruktur layihələrə də ara verilməyəcək. Sərsəng Su Anbarına işğal dövründə ermənilər bir qəpik də vəsait qoymayıblar, yalnız vəhşicəsinə istismar ediblər. Xaçınçay Su Anbarı isə tamamilə məhv edilmişdi. Bu anbarda bərpa işləri başa çatıb və artıq istifadəyə verilib. Yaxın gələcəkdə Füzulidəki Köndələnçay Su Anbarının da açılışı olacaq. Üstəlik, Suqovuşan yenidən qurulub. Zabuxçay Su Anbarının inşası isə bu il tamamlanacaq. Anbarın suyu böyük ərazini suvarma suyu ilə təmin edəcək. Bu da o deməkdir ki, keçmiş köçkünlər qayıdanda artıq orada əkin-biçin üçün şərait olacaq.

Bu gün evlərinə qayıdan keçmiş köçkünlərin məşğulluğu ilə bağlı müvafiq qurumlar ciddi məşğul olurlar. Yurda qayıtmış insanlara treninqlər keçirilir, yeni istehsal sahələri, sənaye müəssisələri yaradılır. Ağdamda və Cəbrayılda isə iki böyük sənaye zonasının fəaliyyətə başlaması işğaldan azad olunmuş ərazilərin gələcək inkişafından xəbər verir.

Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması əsasən dövlətin imkanları hesabına aparılır. Bununla belə, özəl sektorla dövlət arasında faydalı əməkdaşlıq nümunələri də var. İş adamları yaradılmış imkanlardan istifadə edərək biznes ideyalarını vahid mərkəz ətrafında birləşdirirlər ki, bu da yeni işgüzar əlaqələr qurulması baxımından gərəkli təşəbbüsdür. Bu səbəbdən özəl sektorun işğaldan azad edilmiş ərazilərə investisiya qoyması təqdirəlayiqdir. Artıq Hadrut qəsəbəsində, Daşaltı kəndində və Ağdam şəhərində özəl sektor bir neçə layihə icra edir.

Vaxt gələcək Qarabağ və Şərqi Zəngəzur həqiqətən cənnətə çevriləcək. Dövlət bu işə özəl sektoru da dəvət edir. Bu, iqtisadi cəhətdən də səmərəlidir. Ona görə də işğaldan azad olunmuş ərazilərdə biznes dairələrinə münbit şərait yaradılır və dövlət tərəfindən dəstək göstərilir. Çünki özəl sektorun Qarabağda və Şərqi Zənəzurda tikəcəyi həm yaşayış binaları, həm də istehsal müəssisələri və xidmət obyektləri orada yaşayacaq insanların sosial ehtiyaclarının, o cümlədən məşğulluğunun təmin olunması baxımından çox gərəklidir.

Böyük qayıdış proqramının gözlənildiyindən də tez başa çatacağını indidən söyləmək olar. Bunu görülən işlərin sürəti göstərir. O üzdən Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma və bərpa işləri imkan verir deyək ki, bu ərazilərin tamam məskunlaşmasına çox qalmayıb.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Ötən ilin yekunları: DSK xəbər verir

### 123 milyard manatlıq ÜDM istehsal olunub

**2023-cü ildə ölkədə 123,0 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 1,1 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.**

Dövlət Statistika Komitəsi (DSK) xəbər verir ki, il ərzində iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,7 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 3,7 faiz artmışdır. ÜDM istehsalının 40,5 faizi sənaye, 10,0 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,2 faizi tikinti, 5,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə sahələrinin, 18,6 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,1 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 12114,5 manata bərabər olmuşdur.

### Qeyri-neft sənaye məhsullarının istehsalında 8 faiz artım qeydə alınıb

**Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2023-cü ildə 66,6 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir. Neft-qaz sektorunda məhsul istehsalı 2,0 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 8,0 faiz artmışdır.**

Sənaye məhsulunun 67,4 faizi mədənçıxarma sektorunda, 27,1 faizi emal sektorunda, 4,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 7,6 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 4,2 faiz artmışdır.

Emal sektorunda maşın və avadanlıqların istehsalı 77,7 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 65,6 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 48,1 faiz, tikinti materiallarının istehsalı 31,8 faiz, hazır metal məmulatlarının istehsalı 30,1 faiz, içkilərin istehsalı 23,0 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 18,5 faiz, elektrik avadanlıqlarının istehsalı 16,2 faiz, tütün məmulatlarının istehsalı 12,8 faiz, kağız və karton istehsalı 12,3 faiz, mebel istehsalı 10,5 faiz, qida məhsullarının istehsalı 9,2 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 8,8 faiz, neft məhsullarının istehsalı 7,3 faiz, kimya sənayesi məhsullarının istehsalı 6,9 faiz, poliqrafiya məhsullarının istehsalı 6,1 faiz artmış, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 2,0 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 4,1 faiz, əczaçılıq məhsullarının istehsalı 9,1 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 11,9 faiz, sair sənaye məhsullarının istehsalı 12,2 faiz, geyim istehsalı 15,2 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 16,1 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 18,9 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 0,6 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 15,5 faiz artmışdır.

### Əsas kapitala 20,3 milyard manata yaxın vəsait yönəldilmişdir

**2023-cü ildə əsas kapitala 20 milyard 296,6 milyon manat məbləğində, yaxud 2022-ci illə müqayisədə 9,8 faiz çox vəsait yönəldilmişdir.**



Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 10,9, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 9,3 faiz artmışdır. İstifadə olunmuş vəsaitin 12 milyard 485,2 milyon manatı və ya 61,5 faizi məhsul istehsalı sahələrinə, 6 milyard 840 milyon manatı (33,7 faizi) xidmət sahələrinə, 971,4 milyon manatı (4,8 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 16 milyard 411,5 milyon manatını və ya 80,9 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 14 milyard 559,6 milyon manatı və ya 71,7 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların öz vəsaitləri 48,5, büdcə vəsaitləri 36,6, əhalinin şəxsi vəsaitləri 5,9, bank kreditləri 3,0, sair vəsaitlər isə 6,0 faiz təşkil etmişdir.

## Bu il "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlara dəstək" mexanizminin icrasına başlanılacaq

**Sahibkarlığın İnkişafı Fondunun (SİF) 2023-cü il üzrə fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə dair mətbuat konfransı keçirilib.**



Fondun İdarə Heyətinin sədri Osman Xaliyev 2023-cü ildə SİF tərəfindən ümumi dəyəri 459,9 milyon manat olan 3276 investisiya layihəsinin maliyyələşdirilməsinə 193,8 milyon manat güzəştli kredit verildiyini bildirib. Bu kreditlər hesabına 3000-dən çox yeni iş yerinin açılması imkanı yaranıb. Verilmiş kreditlərin 46,4 faizi kənd təsərrüfatı məhsullarının istehsalı, 43 faizi sənaye məhsullarının istehsalı və emalı, 5,5 faizi xidmət sahələri, 4,5 faizi turizmin inkişafı layihələrinə yönəldilib. Güzəştli kreditlərin 72 faizi regionların, 28 faizi isə Bakı şəhəri və Abşeron iqtisadi rayonunun payına düşür.

2023-cü ildə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən sahibkarlara SİF tərəfindən güzəştli kreditlərin verilməsinə başlanılıb. Beləliklə, muxtar respublika ərazisində fəaliyyət göstərən 27 sahibkar ümumilikdə, 2,2 milyon manat güzəştli kreditdən yararlanıb. Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən 4 layihəyə güzəştli kredit ayrılıb. Bu layihələrə ayrılmış güzəştli kreditlərin ümumi məbləği 11,5 milyon manat olub.

Ötən il verilmiş güzəştli kreditlərin layihə sayı üzrə 99,8 faizi, kreditin məbləği üzrə isə 91,1 faizi mikro, kiçik və orta sahibkarlıq subyektlərinə verilib.

Pandemiyadan zərər çəkmiş sahibkarlara verilmiş dövlət zəmanətli kreditlər üzrə subsidiyanın ödənilməsi 2023-cü ildə də davam etdirilib. Ümumilikdə dəstək proqramı çərçivəsində 31 dekabr 2023-cü il tarixinədək 52 milyon manat ödənilib. Bununla yanaşı, pandemiyadan zərər çəkmiş biznes subyektlərinə mövcud kreditlər üzrə faiz subsidiyalarının ödənilməsi məqsədilə 10 mart 2020-ci il tarixinə kredit borcu olan sahibkarların müraciəti əsasında kreditlərin faiz dərəcəsinin 10 faiz bəndi həcmində subsidiyaların verilməsi davam etdirilib. Proqram çərçivəsində 31 dekabr 2023-cü il tarixinə kredit qalıq məbləği 893,4 milyon manat olan 5071 müraciətə 73,3 milyon manat faiz subsidiyası ödənilib.

Ötən il ərzində fondun təşəbbüsü ilə dövlətin güzəştli maliyyə dəstəyi mexanizmləri barədə məlumatlılıq səviyyəsinin artırılması, regionlarda sahibkarların maarifləndirilməsi, qadın və gənc sahibkarların dəstəklənməsi məqsədilə görülən işlər diqqətə çatdırılıb.

Tədbirdə Fondun 2024-cü il üzrə güzəştli kredit mexanizmi ilə bağlı prioritet istiqamətləri açıqlanıb. Həmçinin bu il icrasına başlanılacaq "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlara dəstək" mexanizmi ilə bağlı hədəf və prioritetlər barədə ətraflı məlumat verilib.

Sonda KİV nümayəndələrinin sualları cavablandırılıb.

## ARDNF keçən ilin nəticələrini açıqladı

### Fondun aktivləri 14,3 faiz artıb

**Hərtərəfli inkişaf edən, iqtisadiyyatı gündən-günə güclənən Azərbaycan indi dünyanın sayılıb-seçilən ölkələri sırasında addımlayır. Əlalxüsus ölkəmizin həyata keçirdiyi neft-qaz və ixrac layihələri beynəlxalq aləmdə diqqət mərkəzindədir.**

Ən önəmlisi də budur ki, Azərbaycan dövləti həmin layihələrin reallaşması nəticəsində əldə olunan gəlirlərdən səmərəli şəkildə istifadə edərək digər sahələrdə mühüm işlər həyata keçirir, dünyanın hər yerinə yollar çəkir, dəhlizlər açır, körpülər salır.

Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliklə dediyi sözlər yada düşür: "Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün üçün, gələcək üçün, xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişaf etməsi üçün əsas amildir". Təbiətin bizə böyük səxavətlə bəxş etdiyi sərvətin məhz bu ali məqsədlərə yönəldilməsi, neft və qaz gəlirlərinin indiki və gələcək nəsillər arasında ədalətli bölgüsünün təmin edilməsi üçün Ulu Öndər 1999-cu il dekabrın 29-da Azərbaycan Respublikası Dövlət Neft Fondunu (ARDNF) yaratmışdır. Bu qurum artıq 24 ildən çoxdur Azərbaycana şərəflə, saflıqşəffaflıqla xidmət edir. Başqa sözlə, ARDNF ötən dövr ərzində Azərbaycan dövlətinin iqtisadi quruculuq və institusional inkişaf üzrə həyata keçirdiyi islahatlar nəticəsində böyük inkişaf yolu keçərək vəsaitlərin idarə edilməsi, hesabatlılıq və şəffaflıq kimi istiqamətlərdə beynəlxalq müstəvidə örnək qurum kimi tanınmışdır və aktivlərinin həcminin ən yüksək səviyyəsinə çatmışdır. Qurumun 2023-cü ilin yanvar-dekabr ayları üzrə gəlir və xərclərinə dair məlumat da bunu təsdiq edir. Belə ki, ötən il ərzində fondun aktivləri 7 milyard dollar və ya 14,3 faiz artmışdır - ilin əvvəlində 49 033,6 milyon dollar olduğu halda ilin sonunda 56 069,7 milyon dollar təşkil etmişdir.

Hesabat ilində ARDNF-nin büdcəsi 9 829 milyon manat həcmində profisitlə icra olunmuşdur. Fondun büdcə gəlirləri 21 661,9 milyon manat, büdcə xərcləri isə 11 832,6 milyon manat təşkil etmişdir. İl ərzində ARDNF neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı 15 324,1 milyon manat gəlir əldə etmişdir. O cümlədən mənfəət neftinin və qazın satışından 14 519 milyon manat, bonus ödənişlərindən 800,7 milyon manat, tranzitdən 0,8 milyon manat, akrhesabı ödənişlərindən isə 3,6 milyon manat daxil olmuşdur.

Fondun vəsaitinin idarə olunmasından əldə edilən gəlir 6 337,8 milyon manatdır. Hesabat dövrü ərzində ARDNF-nin 2023-cü il büdcəsinin icrası çərçivəsində 11 737,6 milyon manat vəsait dövlət büdcəsinə transfert edilmişdir. "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşməsinə 27,9 milyon manat , "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" nın maliyyələşməsinə 34,3 milyon manat yönəldilmişdir. 2023-cü ilin yanvar-dekabr ayları ərzində ARDNF-nin idarə edilməsi ilə bağlı xərcləri 32,8 milyon manat təşkil etmişdir.

Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərqlə bağlı ARDNF-nin büdcədənkənar gəlirləri 2 132,1 milyon manat olmuşdur.

Aktivlərin artımı ARDNF-nin büdcə gəlirlərinin büdcə xərclərini üstələməsi və vəsaitlərin idarə edilməsindən əldə edilən gəlirlər, o cümlədən büdcədənkənar gəlirlər hesabına yaranmışdır. Keçən il fondun investisiya gəlirliliyi 7,1 faiz olmaqla yaranma tarixindən bəri ən yüksək gəlirlilik göstəricisi ilə səciyyələnmişdir.

ARDNF xatırladır ki, 2023-cü il, maliyyə bazarları üçün bir çox inkişaf etmiş ölkələrin mərkəzi banklarının sərtləşmə siyasətini davam etdirdiyi bir dövrdə iqtisadi artım və inflyasiya ilə bağlı qeyri-müəyyənliyin təkan verdiyi volatilliklə xarakterizə olunan bir il kimi yadda qalmışdır. Tənəzzül ili ola biləcəyi ilə bağlı proqnozlara baxmayaraq, qabaqcıl ölkələrdə inflyasiyanın səviyyəsində müşahidə olunan yavaşlama, eləcə də yüksək dayanıqlılıq fonunda bir sıra iqtisadi göstəricilərdə izlənilən müsbət tendensiya xüsusən ilin sonuna doğru iqtisadi artıma da müvafiq təsirini göstərmişdir.

İqtisadi göstəricilərdəki volatillik maliyyə aktivlərinin gəlirliliyinə təsirsiz ötüşməmişdir. İki illik ardıcıl itkilərdən sonra istiqraz indekslərinin əksəriyyətində ilin sonuna doğru olmaqla müsbət gəlirlilik nəticələri qeydə alınmışdır. Eyni zamanda əsas səhm indeksləri də, inflyasiya və qabaqcıl iqtisadiyyatların mərkəzi banklarının faizləri endirəcəkləri ilə bağlı nikbin gözləntilərin fonunda ili müsbət gəlirlərlə başa vurmuşdur.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Son 5 ildə DMA 490 minə yaxın şəxsi işlə təmin edib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində məşğulluq sahəsində əldə olunan uğurlar və konseptual hədəflərə həsr olunan iclas keçirilib.**

İclasda məşğulluq istiqamətində icra olunan sosial islahatların uğurla davam etdirildiyi vurğulanıb. Bildirilib ki, son 5 ildə nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi (DMA) tərəfindən 490 minə yaxın şəxs münasib vakansiyalar üzrə işlə təmin edilib, 22 minə yaxın şəxs peşə hazırlığına, 78 minə yaxın şəxs özünüməşğulluq proqramına cəlb edilib, 643 min şəxsə isə peşəyönümü məsləhət xidməti göstərilib.

Həmin dövrdə məşğulluq xidmətlərinin rəqəmsallaşdırılması, elektron xidmətlərin sayının artırılması əsas hədəflərdən biri olub.

İclasda Böyük qayıdış proqramı çərçivəsində həyata keçirilən aktiv məşğulluq proqramları barədə məlumat verilib, agentlikdə idarəetmənin optimallaşdırılması istiqamətində əsaslı işlərin həyata keçirildiyi bildirilib, həyata keçirilən islahatların beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirildiyi qeyd edilib, DMA-nın strategiya planı, uzunmüddətli perspektivdə strateji hədəfləri müzakirə edilib.




# Böyük Zəfərlə 20 Yanvar şəhidlərinin də qisası alındı

**1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunları tərəfindən xalqımıza qarşı törədilən qətliam göstərir ki, istiqlaliyyət yolumuz nə qədər ağrılı-acılı, faciələrlə dolu olub. Bu hadisə günahsız insanların amansız bir formada qətlə yetirilməsi ilə nəticələnsə də, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın mübarizliyini, məğrurluğunu bütün dünyaya nümayiş etdirdi. Tarixə qanla yazılan 20 Yanvar faciəsi Vətəni, azadlığı uğrunda ölümün gözünə dik baxan Azərbaycan övladlarının sarsılmazlığını dünyaya tanıtmaqla yanaşı, SSRİ adlanan nəhəng imperiyanın çöküşündə də əsas amillərdən biri oldu.**



## Heydər Əliyev ermənilərin və Qorbaçovun məkrli əməllərinin qarşısını almışdı

Faciəyə gedən yol onun törədilməsindən xeyli əvvəl, SSRİ rəhbərliyinə M.Qorbaçovun gəlişi ilə başlamışdı. Qorbaçovun simasında daim Azərbaycana qarşı məkrli, xəyanətkar mövqe tutmuş ermənilər özlərinə yaxın himayədar tapmışdılar. Nə qədər ki Heydər Əliyev SSRİ rəhbərliyində təmsil olunurdu, ermənilər Azərbaycanla bağlı bədnam niyyətlərini həyata keçirə bilmirdilər. Elə buna görə Qarabağ məsələsinin Heydər Əliyev Sov.İKP MK-nın Siyasi Bürosundan istefa verdikdən cəmi 15 gün sonra ortaya çıxması təsadüfi sayılmamalıdır. O vaxt M.Qorbaçovun ən yaxın adamı, iqtisadi məsələlər üzrə müşaviri, milliyyətcə erməni olan Aqanbekyan Parisdə keçirdiyi mətbuat konfransında Dağlıq Qarabağın Ermənistana verilməsi iddiasını irəli sürmüş, "Humanite" qəzetindəki bəyanatında Moskvanın buna razılığının olduğunu bildirmişdi.

SSRİ rəhbərliyinin Dağlıq Qarabağın Ermənistana verilməsinə dair razılığının olduğu 1988-ci ilin əvvəllərində M.Qorbaçovun Silva Kaputikyan başda olmaqla, bir qrup şovinist erməni ilə görüşü zamanı da üzə çıxdı. Bunun ardınca Xankəndidə, Yerevanda anti-Azərbaycan və antitürk ruhlu mitinqlər genişləndi.

Məhz bundan sonra erməni "Qarabağ Komitəsi" və onun Dağlıq Qarabağ Muxtar Vilayətindəki separatçı-terrorçu təşkilatı olan "Krunk" gizli fəaliyyətlərinə son qoyaraq açıq şəkildə niyyətlərini bəyan etməyə, Azərbaycana qarşı ərazi iddiaları səsləndirməyə başladı. Bunun nəticəsi olaraq ermənilər tərəfindən "Miatsum" adlanan hərəkat formalaşdırıldı.

Bütün bunlar 1988-ci ilin fevralından etibarən hadisələrin daha gərgin və aqressiv məcrada inkişafı ilə nəticələndi. Məhz həmin dövrdə həm Dağlıq Qarabağda, həm də Yerevanda Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsi tələbi ilə silsilə mitinqlər keçirildi. SSRİ rəhbərliyi tərəfindən heç bir ciddi müqavimət görməyən və bundan daha da ruhlanan ermənilər DQMV Sovetinin vilayətin statusuna baxılması haqqında Azərbaycan SSR Ali Sovetinə müraciət qəbul etməsinə nail oldular.

## Ermənistanda və Qarabağda etnik təmizləmə siyasəti həyata keçirildi

Azərbaycanın ovaxtkı rəhbərliyi hadisələrə fəal müdaxilə etmək əvəzinə Kremldən gələn əmrlər əsasında hərəkət edir və bununla xalqın taleyinə biganə yanaşırdı. Kreml isə həm Azərbaycana göndərdyi emissarlar, həm də ölkənin qətiyyətsiz rəhbərliyi vasitəsilə daha məkrli ssenarilər hazırlamaqda idi. Erməni təxribatçılarının da yaxından iştirak etdiyi bu ssenarilərin əsas hədəflərindən biri Azərbaycanda ermənilərə qarşı dözümsüz münasibətin formalaşmasına dair görüntülər yaratmaq idi. Elə bu məqsədlə 1988-ci ilin fevralında məlum Sumqayıt hadisələri törədildi.

Müxtəlif millətlərin nümayəndələrinin yaşadığı sənaye şəhəri Sumqayıtda iğtişaşlar yaratmaq siyasi dünyanın yeni səviyyədə gündəminə gətirilmiş "böyük Ermənistan" xülyasının gerçəkləşdirilməsi üçün ermənilərə çox lazım idi. Bu məsələdə sovet DTK-sının da özünəməxsus rolu oldu. Beləliklə, əvvəlcədən planlaşdırılmış Sumqayıt olayları törədildi və o dövrdə Azərbaycanda hakimiyyətdə yer tutanlar SSRİ rəhbərliyinin, ermənilərin niyyətlərini, qlobal hadisələrin mahiyyətini axıra kimi dərk etmək iqtidarında olmadıqlarından qanlı hadisələrin yaşanmasının qarşısını almaq üçün müvafiq addımlar atılmasında acizlik nümayiş etdirdilər. Sumqayıt hadisələrinin əvvəlcədən hazırlandığını o da sübuta yetirir ki, olaylar baş verən yerlərdə öncədən çoxlu teleoperatorlar, jurnalistlər yerləşdirilmişdi. Bunun nəticəsində düşünülmüş, ssenarisi əvvəlcədən cızılmış Sumqayıt hadisələri saxtakarlıqlarla, uydurmalarla dünyaya yayıldı. Bundan sonra ermənilər Ermənistanda və Dağlıq Qarabağda elə bir mühit yaratdılar ki, artıq azərbaycanlılarla ermənilər bir yerdə yaşaya bilməzdilər. Bunun nəticəsi olaraq indiki Ermənistanın yarandığı əzəli Azərbaycan torpaqlarında yaşayan yüz minlərlə soydaşımız 1988-ci ilin sonuna kimi qətlə yetirilməklə, əmlakları talan olunmaqla ən qəddar formada deportasiya olundular.

Dağlıq Qarabağda da vəziyyət getdikcə gərginləşirdi və bu işdə yenə əsas rol oynayan tərəf Azərbaycan rəhbərliyinin acizliyindən istifadə edərək hadisələri istədiyi kimi istiqamətləndirən Kreml təmsilçiləri idi. Bütün bunlara qarşı Azərbaycan rəhbərliyi tərəfindən heç bir qətiyyətli addım atılmadı. 1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Soveti DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi. İyul ayında SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sessiyasında Dağlıq Qarabağ məsələsi müzakirə edilən zaman Azərbaycandan olan deputatlarla yanaşı, qanunazidd olaraq Ermənistandan olan deputatlar da eyni hüquqda orada iştirak etdilər. Bu isə Qorbaçov və onun ətrafının Ermənistan üçün yaratdığı yeni imkan demək idi.

İttifaq rəhbərliyinin Azərbaycan xalqına qarşı ən böyük xəyanəti özünü növbəti dəfə 1989-cu ilin yanvarında göstərdi. Belə ki, həmin il yanvarın 12-də "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi haqqında" SSRİ Ali Soveti qərar qəbul etdi və bu, ermənilərin istəyinə tam uyğun idi. Çünki DQMV-də xüsusi idarəçilik forması tətbiq edildiyi ilk gündən birbaşa Moskvaya tabe olan ermənipərəst A.Volski burada yaşayan bütün azərbaycanlı soydaşlarımızın çıxarılmasına nail oldu. Azərbaycanın siyasi rəhbərliyi isə sözügedən qurumun yaranmasını böyük uğur kimi qiymətləndirir və ona çox böyük ümidlər bəsləyirdi. Yalnız xalq hərəkatının təsiri altında 1989-cu il noyabrın 28-də vilayətin idarə olunması mərkəzin nəzarəti altında olan Azərbaycan SSR Təşkilat Komitəsinə tapşırıldı. Təşkilat Komitəsinin sədri təyin edilən V.Polyaniçko, əslində, öz sələfinin siyasətini davam etdirdi və azərbaycanlılar daha da sıxışdırıldı.

Ümumiyyətlə, 20 Yanvar faciəsinə qədər SSRİ və respublika rəhbərliyinin çıxardığı qərar və fərmanların heç birində Azərbaycanın xeyrinə bircə maddə belə olmadı. Bir tərəfdən Azərbaycan xalqını sakitləşdirməyə yönələn addımlar atılır, digər tərəfdən isə respublikanın suverenliyinə, ərazi bütövlüyünə xələl gətirən qərarlar qəbul olunurdu. Bu, Ermənistanın SSRİ rəhbərliyi tərəfindən ən yüksək səviyyədə müdafiə olunduğunu göstərirdi.

Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov Moskvanın marionetkası olaraq həm Dağlıq Qarabağın ermənilərin əlinə keçməsinin qarşısını almaq, həm də ölkədəki vəziyyəti sabitləşdirmək üçün heç nə etmirdi. Əksinə, özünün səhv addımları, yarıtmaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurumu daha da dərinləşdirirdi. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərlərinin istefası tələbi irəli sürülürdü.

1989-cu ilin sonu, 1990-cı ilin yanvarında Azərbaycanda ictimai-siyasi vəziyyət xeyli kəskinləşdi, qarşıdurma dərinləşdi, mövcud iqtidarın hadisələrə nəzarəti son dərəcə zəiflədi. SSRİ rəhbərliyi isə Azərbaycanı növbəti dəfə cəzalandırmaq üçün Sumqayıt ssenarisinə uyğun təxribatlara start verdi. Milli-azadlıq hərəkatının mərkəzi olan Bakıda ilk olaraq yerli milis tərk-silah edildi, əvəzində daxili qoşun hissələri şəhərə gətirildi. 1990-cı il yanvarın 13-də Bakıda bir erməninin iki azərbaycanlını öldürməsi fitnəkarlıqlar üçün əsas oldu və iki gün ərzində Bakıda süni şəkildə erməni talanı təşkil edildi. Mərkəz tərəfindən düşünülmüş və taktiki baxımdan hərtərəfli hazırlanmış bu məkrli plan hazır ssenari üzrə aparılırdı. Elə bu səbəbdən də ayrı-ayrı dəstələrin əməllərinin qarşısını almaq üçün ali hakimiyyət və hüquq-mühafizə orqanları tərəfindən heç bir tədbir görülmədi. Halbuki Bakıda SSRİ Daxili İşlər Nazirliyinin 12 min nəfərlik silahlı qüvvəsi var idi. Vəzirov isə yaranan vəziyyətdən istifadə edərək sovet qoşunlarının müdaxiləsinə şərait yaratmağa, bununla həm də xalq hərəkatını boğmağa çalışırdı.

Yanvarın 14-də Azərbaycan KP MK-nın Bürosunda vəziyyət müzakirə olundu və Vəzirovun təkidi ilə çağırılan Azərbaycan SSR Ali Sovetinin sessiyasında DQMV-də və zəruri olarsa, ona bitişik rayonlarda, eləcə də sərhəd boyunca fövqəladə vəziyyət elan edilməsi, lazım gələrsə, mərkəzdən kömək göstərilməsi haqqında qərar qəbul olundu. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin müraciəti ilə SSRİ Ali Sovetinin Rəyasət Heyəti yanvarın 15-də "Dağlıq Qarabağ və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında" fərman verdi. Həmçinin SSRİ Ali Soveti Bakı, Gəncə şəhərlərində, eləcə də başqa yaşayış məntəqələrində qadağa saatlarının tətbiq edilməsini və digər zəruri tədbirlər görülməsini Azərbaycan SSR Ali Sovetinə təklif etdi.

## Müdhiş gecə...

Bu dövrdə mərkəzdən Azərbaycana, xüsusən də Bakı ətrafına əlavə qoşun hissələri və hərbi texnika gətirilməsi prosesi davam edirdi. Əslində bu, Bakıya qoşun yeridilməsi üçün ilkin hazırlıqdan başqa bir şey deyildi. Xalq hərəkatına rəhbərlik edənlər, o cümlədən Xalq Cəbhəsinin təmsilçiləri isə vəziyyəti düzgün qiymətləndirmək əvəzinə şəhərin ətrafında, o cümlədən Bakı qarnizonu ətrafında sədlər, barrikadalar yaratmağa başladı. Yük və minik maşınlarından, avtobus və trolleybuslardan, eləcə də başqa vasitələrdən istifadə etməklə barrikadalar quruldu, piketlər düzəldildi. Lakin yanvarın 20-də bu düzgün olmayan taktikadan bəhrələnən sovet ordusu çoxlu sayda dinc əhalinin qırılmasına, yaralanmasına rəvac verdi.

20 Yanvar hadisələri ərəfəsində Moskva SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y.Primakovu və Sov.İKP MK katibi Girenkonu Bakıya göndərdi. Lakin onların AXC-nin radikal və liberal qanadları ilə görüşüb apardığı danışıqlar heç bir nəticə vermədi. Yanvarın 17-də Azərbaycan KP MK binası qarşısında böyük mitinq başlandı və üç gün davam etdi. Mitinqlərdə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulması, Bakı ətrafına yığılmış qoşunların Dağlıq Qarabağa göndərilməsi, respublika rəhbərliyinin istefası və digər tələblər irəli sürüldü.

Sovet rəhbərliyi Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizənin qarşısını almaq, milli-azadlıq hərəkatına zərbə vurmaq, habelə digər müttəfiq respublikalara dərs vermək üçün 1990-cı il yanvarın 19-da "Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" fərman imzaladı. Halbuki bununla Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozurdu.

Yanvarın 19-dan 20-nə keçən gecə SSRİ-nin rəhbəri M.Qorbaçovun göstərişi və Azərbaycanın ozamankı səriştəsiz rəhbərlərinin razılığı ilə Bakıya qoşun yeridildi. Tanklar və ZTR-lər Bakı küçələrində hər şeyi əzir, hərbçilər qarşılarına çıxanları amansız atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Gözlərini qan tutmuş hərbçilər hətta yaralıları aparmağa gələn təcili yardım maşınlarını və tibb işçilərini də atəşə tuturdular. Həmin gecə Bakıda və respublikamızın regionlarında həyata keçirilmiş hərbi təcavüz nəticəsində dinc əhaliyə divan tutuldu, xalqımıza qarşı qətliam həyata keçirildi.

## 20 Yanvar hadisələri dövlət səviyyəsində siyasi-hüquqi qiymətini aldı

Qanlı Yanvar hadisələri Azərbaycanda milli kimliyin formalaşmasına həlledici təsir göstərdi, dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi oldu. 1990-cı ilin yanvarından sonra milli azadlıq hərəkatı tam siyasi reallığa çevrildi, dönməz xarakter aldı, xalqımız öz gələcəyini yalnız Azərbaycanın müstəqilliyini bərpa etməsində gördü. Bu hadisədən sonra Azərbaycanda sovet imperiyası özünün bütün mənəvi və sosial dayaqlarını itirdi və tezliklə xalqımız dövlət müstəqilliyini bərpa etdi.

Sovet hakimiyyəti dövründə məlum səbəblərdən 20 Yanvar faciəsinə əsl qiyməti vermək mümkün deyildi. Lakin Ulu Öndər Heydər Əliyev hələ sovet hakimiyyəti dövründə böyük cəsarətlə Naxçıvan Ali Məclisində 20 Yanvar faciəsinə siyasi qiymətin verilməsinə nail oldu. Lakin Ulu Öndərin hələ totalitar rejimin dövründə başlatdığı bu işi müstəqilliyimizin ilk illərində hakimiyyətdə olanlar dövlət səviyyəsində davam etdirmədilər. Belə ki, hələ sovet dövründə 20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi tələbi ilə dəfələrlə çıxış edən AXC hakimiyyətə gəldikdən sonra bu mövzunu unutdu, iqtidarda olduğu dövrdə faciəyə siyasi qiymət vermək üçün cəhd belə göstərmədi. 1993-cü ilin yayına qədər Azərbaycana rəhbərlik edən şəxslərin heç biri bu faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı.

1993-cü ildə xalqın istəyi ilə hakimiyyət sükanının arxasına keçən Ulu Öndərin sayəsində 20 Yanvar faciəsi dərindən araşdırıldı. Heydər Əliyevin "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" fərmanında Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olundu. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Bununla da 20 Yanvar hadisələri dövlət səviyyəsində siyasi-hüquqi qiymətini aldı, bu cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı.

20 yanvar faciəsindən 34 il ötür. Bu illər ərzində çox dəyişikliklər baş verib. Hələ 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə 20 Yanvar şəhidlərinin uğrunda canlarından keçdikləri milli ideya reallığa çevrilib. 44 gün müharibədə qazandığımız Zəfər, ərazi bütövlüyümüzün bərpa edilməsi və torpaqlarımızda erməni separatizminə son qoyulması nəticəsində isə həm də 20 Yanvar şəhidlərinin qisası alındı.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# O gecə doğulan oğullar 30 il sonra Azərbaycan tarixinə Zəfər yazdılar



**Düz 34 il əvvəl Azərbaycan tarixinin ən faciəli hadisələrindən olan, eyni zamanda xalqımızın azadlıq və müstəqillik mübarizəsinin növbəti qəhrəmanlıq səhifəsi hesab edilən qanlı 20 Yanvar hadisəsi baş verdi. 34 ildir həmin tarix hər bir azərbaycanlının qan yaddaşındadır və o, hər gün oxunur, hər gün yada salınır.**

Çünki o gün Azərbaycan oğullarının azadlıq və müstəqillik yolunda şəhidlik adlı məqama ucaldığı tarix idi. Onların yenilməz iradəsi, əyilməz cəsarəti bütün dünyaya yayıldı. Şəhidlərin timsalında tarixə yeni qəhrəmanlıq, rəşadət və şücaət səhifələri yazıldı. Həmin gecə şəhidlik məqamına ucalanlar, ölməzlik qazananlar Azərbaycan xalqının azadlığı uğrunda mübarizliyini sarsıtmaq istəyən sovet imperiyasının canına vahimə saldılar. O gün elə bir təməl qoyuldu ki, üç il əvvəl Vətən müharibəsində qazanılan zəfərdə qanı torpağa qarışan oğulların şəhidliyi dastana döndü.

Şəhidlik elə bir zirvədir ki, o yüksəkliyə ucalanlar oradan heç vaxt enmirlər. Şəhidlik elə bir yoldur ki, vətənin yaraları sağalmayınca onun uğrunda canını verən şəhidin də ruhu sakit olmur. Şəhidlik elə bir məktəbdir ki, onun öyrənciləri öyrəndiklərini gələcək nəslə Vətən uğrunda axıdılan qanları ilə ötürürlər. Şəhidlik vətən sevgisinə köklənmiş hissin közərən ocağı, alovlanan məşəlidir. Bu məşəl 34 ildir ki, Azərbaycanın başı üzərində alovlanır, Bakının ən uca nöqtəsindən işıq saçaraq sönmür. Bu közərən ocağın istisi həm də 34 ildir şəhid analarını yandırır, şəhid övladlarını qarsıdır. O müdhiş gecədə güllə analardan, bacılardan yan keçsə də, dolu kimi yağan qəlpələr onların ruhunu parçaladı. Ana fəryadı, bacı harayı uzun illər qulaqlardan çəkilmədi, bu gün də əks-səda verir. İllərdir imperiya tanklarının qabağında əliyalın dayanan oğulların qanını içən erməni-rus cinayətkarlarına olan nifrət azalmır ki, azalmır.

Bu gün Azərbaycanın hər şəhərində, kəndində, qəsəbəsində istiqlal savaşında tarixə dönən qəhrəmanlarımızın əbədi uyuduğu bir məkan var - Şəhidlər xiyabanı. Azərbaycan xalqının azadlıq mücadiləsinə qarşı cinayətkara, təcavüzkara "dur" deyən oğulların uyuduğu bu Şəhid xiyabanları 34 ildir xalqımız üçün müqəddəs məkandır. 1990-cı ilin yanvarında Bakının dağüstü parkını "fəth edərək", millətin qəhrəmanlıq ziyarətgahına çevrilib müqəddəsləşən Şəhidlər xiyabanı isə həm də müstəqilliyimizin rəmzi, azadlığımızın simvoludur. Bu məkanda əbədiyyət yuxusuna gedən igidlər xalqın Vətən sevdalı övladlarıdır. O gecədən sonrakı günlərin İlham və Fərizə sevgisi şəhidlik məqamının ən ülvi nöqtəsidir. Ürəyi vətən sevgisi ilə döyünən gənclərin ilahi eşqi elə bir ucalıqda bərqərar olub ki, top-tüfəng də onları ayıra bilmədi. Əbədiyyətə qovuşan sevgililər dağüstü parkın ən hündür nöqtəsində elə məkan tutdular ki, hələ yüz illər, min illər sonra da İlham-Fərizə eşqi dillərdə dastana dönəcək, əfsanəyə çevriləcək.

1968-ci ildə sovet qoşunları Çexoslovakiyaya girərək orada milli-azadlıq hərəkatını amansızlıqla boğdular. Bu zaman Yan Palaç adlı bir tələbə hərbi təcavüzə etiraz əlaməti olaraq Praqanın Vatslav meydanında özünü yandırmışdı. Yan Palaç bu gün çex xalqı üçün qəhrəmanlıq nümunəsidir. Fəxri xiyabanda uyuyan şəhidlərimizin də hər biri bizim üçün Yan Palaçdır. Çünki gözünü qırpmadan üstünə yeriyən tankın qabağında dayanan oğullarımız xalqının, ölkəsinin azadlığı, müstəqilliyi üçün ölümün üzərinə getmişlər. Haqq üsyanı şəhidliyin başlanğıcıdır. Ədalət uğrunda döyüşün ağrısını unutduran nəsnə torpağa axan şəhid qanıdır. O ki ola bu qan vətən torpağına qarışa, bax, o zaman, şəhidlik ən ali məqama yüksəlir.

Dünyanın bütün xalqlarında şəhidlik müqəddəslik mərtəbəsindədir. Bütün xalqlarda şəhidlər ən ali pillədə bərqərar olurlar. Çünki şəhid canını havasını udub, suyunu içdiyi vətəndən, qanını üstündə yeridiyi torpaqdan üstün saymır. Şəhidin bir amalı olur - uğrunda döyüşdüyü torpağın, canını fəda edəcəyi vətənin azadlığına qovuşan ruhu səmada rahat dolaşa bilsin.

Bu gün Azərbaycan səmasında ağ göyərçinlər sayağı minlərlə şəhid ruhu "qanad çalır". Qədim tariximizin qüruru, bu günümüzün hünəridir Şəhidlər xiyabanı. 1988-ci ildən başlayan və 1990-cı ilin yanvarında kulminasiya nöqtəsinə çatan azadlıq mübarizəsi təkcə Bakıda deyil, Azərbaycanın bütün regionlarında Şəhidlər xiyabanlarının salınması ilə nəticələndi. Həmin şəhid xiyabanları yeniyetmələr və gənclərə vətənpərvərlik və qəhrəmanlıq duyğuları tərbiyə edir. Həmin tərbiyənin nəticəsidir ki, 44 günlük Vətən müharibəsində qazanılan Zəfərdə gənc əsgər və zabitlərimizin rolu əvəzsiz oldu.

Bu gün XX əsrin tarixinə insanlığa, bəşəriyyətə qarşı ən amansız və dəhşətli cinayətlərdən biri kimi düşmüş 1990-cı ilin 20 Yanvar hadisəsindən bir qərinədən bir il artıq vaxt keçib. Azərbaycan xalqını qəlbən sarsıtmış həmin faciənin başvermə səbəbləri ilə bağlı zaman-zaman müxtəlif yazılar yazılıb, şərhlər verilib, araşdırmalar aparılıb, hətta ortaya əks fikirlər də qoyulub. Amma bütün bu məsələlərdə üst-üstə düşən bir məqam var: yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqı əsrlərboyu qəlbində yaşatdığı milli-azadlıq və istiqlal savaşından geri çəkilməyəcəyini, bu müqəddəs amal uğrunda canından belə keçməyə hazır olduğunu bütün dünyaya nümayiş etdirdi. Və o gecə doğulan oğullar 30 il sonra Azərbaycan tarixinə Zəfər yazaraq əfasanəyə çevrildilər.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***




# Şəhidlər xiyabanı qırmızı qərənfillərə bürünür



**Boyun-boyuna vermiş qərənfillərdən tarix yazılır... "20 Yanvar", "1990"... Otuz dörd il qabaq Azərbaycan xalqına qoşulub Qanlı Şənbə şəhidlərinə yas tutan qərənfillər bu dəfə tariximizdən "danışır"...**

## Müxtəlifrəngli güllərdən ibarət kompozisiyalar yaradılıb

Yanvarın soyuq küləkli havasında Bakıda, Şəhidlər xiyabanında 20 Yanvar faciəsinin növbəti ildönümü ilə bağlı hazırlıq işləri başa çatıb. Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən məlumat aldıq ki, Şəhidlər xiyabanının ərazisi daim Bakı Şəhər İcra Hakimiyyətinin nəzarətindədir: "Ənənəvi olaraq faciənin ildönümü ilə bağlı burada Hüzn günü ilə bağlı hazırlıq işləri aparılıb. Müxtəlif rəngli güllərdən ibarət kompozisiyalar yaradılıb. Bu işlərə təcrübəli mütəxəssislər, landşaft-dizaynerləri cəlb olunublar. Şəhidlər xiyabanı ziyarətçiləri qarşılamağa tam hazırdır. Artıq neçə gündür ki, bu müqəddəs məkana axın-axın insanlar gəlir". Hazırlıq işlərinin yanvarın 19-dək başa çatdırılması planlaşdırılıb.

## Xalqın cəsarəti ilə qalibiyyət qazanılan gün...

Yetmiş il dövlətinin müstəqilliyinə həsrət qalan Azərbaycan xalqı otuz dörd il əvvəl imperiya buxovlarından birdəfəlik qurtulmaq üçün haqq səsini ucaltdı. Paytaxtın küçələrinə, meydanlarına çıxan azərbaycanlıların "Azadlıq" sədaları SSRİ rəhbərliyini təşvişə saldı. İmperiyanın mərkəzi hakimiyyəti 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə beynəlxalq hüquq normalarını və ölkə qanunlarını ayaqları altına salıb tapdaladı. Əhaliyə xəbərdar edilmədən Bakı şəhərində fövqəladə vəziyyətin tətbiqinə başlanıldı. Sovet ordu hissələrinin, xüsusi təyinatlı dəstələrin, daxili qoşunların iri kontingentinin və hətta SSRİ-nin ermənilərin sıx yaşadığı digər regionlarından olan ehtiyatdakı hərbçilərin iştirakı ilə həyata keçirilmiş hərbi təcavüz nəticəsində Bakıda dinc əhaliyə amansızlıqla divan tutuldu. Yüzlərlə insan qətlə yetirildi, yaralandı və itkin düşdü. Ancaq bu müdhiş cinayətə qol çəkənlər məqsədlərinə çatmadılar. Azərbaycan xalqının iradəsini sındıra, yenidən əsarətdə yaşamağa məhkum edə bilmədilər. 20 Yanvar faciəsi totalitar rejimin süqutunu daha da sürətləndirdi. Sovet imperiyası həmişəlik tarixə gömüldü.

Şəhidlər xiyabanına 20 Yanvar şəhidlərini ziyarətə gəlmiş paytaxt sakini Şükufə Zeynalova ilə qeyd etdiyimiz bu tarixi hadisələri birlikdə xatırlayırıq. Müsahibimiz vurğulayır ki, 1990-cı ilin yanvarında Azərbaycan xalqı vətənsevərliyi, mərdliyi, cəsarəti ilə təpədən-dırnağadək silahlanmış imperiya cəlladlarını mənən məğlub etdi.

## "Uşaqlarımız bilsinlər ki, bizim belə qəhrəmanlarımız var"

Azərbaycanın müstəqilliyinə qovuşmasından artıq on illər ötüb. O dövrün gəncləri yaşa dolub, uşaqları böyüyüb. Ötüb keçən zamanın axarında nəsillər bir-birini əvəz edir. Vətəninin, xalqının müstəqilliyi, azadlığı uğrunda şəhid olanlara ehtiram dəyişməzdir. Xalq öz qəhrəmanlarını sevgi ilə anır. Təqdirəlayiq bir məqam da odur ki, bu sevgi uşaqlara da aşılanır. Şəhidlər xiyabanında olarkən bunun bir daha şahidi olduq.

20 Yanvar faciəsinin otuz dördüncü ildönümünə qızğın hazırlıq işlərinin aparıldığı bir vaxtda Şəhidlər xiyabanına gələn ziyarətçilərin ardı-arası kəsilmir. Bir çoxu öz övladları, ya da nəvələri ilə gəlir.

Paytaxt sakini Əntiqə Əliyeva dostları ilə birlikdə şəhidlərin məzarı üstünə qərənfil düzən qızı Aytaca baxa-baxa danışır: "Doğrudur, biz valideynlər, eləcə də müəllimlər tariximizi uşaqlarımıza öyrədirik. Bizi sevindirən onların münasibətidir. Övladlarımız özləri də tariximizi öyrənmək, qəhrəmanlarımızı tanıtmaq istəyirlər".

Balaca Əli və Töhfə isə anaları ilə gəliblər. Ana söhbətimiz zamanı deyir: "Övladlarımın birinin 8, digərinin 5 yaşı var. Onlara ölkəmizin müstəqilliyi, torpaqlarımızın işğaldan azad olunması uğrunda qurban getmiş şəhidlərimizdən danışıram. Hər il 20 Yanvar faciəsinin ildönümündə onlarla bura gəlirəm. Bu gün də uşaqlarımı gətirmişəm ki, şəhidlərimizi yad etsinlər. Bilsinlər ki, bizim belə qəhrəmanlarımız var".

Ziyarətçilər arasında qrup halında gələnlər də diqqəti cəlb edirlər. Bakı şəhərindəki 194 saylı tam orta məktəbin ibtidai sinif müəllimi Şəfəq Rüstəmova şagirdləri arasında idi. Şəfəq Rüstəmova şagirdlərinə 20 Yanvar hadisələri barədə dəfələrlə məlumat verdiyini söyləyir: "Dərslərimizdə xalqımızın azadlığı yolunda qurban getmiş şəhidlərimizdən danışırıq. Bu gün isə bu xiyabanda onlara deyirik ki, biz azad yaşaya biliriksə, şəhidlərimizə borcluyuq. Onlar bizim - öz doğma xalqının övladlarının yolunda canlarından keçiblər".

Ankara liseyinin şagirdləri də Şəhidlər xiyabanına ziyarətə müəllimləri ilə birlikdə gəliblər. Məktəbin müəllimi Səbinə Abdullaqızı bu məqamı xüsusi vurğulayır: "Biz şəhidlərimizlə qürur duyuruq. Onların qəhrəmanlıq dolu real həyat hekayələrini böyük iftixar hissi ilə şagirdlərimizə danışırıq. Uşaqların gözlərində, sözlərində eyni sevgini, fəxarət hissini görüb eşitdikcə daha da qürurlanır, fərəhlənirik".

117 saylı tam orta məktəbin müəllimi Xəyalə Rüstəmova da şagirdləri ilə birlikdə Şəhidlər xiyabanının ziyarətçilərinə qoşulur. Məktəbin 2p sinfinin şagirdləri 20 Yanvar şəhidlərinə həsr olunmuş şeirlər söyləyirlər.

Gələnlərin çoxunun əllərində, ya da çiyinlərində üçrəngli Azərbaycan bayrağı var. Ziyarətçilər 20 Yanvar şəhidlərinin məzarları önünə tər qərənfillər düzürlər...

*Zöhrə FƏRƏCOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*










# Unudulmayan tarix

**Qanlı 20 Yanvar hadisələrindən 34 il keçir. 34 ildir ki, bu dəhşətli faciənin ağrı-acılarını yaşayırıq. Xalqımız 34 ildir şəhidlərin məzarını ziyarət edir, müstəqilliyimiz uğrunda canından keçmiş oğul və qızlarımızın ruhuna dualar oxuyur. Şəhidlərimizin cəsarəti qarşısında hamımız ehtiramla baş əyirik.**





Xalqımızın başına gətirilən bu faciə o qədər ağrılıdır ki, heç vaxt unudulmayacaq. Bir anlıq o çağlara qayıdıb xatırlayıram ki, dəfn günü küçə və prospektlər adamlarla dolu idi. Ayağı yer tutanların hamısı - qoca, uşaq, xəstə, hətta əlillər də çəliklərinə, qoltuq ağaclarına söykənərək dəfndə iştirak etməyə gəlmişdilər. İnsan seli dayanmış küçələrə baxdıqca damarlarda qan donurdu. Hüznlü baxışlardan kədər yağır, qəm süzülürdü. Analar, bacılar saçlarını yolur, ağı deyib haray qoparırdılar. Bu kədərli səslər hər kəsi kövrəldirdi. Üzlər qəmli, gözlər qüssəli və nəmli idi. Dəfnə gələnlərin ardı-arası kəsilmirdi. Elə bil şəhər sakinləri yatmamış, səhəri ayaq üstə küçələrdə qarşılamışdılar. Səkilərə, yollara qərənfillərdən xalı döşənmişdi. Elə bil ölkəmizin paytaxtına gül yağışı yağmışdı. Ətrafdakı ağacların budaqlarına, daşların künc-bucağına qara lentlər bağlanmışdı. Binaların eyvanlarından qara bayraqlar asılmışdı. Qara lentlər bağlanmış divarlar, daşlar da bu ağrıya ağlayırdı.

Yer də, göy də yüz illərin sükutuna dalmışdı. Səmanın hər tərəfinə səpələnmiş qara buludlar da lal-dinməz bir nöqtədə ayaq saxlamışdı. Hiss olunurdu ki, buludların da gözü nəmlidi. Adamlar sıx dayandığından onların arasından keçmək olmurdu.

Yolboyu divarlara əyri-üyrü xətlə "Qorbaçov faşist", "Qorbaçov cəllad " və başqa söz və şüarlar yazılmışdı. Haqsız yerə başına gətirilmiş dəhşətli faciədən hiddətlənən xalqın qəzəbi kükrəyib daşırdı. Dağüstü parkın girəcəyində insanlar ayaqüstə dayanmağa güclə yer tapa bildi. Şəhidlərin dəfn mərasimi xalqın milli-azadlıq mübarizəsinin məkanı olan Azadlıq meydanından başlamışdı. Küçələr, prospektlər bağlanmış, nəqliyyatın hərəkəti dayandırılmışdı. Şəhidlərin cənazəsini gətirən izdiham parlament binasının qarşısına günortaya yaxın çatmışdı.

Yaşlı qadınların, qız-gəlinlərin ah-naləsi ürəkləri dağlayırdı. Beş-altı yaşında olan bir oğlan uşağı atasının böyüdülmüş şəklini sinəsinə möhkəm-möhkəm sıxaraq tabutun qarşısında ürkək-ürkək gedir, ətrafında göz yaşları axıdanlara baxırdı. Kədər və qəm yükü daşıyan izdiham da yavaş-yavaş onun arxasınca irəliləyirdi. Sovet əsgərləri uşağın atasını öldürüb onu yetim qoymuşdular. Daha bundan sonra bu kiçik bala ata səsi, ata nəsihəti eşitmədən, ata nəfəsi duymadan, ata çörəyi yemədən böyüyəcəkdi. İndiyəcən dünyanın acısını dadmayan körpə bu dəqiqələrdə atasızlığını o qədər də dərk etmirdi. Kövrək addımlarla atasını dəfn etmək üçün məzara doğru gedirdi.

Şəhidlərin meyitlərini aparanların üz-gözündən qəm-qüssə yağırdı. Ağlaşma, ah-nalə səsləri bir-birinə qarışmışdı. Bir məktəblinin tabutunu gətirəndə birdən-birə yaxınlığımızdakılar haray qopardılar. İlqar adlı şagirdin meyitini görəndə yanımızda dayanan ağsaqqal bir kişi hönkürüb ağlaya-ağlaya dedi:

- Allah sovet əsgərlərinə lənət eləsin. Heç uşağa da güllə atarlar? Onlar bu körpəyə necə silah qaldırıblar? Ay camaat, heç bunlarda insaf-mürvət deyilən şey yox imiş ki! Uşağın günahı nə imiş ki, onu güllələmisiniz? Görüm sizin qollarınız qırılsın, gözləriniz çıxsın.

Dəfn günü Xəzərdəki gəmilər də aramsız olaraq fit verirdi. Hərbi helikopterlər də kəpənəklər kimi göydə qanad çalıb şəhərin səmasında dövrə vurub izdihamı izləyirdi. Helikopterlərin gur səsi göyə pərdə çəkmiş qara buludlarda əks-səda verib Yer üzünə səpələnirdi.

1990-cı ilin 20 Yanvarı əbədi olaraq yaddaşımıza dəfn, hüzn və qürur günü kimi yazılıb. Ona görə belə yazılıb ki, biz həmin gün müstəqilliyimiz uğrunda öz şirin canından keçmiş şəhidlərimizi qürur hissi ilə torpağa tapşırdıq. Ölkəmizin azadlığı uğrunda canlarından keçənlər heç vaxt unudulmayacaq. Biz onlarla fəxr edib öyünürük. Çünki bu cəsur insanlar qanları ilə adlarını xalqımızın qəhrəmanlıq tarixinə yazıblar. Qanla yazılan tarix isə daim yaddaşlarda yaşayır.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Vida

**Soyadını unutduğum keçmiş qonşumuz Muxtar kişi təxminən 50-55 yaşlarında hündürboylu, sağlam cüssəli bir insan idi. Saf dağ havası ilə böyüdüyündənmi, daim fiziki əməklə məşğul olduğundanmı, yaşıllıqları, təbiəti çox sevdiyindənmi həmişə gümrah görünürdü, necə deyərlər, yanağından elə bil qan damırdı.**

Bakıda, Səməd Vurğun və Həsən Əliyev küçələrinin kəsişdiyi yerdə, o vaxt həyətində 10-15 ev olan "ümumi həyət"lərin birində yaşayırdı. Daha doğrusu, erməni vandallarının əli ilə Qərbi Azərbaycandakı yurd-yuvasından didərgin salınandan sonra iki ilə yaxın idi ki, burada məskunlaşmışdı.

Xoşxasiyyətli idi. Qapıbir qonşuları ilə mehriban və səmimi davranar, lazım gələndə köməyini əsirgəməzdi.

20 Yanvar faciəsindən sonra Muxtar kişi bir müddət gözə dəymədi. Deməli... O müdhiş gecədə yaşadığı ərazidən keçən təcili yardım maşınlarının vahiməli səsinə laqeyd qala bilməyib, onların ardınca yaxınlıqdakı Semaşko adlanan xəstəxananın həyətinə yollanıb. Özü ilə apardığı yeniyetmə oğlu Babəklə birlikdə yaralıların xəstəxananın palatalarına və cərrahiyyə şöbəsinə daşınmasına kömək edib. Ertəsi gün isə xəstələnib. Həyat yoldaşı və qızları ona möhkəm soyuq dəydiyini deyirdilər.

Amma nədənsə bu "soyuqdəymə" uzun çəkirdi. Qonşumuz gündən-günə geriləyirdi, avazıyan rəngi, əyilən qəddi diqqətdən yayınmırdı.

Bir gün yenə həyətdə rastlaşdıq:

- Necəsiniz, Muxtar əmi, səhhətiniz necədir?

O, cavab əvəzinə qonşumuz Süleyman kişinin həyətdə quraşdırdığı skamyaya çöküb yanında yer göstərərək:

- Gəl, bir hovur otur, qızım, - dedi və asta-asta bir hekayət danışmağa başladı:

- 1941-də balaca uşaq idim. Atamı davaya apardılar, az sonra anam yatağa düşdü, məni taleyin ümidinə buraxaraq dünyadan köçdü. Mənsə gərdişi-dövranın hökmü ilə Azərbaycana - Tovuz rayonunun Yuxarı Öysüzlü kəndinə düşdüm. Bilmirəm necə oldu ki, o kənddəki uşaq evinə yerləşdirildim və dövlətin, yaxşı insanların köməyi ilə orada böyüdüm. Zamanın böyük çətinlikləri müqabilində günlərim pis keçmədi. Qarnımız pis-yaxşı tox idi. Təhsil alır, mütaliə edir, mahnı oxuyur, oynayırdıq. Orada yaşca məndən bir qədər böyük olan oğlandan tar çalmaq da öyrəndim... Xülasə, Hitler faşizmi məni məhv edə bilmədi. Böyüdüm, dikəldim, yenidən öz doğma ata yurdum Gümrüyə qayıtdım. İri yük maşınlarında sürücü işlədim, ailə qurdum, ev-eşik sahibi oldum. Əslində, özümə görə bir xaniman qurmuşdum. Altlı-üstlü geniş otaqlarım, bağ-bostanım vardı. Hamısı haramla yaşayan o tayfaya qaldı. Yurd-yuvamızdan dərbədər düşdük. Tikib-qurduğumuzdan, qazanıb aldığımızdan heç nə götürə bilmədik. Deməli, erməni faşizmi də məni məhv edə bilmədi. Gördüyünüz kimi, sıfırdan başlayıb yenidən güzəran qururam, işləyirəm, ailəmə korluq vermirəm. Amma ...

Muxtar kişi bir anlığa susub yenidən təkrar etdi:

- Amma o gecə Semaşkonun həyətində gördüklərim... Bu da bir başqa faşizmin törətdiyi cinayətlər idi. Bir başqa cəlladın qanlı əl izləri idi. Bax, bu qollarımın üstündə neçə canlı və cansız cavan daşıdım. İndi belimi bükən həmin gecə götürdüyüm fiziki ağırlıq deyil, o namərdlərin, cəlladların törətdiyi vəhşiliklərdən yaşadığım dəhşətdir.

Muxtar kişi iki qolunu arxasında çarpazlayaraq belinə təpər verirmiş kimi ayağa qalxdı...

Bir neçə gün sonra səhər erkən qonşular dedi ki, bu gecə Muxtar kişi ürəyinin sancması ilə həyata vida edib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*






# Gənclik






● Qarabağ Azərbaycandır!



## Azərbaycançılıq ruhundan doğan vətənpərvərlik əzmi

**Bu gün üzərinə düşən vətəndaşlıq borcunu şərəf və ləyaqətlə yerinə yetirən Azərbaycan gəncliyi dövlətimizin, dövlətçiliyimizin daha da möhkəmlənməsində böyük əzm və qətiyyət nümayiş etdirir. Belə fəallıq Azərbaycan gəncliyinin vətənpərvərliyindən, yurda olan tükənməz sevgisindən və mübarizlik əzmindən qaynaqlanır.**

Vətənpərvərlik insanın daxili aləmindən, ölməz ruhundan gələn ülvi və müqəddəs bir hissdir. Bu, onun dövlətinə, xalqının ulu tarixi keçmişinə, vətəndaşı olduğu ölkəsinə sıx bağlılığından xəbər verir. Vətənpərvərlik qoynunda dünyaya göz açdığın torpağa tükənməz məhəbbət və sevgi, Vətənin azadlığı uğrunda əzmkarlıqla vuruşmaq deməkdir. Bu ali hiss insan qəlbində bir günün, bir anın içində yaranmır. Bu ülvi hiss zaman-zaman formalaşmır. Vətənpərvərliyin tarixi kökündə min illər boyu yaşanmış, möhkəmlənmiş, ana torpağına, dilinə və başqa mənəvi amillərə bağlanmış dövlətçilik ənənələri dayanır. Vətənpərvərlik hər şeydən əvvəl düşmən təcavüzü zamanı doğulduğu və yaşadığı ölkəsinin müdafiəsinə qalxmaq, onun müstəqilliyini göz bəbəyi kimi qorumaq, inkişafına kömək və qayğı göstərməkdir.

Azərbaycanlı kimi doğma torpağı sevmək, onun adını hər şeydən uca tutmaq, bu yolda mübarizəyə hazır olmaq hər bir vətəndaşın müqəddəs borcudur. Zaman-zaman xalqımızın içindən çıxmış böyük şəxsiyyətlər, vətənpərvər insanlar gələcək nəsillərə nümunə olmuşlar. Böyük tarixi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevin hələ sovet dönəmində doğma xalqı, vətəni üçün gördüyü böyük işlər gənclər üçün əvəzsiz və çox qiymətli bir örnəkdir.

Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi zamanlarda dövlətçilik və vətənpərvərliyi özündə birləşdirən azərbaycançılıq məfkurəsini milli ideologiya səviyyəsinə qaldırdı. Bundan sonra gənclərin vətənpərvərlik əzmi daha da yüksəldi. Ulu Öndər çıxışlarında bu vacib məqamı tez-tez vurğulayaraq deyirdi: "Milli ideologiya nədən ibarətdir? Birinci, dövlətçilik. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır, Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə hər bir vətəndaş vətənpərvərlik hisslərilə yaşamalıdır".

Ulu Öndər Heydər Əliyevin böyük vətənpərvər kimi tarixdə qalacaq xidmətlərindən biri də azərbaycançılıq məfkurəsini daim inkişaf etdirməsində, onu milli ideologiyaya çevirməsində və etnik müxtəlifliyi bu ideologiya ətrafında sıx birləşdirməsindədir. Bu məfkurənin başqa bir mühüm missiyası da dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizin birlik və həmrəyliyini təmin etməsindədir. Əsasını Ulu Öndərin qoyduğu azərbaycançılıq məfkurəsi gələcəyimiz olan gənclərin də vətənpərvərlik hisslərinin formalaşmasında zaman-zaman çox mühüm rol oynadı. Azərbaycançılıq ideologiyası gəncliyimizin vətənpərvərlik hisslərini daha da sürətlə formalaşdırdı, əzmkarlığını, mübarizliyini durmadan artırdı.

Bu gün gənclərimizin azərbaycançılıq ideologiyası ruhunda tərbiyə olunması istiqamətində mühüm addımlar atılır. Təbiidir ki, belə yüksək dəyərli ideologiya ilə tərbiyə olunan gənclərimiz çalışdıqları bütün sahələrdə uğurlar qazanır, dövlətimizin, dövlətçiliyimizin möhkəmlənməsində böyük səylər nümayiş etdirirlər. Vətənpərvərlik əzmindən doğan azərbaycançılıq ruhu daim gənclərimizə güc, qüvvət verəcək. Onları uğurlara, zəfərlərə qovuşduracaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Tarix yazan oğullar

## Vətən sevgisi

**27 sentyabr 2020-ci ildə ermənilərin təxribatı nəticəsində Vətən müharibəsi başlayanda əsgər İskəndərli Elnur Zöhrab oğlu "N" hərbi hissəsində xidmət edirdi. Elə ertəsi gün onları düşmən təxribatının qaşısını almaq üçün ön xəttə apardılar.**

Əsgər E.İskəndərli bir aya yaxın torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə cəsarətlə vuruşdu. Həmin günlərdən söz açan Elnur dedi ki, ilk döyüşümüz Füzuli rayonu istiqamətində oldu. Düşmən burada ciddi müqavimət göstərir, geri çəkilmək istəmirdi: "Biz də qəsbkarları torpaqlarımızdan qovmaq üçün hücumlarımızı dayandırmırdıq. Nəhayət, gərgin əməliyyatlardan sonra erməni işğalçılarının müqavimətini qırıb geri oturtduq. On gün Füzuli uğrunda vuruşduq. Bundan sonra bölüyümüzün şəxsi heyətini Cəbrayıl istiqamətində gedən əməliyyatlara cəlb etdilər".

Torpaqlarımızın azadlığı uğrunda gərgin döyüşlər gedirdi. Düşmən güclü hücumlarımız qarşısında dayana bilməyib geri qaçırdı. On gün də Cəbrayıl rayonunun əraziləri uğrunda vuruşublar. "Sonra komandanlığın əmri ilə döyüşlərimizi Xocavənddə davam etdirdik. Həyatımızda ilk dəfə idi ki, belə gözəl yerlər görürdük. Düşməni məğlub edib geri sıxışdıra-sıxışdıra Qarabağın dərinliklərinə doğru gedirdik. Artıq döyüşlər Qırmızı Bazar kəndi uğrunda gedirdi. Ciddi müqavimət göstərmələrindən hiss olunurdu ki, geri çəkilən qəsbkarlar qısa müddət ərzində burada möhkəmlənə biliblər. Düşmən nə qədər müqavimət göstərsə də, qarşımızda çox dayana bilmirdi.

Təəssüflər olsun ki, Qırmızı Bazar kəndi uğrunda gedən əməliyyatda yaralandım. Döyüş yolum yarımçıq qaldı. Yerimi müəyyənləşdirən



işğalçılar məni pulemyotla atəşə tutdular. Kürəyimə iki, ayağıma bir güllə dəydi. Yaralarım ağır idi. Əsgər yoldaşlarım Xəyyam Qədiməliyevlə İsa Musazadə həyatlarını riskə ataraq güllə yağışı altında məni yaralandığım mövqedən nisbətən təhlükəsiz yerə çıxartdılar. Az müddətdən sonra yaralıları Cəbrayıl rayonunun Daşkəsən kəndinə gətirdilər. Burada həkim baxışı keçiriləndən sonra məni Füzuli rayonundakı hospitala çatdırdılar. Həkimlər əməliyyat edib bədənimdə qalmış güllələrdən birini çıxartdılar. İki-üç gündən sonra müalicəmi davam etdirmək üçün respublika Neyro-Cərrahiyyə Xəstəxanasına göndərdilər. Bu şəfa ocağında çalışan iki həkim - Bəhruz və Kamil Eyvazov qardaşları bədənimdə qalmış güllələri çıxartdılar. Bəziləri deyirdilər ki, güllələr vacib orqanlarımı zədələdiyinə görə yataqdan qalxa bilməyəcəm. Amma mən bununla razılaşmayıb ayağa qalxmaq üçün mübarizə apardım. Yorulmaq bilmədən idmanla məşğul oldum, fiziki hazırlığımı gücləndirdim. Bu gün çəliklə yerisəm də, ayaq üstəyəm. 1-ci qrup Qarabağ müharibəsi əlili kimi dövlətimiz tərəfindən mənzillə də təmin olunmuşam".

Cəsur döyüşçü Elnur İskəndərli 10 dekabr 1996-cı ildə Sumqayıt şəhərində dünyaya göz açıb. Xırdalan qəsəbəsindəki 3 nömrəli orta məktəbdə oxuyub. Sonra Azərbaycan Dövlət Texniki Universitetinə qəbul olub. 2020-ci ilin iyulunda ordu sıralarına çağırılıb. Həmin ilin payızında isə döyüşlərə, yurdumuzun müdafiəsinə yollanıb.

Elnur söhbət zamanı dedi ki, atam əslən Qubadlı rayonunun Tarovlu kəndindəndir. Yaxınları, qohumları 31 avqust 1993-cü ildə erməni hücumları nəticəsində doğma ocaqlarından qaçqın düşüblər. Böyük çətinliklərlə Sumqayıtda məskunlaşıblar. "Nəcəf babam həmişə kəndlərindən həsrətlə danışar, doğma ocaqlarına qayıtmaq arzusu ilə yaşayırdı. Ona təskinlik verib deyirdim ki, baba, çox üzülmə, inşallah, biz böyüyüb torpaqlarımızı erməni işğalçılarından azad edəcəyik. Doğrudan da, biz böyüdük və 30 ilə yaxın qəsbkarların işğalında qalmış torpaqlarımızı düşmənlərdən təmizlədik. Tarovlu kəndi işğaldan azad olunanda onun sevinci yerə-göyə sığmırdı. Bu yaxınlarda babam kəndə getmişdi. Ayağı doğma ocaqlarına dəyəndən sonra kişi elə bil xeyli cavanlaşmışdı. Mən də valideynlərimlə birlikdə uzun illər həsrətini çəkdiyim, amma üzünü görmədiyim Tarovluya qayıdacağam. Bu, mənim Vətən sevgisindən qaynaqlanan bir istəyimdir".

44 günlük Vətən müharibəsinə yollanan Elnur İskəndərov döyüşlərdə böyük igidlik göstərərək valideynlərinin, doğmalarının yanına "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı" medalları ilə qayıdıb. Həmçinin cəsur döyüşçüyə ölkədə 44 nəfərdən biri olaraq "Dəmir yumruq" mükafatı verilib. İnanırıq ki, Elnurun ürəyində çağlayan Vətən sevgisi heç vaxt tükənməyəcək.

*V.MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Gənc alimlərimiz

## Tarixi əmanətləri qorumaq borcumuzdur

**"Mən dilimizi, dinimizi, vətənimizi necə sevməyi Ulu Öndər Heydər Əliyevdən öyrənmişəm. Özümü bəxtli hesab etməkdə tam haqlıyam. Xoşbəxtəm ki, Vətənini, dövlətini, xalqını canından çox sevən müdrük insan, dahi şəxsiyyət Ulu Öndərlə canlı təmasda olub ondan tövsiyələr almışam. Elə dilçi-alim olmaq istəyi də məndə Ümummilli Liderin nitqinə vurğunluqdan yaranıb desəm, səhv etmərəm", - deyir Səminə Abdullayeva.**

Həmsöhbətimiz Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi Səminə Sabir qızı Abdullayeva Gəncədə anadan olub. 2002-ci ildə Gəncə Dövlət Universitetinin İbtidai təhsilin pedaqogikası və metodikası fakültəsini bitirib. Sonra həmin ali məktəbdə təhsilin magistratura pilləsini fərqlənmə diplomu ilə başa vurub. Pedaqogika üzrə fəlsəfə doktorudur. 2018-ci ildən filologiya üzrə elmlər doktoru proqramı üzrə çalışır. Doktorantdır.

Bir sıra respublika və beynəlxalq elmi konfransların, simpoziumların iştirakçısı olan Səminə Abdullayevanın elmi məqalələri ölkəmizdə və xaricdə nüfuzlu mətbuat orqanlarında çap olunub. Nitq mədəniyyəti normaları üzrə araşdırmaçı alim deyir ki, bəzi televiziya və radio kanallarında, internet resurslarında, mətbu nəşrlərdə və reklam daşıyıcılarında ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi, məişət danışığından istifadə olunması, əcnəbi söz və ifadələrin yersiz işlədilməsi az qala adi hala çevrilib. Bu sahədə hüquqi tənzimləmənin və daimi nəzarətin olmaması dil pozuntularının azaldılması və aradan qaldırılması istiqamətində təsirli tədbirlər görməyə imkan vermir.

Ömrünü Azərbaycan dilinin inkişafına, böyüməkdə olan nəslin təlim-tərbiyəsinə həsr edən gənc alim, pedaqoq Səminə xanım deyir ki, Azərbaycan gəncliyi son 200 ilin ən şanlı qəhrəmanlıq tarixini yaşayır. Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik nəsil formalaşıb. Gənclər bütöv və müstəqil Azərbaycan naminə canlarından keçdilər, şəhid oldular. Onlar sağlamlıqlarını itirsələr də, qarşıya qoyulan məqsədə çatdılar. Şanlı tarix yazdılar...

Səminə müəllimə deyir ki, elmdə qazandığı uğurlara görə professor Mübariz Yusifova



sonsuz minnətdardır. Onun sayəsində daha güclü, səbrli, cəsarətli olub. Demək olar ki, həyatın dəyərini istirahətlə deyil, zəhmətlə ölçməyi gənc yaşlarından müəllimlərindən öyrənib. Qazandığı uğurlara görə professor Mahirə Nağı qızına borcludur. Özünün dediyi kimi, "biz hər birimiz mənəvi dəyərlərimizi qoruyan bir əsgər olmalıyıq. İtmiş hər hansı mənəvi dəyər əvəzedilməzdir və bu, gələcək nəsillərə qarşı cinayətdir. Biz müəllimlər də həm olkəmizdə, həm də xaricdə konfranslarda iştirak edərkən çalışırıq ki, mənəvi dəyərlərimizi qoruyaq, Azərbaycanın tarixi həqiqətlərini dünyaya çatdıraq".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

● Anım

## Dövlət Teatr Muzeyində 20 Yanvar faciəsinin 34-cü ildönümünə həsr olunmuş tədbir keçirilib



**Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində 20 Yanvar faciəsinin 34-cü ildönümünə həsr olunmuş "Azadlığa aparan yol!" adlı tədbir keçirilib.**

Muzeydən bildirilib ki, əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Sevinc Mikayılova 20 Yanvar gününün Azərbaycan xalqı üçün tarixi əhəmiyyətindən söz açıb.

Muzeyin əməkdaşı, elmi-kütləvi işlər üzrə şöbənin müdiri Ümidə Hacıyeva məruzə ilə çıxış edərək 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə baş verən qanlı hadisələrdən, o cümlədən xalqımızın milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəsindən danışıb.

Eyni zamanda tədbir çərçivəsində "20 Yanvar" İctimai Birliyinin üzvləri Sahib Əlizadə və Fəxrəddin Məmmədov həmin günün canlı şahidləri kimi öz xatirələrini bölüşüblər. O dəhşətli gecədə millətimizin axan qanının hədər getmədiyini, bugünkü müstəqilliyimizin bünövrəsinin elə həmin gün qoyulduğunu vurğulayıblar.

Sonra qonaqlara muzey işçiləri tərəfindən hazırlanmış 20 Yanvar faciəsini əks etdirən videoçarx nümayiş olunub.

Tədbirin bədii hissəsində Azərbaycan Milli Konservatoriyası nəzdində fəaliyyət göstərən Asəf Zeynallı adına Musiqi Kollecinin tələbələri vətənpərvərlik mövzusunda müxtəlif musiqi nümunələri ilə çıxış ediblər.

Tədbirdə qonaqlarla yanaşı, Suraxanı rayonu Ələkbər Eyvazov adına 275 nömrəli tam orta məktəbin müəllim və şagirdləri, muzey əməkdaşları və media nümayəndələri iştirak ediblər.

● Xəbər

## Xarici ölkələrdə təhsil almaq imkanları artırılır

"Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində hər il 400 nəfərədək olmaqla, ümumilikdə 2 minə yaxın Azərbaycan Respublikası vətəndaşının xaricdə nüfuzlu ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələrində təhsil alması nəzərdə tutulub. Ötən 2 il ərzində 146 bakalavriat, 571 magistratura səviyyəsində olmaqla, 717 nəfər tələbə təqaüd almaq hüququ qazanıb. 2023-2024-cü tədris ilində dövlət proqramı çərçivəsində bakalavriat səviyyəsi üzrə 64, magistratura səviyyəsi üzrə 317 nəfər, ümumilikdə 381 nəfər xaricdə təhsil almaq hüququ qazanıb.



## Reallığa və çağırışlara əsaslanan dəyişikliklər



**Azərbaycan gəncliyinə diqqət və qayğı daim dövlətimizin diqqət mərkəzindədir. Müntəzəm olaraq bu istiqamətdə mühüm addımlar atılır.**

"Azərbaycan gəncliyi" adlı ardıcıl olaraq 2005-2009, 2011-2015, 2017-2021-ci illərdə 3 dövlət proqramı qəbul və icra edilib. "2015-2025-ci illərdə Azərbaycan gənclərinin inkişafı Strategiyası" təsdiq edilib. "Gənclər siyasəti haqqında Qanun"a yeni dövrün reallıq və çağırışlarına cavab verən dəyişikliklər əlavə olunub. Qəbul olunan dəyişikliklər gənclərin cəmiyyətdə daha böyük nüfuz sahibi olmalarına münbit şərait yaradır.

# İlin ilk qayıdış köçü





**Tariximizin şanlı səhifəsi olan 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər yüz minlərlə vətəndaşımızın yurd həsrətinə son qoydu. İşğaldan azad edilmiş ərazilərimizdə müharibədən dərhal sonra başlanılan yenidənqurma işləri sayəsində şəhər və kəndlərimiz sürətlə bərpa edilir.**

2022-ci il iyulun 19-da 30 il sonra düşmən tapdağından azad edilmiş torpaqlarımız ilk qayıdış karvanını qəbul etdi və doğma sakinlərinə qovuşdu. Ötən iki ildə Qarabağ və Şərqi Zəngəzura qayıdan vətəndaşlarımızın sayı mütəmadi olaraq artdı.

Dünən isə 2024-cü ilin ilk köçü Füzuliyə yola salındı. Bu mərhələdə Füzuli şəhərinə daha 30 ailə - 127 nəfər köçürüldü. Respublikanın müxtəlif ərazilərində uzun illərdir müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə yanvarın 18-də Bakı şəhərinin Qaradağ rayonundan yola salındı. Bununla da indiyədək Füzuli şəhərində 410 ailənin (1519 nəfər) daimi məskunlaşması təmin edildi.

## "Keçmişimi, cavanlığımı, yaddaqalan xatirələrimi təzələməyə gedirəm"

Doğma yurda qayıdan Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə dövlət başçısına və torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna minnətdarlıqlarını bildirirlər.

17 yaşında Füzulidən məcburi köçkün düşən Aynur İbrahimova deyir ki, işğaldan sonra Xəzər rayonunun Binə qəsəbəsində məskunlaşıb: "Hər qarışının həsrətini çəkdiyim dədə-baba yurduma 47 yaşında övladlarımla birlikdə qayıdıram. Füzuliyə itirdiyim keçmişimi, cavanlığımı, yaddaqalan xatirələrimi təzələməyə gedirəm. Doğulub boya-başa çatdığım yerlərə qayıtdığım üçün çox xoşbəxtəm".

Füzuli sakini Elnur Məmmədov isə söyləyir ki, torpaqlarına qayıtdığı üçün sevincinin həddi-hüdudu yoxdur: "Füzulidən ayrılanda 12-13 yaşım olardı. Bu illər ərzində çox ağrılı-acılı günlər yaşadıq. Allaha şükürlər olsun ki, çətin günlər artıq geridə qaldı. Xatirələrimdə qalan doğma yerləri görmək üçün tələsirəm".

Ailəsi ilə birlikdə doğma yurduna qayıdan keçmiş məcburi köçkün Habil İbrahimov bildirir ki, istər məcburi köçkünlük zamanında, istərsə də indi daim dövlətin diqqət və qayğısı ilə əhatə olunublar: "Bunun üçün minnətdaram. Füzulidən çıxmağa məcbur olanda 16 yaşım var idi. Hazırda isə 47 yaşında uşaqlığımın və gəncliyimin keçdiyi doğma yerlərə getdiyim üçün sevincli və bir o qədər də həyəcanlıyam".

## İndiyədək 4818 nəfər doğma el-obasına qovuşub

Azərbaycan ötən ili də tarixi uğurlarla başa vurdu. Ölkəmiz növbəti qələbəsini əldə etdi. Sentyabrın 20-də suverenliyimiz tam təmin olundu.

Təkcə 2023-cü ildə Tərtərin Talış, Laçının Zabux kəndlərinə, Füzuli və Laçın şəhərlərinə minlərlə köç karvanları yola salındı, minlərlə insan əzəli torpaqlarına qovuşdu.

Böyük qayıdış proqramına əsasən, ilk beşillikdə 34 min 500 ailə azad edilmiş ərazilərə köçürüləcək. Bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilir. Artıq 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 408 ailə (1555 nəfər) Laçın şəhərinə, 410 ailə (1519 nəfər) Füzuli şəhərinə, 203 ailə (783 nəfər) Laçın rayonunun Zabux kəndinə qayıdıb. Ümumilikdə isə 1216 ailə - 4818 nəfər elinə, obasına qovuşub.

İşğaldan azad edilmiş torpaqlarımızda yeni infrastrukturlar qurulur, yollar salınır, kommunikasiya sistemləri yaradılır, hava limanları tikilir. Sürətlə həyata keçirilən bu işlər onu deməyə əsas verir ki, 30 ilə yaxın məcburi köçkün həyatı yaşamış vətəndaşlarımızın hamısı tezliklə əzəli torpaqlarına qovuşacaqlar.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Abşeron yarımadasının bəzi yerlərində qısamüddətli yağıntı gözlənilir

**Azərbaycanda yanvarın 19-na gözlənilən hava proqnozu açıqlanıb.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə qısamüddətli az yağıntılı olacağı ehtimalı var. Mülayim cənub küləyi gündüz arabir güclənəcək.

Havanın temperaturu gecə 4-7°, gündüz 7-12° isti olacaq. Atmosfer təzyiqi 763 millimetr civə sütunundan 761 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz təşkil edəcək.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, gündüz 6-11° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 4° şaxtadan 1°-dək isti, gündüz 4-9° isti olacağı ehtimal edilir.

Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 10-15° isti olacağı ehtimalı var.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək, gündüz 9-14° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 5-10° isti olacağı gözlənilir.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şərq rayonlarında qısamüddətli az yağıntılı olacağı ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1-6°, gündüz 12-17° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə qısamüddətli az yağıntılı olacağı ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-6°, gündüz 10-15° isti, dağlarda gecə 0-3°, gündüz 9-14° isti olacağı proqnozlaşdırılır.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
tabeliyində olan struktur idarələrə tələb olunan tikinti materiallarının satın alınması məqsədilə
**açıq müsabiqə elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 29 yanvar 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 12-42**

***Tender komissiyası***

OXUCULARIN NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*
*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**




**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# Ermənistanın dağ-mədən sənayesində çalışan şirkətlərin fəaliyyətinin ətraf mühitə təsiri ilə bağlı sənədlərin ictimaiyyətə açıqlanmaması suallar doğurur

**Cənubi Qafqazda ətraf mühitin mühafizəsi istiqamətində fəaliyyət göstərən "Environmental Protection First" (EPF) Koalisiyası Ermənistanın dağ-mədən sənayesində çalışan yerli və xarici şirkətləri Ətraf Mühitə Təsirlərin Qiymətləndirilməsi (ƏMTQ) sənədlərini, yaxud qiymətləndirmənin nəticələrini ictimaiyyətə açıqlamağa çağırıb.**



AZƏRTAC koalisiyanın bununla bağlı bəyanatını təqdim edir: "Cənubi Qafqaz regionunda ətraf mühitin mühafizəsi istiqamətində fəaliyyət göstərən "Environmental Protection First" (EPF) Koalisiyası bir müddət əvvəl Ermənistanın dağ-mədən sənayesində çalışan yerli və xarici şirkətləri Ətraf Mühitə Təsirlərin Qiymətləndirilməsi (ƏMTQ) sənədlərini tez bir zamanda öz rəsmi internet saytlarında yerləşdirməyə, yaxud qiymətləndirmənin nəticələrini ictimaiyyətə açıqlamağa çağırıb. Təəssüf ki, bu sənədlər hələ də ictimaiyyətə təqdim olunmayıb. Bu, Ermənistanın dağ-mədən sənayesindəki fəaliyyətinin şəffaflığı ilə bağlı suallar doğurur.

Biz Ermənistanda dağ-mədən sənayesində fəaliyyət göstərən şirkətləri koalisiyamızla əlaqə qurmaqda açıq olmağa çağırırıq. EPF Koalisiyası regionumuzda daha geniş ekoloji çirklənmə ilə bağlı rəhbərliklə görüş istəmək üçün həmin şirkətlərin korporativ qərargahlarına müraciət etməyi planlaşdırır. "Environmental Protection First" (EPF) hesabatlılığın təmin edilməsinin zəruriliyini vurğulayır.

Biz BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərini rəhbər tutaraq, bir neçə ay əvvəl Ermənistanın baş nazirinə müraciətimizdə bu ölkənin dağ-mədən sənayesinin yaratdığı ciddi ekoloji vəziyyətlə bağlı dərin narahatlığımızı bildirmiş, hasilatın dərhal dayandırılmasını tələb etmişik.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Cənubi Qafqazda, Azərbaycanda keçiriləcəyini nəzərə alaraq, Ermənistan ətraf mühitin mühafizəsi məsələsində daha diqqətli olmalıdır.

Biz Ermənistanın vətəndaş cəmiyyəti təşkilatlarını və ətraf mühit üzrə fəallarını Cənubi Qafqazda təmiz ətraf mühitin təmin olunması naminə səylərimizi birləşdirməyə çağırırıq. Axı bu ekoloji fəlakətdən, ilk növbədə Ermənistan əhalisi zərər görür. Gəlin unutmayaq ki, təbiət heç bir sərhəd tanımır və hamımız bir regionda yaşayırıq.

Ermənistan dağ-mədən sənayesində fəaliyyət göstərən həm yerli, həm də xarici şirkətlərin ƏMTQ sənədlərinin tam məzmununu ictimaiyyətə açıqlamalarını və ekoloji ədalət naminə məsuliyyətlə davranmalarını təmin etməlidir".

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadəyə və YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Cavanşir Paşazadəyə əzizləri

**ŞƏRİF ƏSƏDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadəyə və Milli Məclisin deputatı Cavanşir Paşazadəyə əzizləri

**ŞƏRİF ƏSƏDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahsükür Paşazadəyə və Milli Məclisin deputatı Cavanşir Paşazadəyə əzizləri

**ŞƏRİF ƏSƏDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və Katibliyin rəhbərliyi Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadəyə və Milli Məclisin deputatı Cavanşir Paşazadəyə əzizləri

**ŞƏRİF ƏSƏDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Dövlət İqtisad Universitetinin Biznesdə logistika kafedrasının müdiri Məhəmməd Əliyevə həyat yoldaşı

**TUTUXANIM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahsükür Paşazadəyə və Milli Məclisin deputatı Cavanşir Paşazadəyə əzizləri

**ŞƏRİF ƏSƏDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahsükür Paşazadəyə və Milli Məclisin deputatı Cavanşir Paşazadəyə əzizləri

**ŞƏRİF ƏSƏDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikasi Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynova atası

**QUBAD BARAT OĞLU HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşova bacısı

**GÜLABATIN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3693
Sifariş 97

Qiyməti 60 qəpik